KƏMALƏ CƏFƏRZADƏ

# TƏSVİRİ İNCƏSƏNƏT

# 8

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08.06.2015-ci il tarixli 645 nömrəli əmri ilə təsdiq edilmişdir

Çap üçün deyil

YAZNƏŞR

Bakı – 2015

**Təsviri incəsənət – 8.** Müəllim üçün metodik vəsait.
K. Cəfərzadə. Bakı, "Yaznəşr", 2015, 96 səh.

ISBN-978-995 2-433-09-1

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2015

Dil redaktoru: S.Mehrəliyeva
Redaktor: M.Məmmədova
Korrektor: K.Cəfərli

Formatı: 70x 100 1/16. Ofset kağızı №1. Fiziki çap vərəqi: 6.
Çapa imzalanmışdır: 05.07.2015. Tirajı: 7000. Pulsuz.



Çap üçün deyil

**MÜNDƏRİCAT**


Dərslik komplekti haqqında ....................................................................................4

Dərsliyin tədris vahidləri üzrə məzmunu ...........................................................................4

Dərsliyin təlim materialları ilə tanışlıq ..............................................................................4

Müəllim üçün metodik vəsait ...................................................................................6

Təsviri incəsənət dərslərində İKT-dən istifadə imkanları ...........................................7

Təlimin təşkilində istifadə olunan forma və üsullar .....................................................7

Təsviri incəsənət dərslərində musiqinin rolu ..............................................................7

Təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) haqqında ...........................8

VIII sinif üçün təsviri incəsənət fənni üzrə məzmun standartları.................................10

Dərslik komplektinin mövzular üzrə strukturu ..........................................................11

Fənn üzrə məzmun standartlarının reallaşma cədvəli .................................................12

Fənlərarası inteqrasiya cədvəli.....................................................................................13

İllik planlaşdırma nümunəsi cədvəli ..........................................................................15

Şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və üsulları ..................................17

Təsviri incəsənət fənni üzrə formativ qiymətləndirmə zamanı istifadə olunan üsul və vasitələr ..........................................................................................20

**MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ**

1. **TƏSVİRİ SƏNƏTDƏ TARİXİ HADİSƏLƏR VƏ QƏHRƏMANLIQ MÖVZUSU** ..........................................................................................22

Gündəlik planlaşdırmaya dair dərs nümunəsi ............................................................34

2. **TƏSVİRİ SƏNƏTDƏ YENİ DÖVRÜN BƏDİİ İFADƏ VASİTƏLƏRİ** ............39

Gündəlik planlaşdırmaya dair dərs nümunəsi ............................................................61

3. **AZƏRBAYCAN SƏNƏTKARLARI**.....................................................................65

Gündəlik planlaşdırmaya dair dərs nümunəsi ............................................................83

Kiçik summativ qiymətləndirmə nümunələri...............................................................88

Mənbələr ....................................................................................................................95




Çap üçün deyil

## DƏRSLİK KOMPLEKTİ HAQQINDA

Azərbaycan Respublikasında ümumi orta təhsilin Konsepsiyası (Milli Kurikulumu) əsasında hazırlanmış 8-ci siniflər üçün "TƏSVİRİ İNCƏSƏNƏT" fənnindən dərslik komplekti **dərslik** və **müəllim üçün metodik vəsait**dən ibarətdir.

## DƏRSLİYİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ MƏZMUNU

Dərslikdə Azərbaycanın və Avropanın yeni dövr incəsənəti haqqında şagirdlər üçün yeni məlumat və anlayışlar verilmişdir. Mövzularda təsviri sənətin növ və janrları, sənətkarlıq, memarlıq, dekorativ-tətbiqi sənətlər inkişaf tarixi baxımından şərh edilir. Dərslikdə istifadə olunan elmi anlayış və zəngin reproduksiyalar əhatəli məzmunla müşayiət olunur.

Mövzular 3 tədris vahidində cəmləşdirilmişdir:

1-ci tədris vahidi "TƏSVİRİ SƏNƏTDƏ TARİXİ HADİSƏLƏR VƏ QƏHRƏMANLIQ MÖVZUSU" adlanır, 5 mövzu və 5 tədris saatından ibarətdir. Burada mövzular müharibə və hərb həyatını, döyüş və hərbi yürüş səhnələrini, cəmiyyətin həyatında sosial əhəmiyyətli tarixi hadisələri və bu janrlarda yaratmış rəssamların yaradıcılığını əks etdirir.

2-ci tədris vahidi – "TƏSVİRİ SƏNƏTDƏ YENİ DÖVRÜN BƏDİİ İFADƏ VASİTƏLƏRİ" özündə 8 mövzu üzrə 13 tədris saatını cəmləşdirir. Bu mövzular yeni dövrdə impressionizm və postimpressionizm cərəyanında yaşayıb-yaratmış rəssamların həyat və yaradıcılığı ilə tanışlığa həsr edilib. İmpressionizm və postimpressionizm – XIX əsrdə Fransada mövcud olan böyük bədii hərəkatlar idi. İmpressionistlər öz müasirlərinin düşüncəsində bədii inqilab etmiş, onların qarşısında yeni üfüqlər açaraq, impressionizm incəsənətinin inkişafına, yeni konsepsiyaların, cərəyan və formaların yaranmasına təkan vermişlər.

Postimpressionizm cərəyanının rəssamları yalnız görünən gerçəkliyin, yaxud ötəri təəssüratın (impressionistlər kimi) təsvirindən imtina edərək, onun əsas qanunauyğun elementlərini, ətraf aləmin uzunmüddətli vəziyyətini, həyatın məğzini təsvir etməyə səy göstərməklə yanaşı, həm də dekorativ üslubiyyata da müraciət edirdilər.

3-cü tədris vahidi "AZƏRBAYCAN SƏNƏTKARLARI" adlanır, 8 mövzu və 9 tədris saatını əhatə edir. Burada Azərbaycanın dünyaşöhrətli rəssamlarının müxtəlif üslubların təsiri altında yaşayıb-yaratmış həyat və yaradıcılığı yer almışdır.

## DƏRSLİYİN TƏLİM MATERİALLARI İLƏ TANIŞLIQ

Dərslikdə hər bir mövzu üzrə təlim materialları müəyyən metodoloji ardıcıllıqla təqdim olunmuşdur.

A – **İncəsənətə dair dialoq** – mövzuya maraq oyatmaq (motivasiya) üçün sual, şəkil, anlayışların çıxarılması.



Çap üçün deyil

B – **Xatırlayın** – əvvəlki siniflərdə qazanılmış biliklərə əsaslanan suallar şagirdləri aktiv fəaliyyətə cəlb edir.

C – **Tanış olun** – təsviri sənətin tarixi, onun cəmiyyətdə rolu, yeni anlayışlar haqqında giriş məlumatlar verilmişdir. Dərs zamanı müstəqil tanış olmaq və müzakirə üçün verilən məzmun, mövzu ilə əlaqəli olan və şagirdlərin dünyagörüşünü genişləndirməyə xidmət edən daha maraqlı faktlar və hadisələr də öz əksini tapır.

D – **Düşünün və izah edin** blokunda məzmunun mənimsənilməsinə xidmət edən və şagirdlərin təfəkkürünü fəallaşdırmaq üçün, düşünməyə və izah etməyə vadar edən zəruri sayılan müzakirə sualları, fikirlər verilmişdir.

E – **Təsviri sənət qalereyası** – şagirdin estetik münasibət bildirməsi üçün Azərbaycan və dünya rəssamlarının qrafika, rəngkarlıq, heykəltəraşlıq, memarlıq və dekorativ-tətbiqi sənət əsərlərinin nümayişi.

F – **Görkəmli rəssamlar** – Azərbaycanın və dünyanın görkəmli təsviri sənət nümayəndələrinin həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası – cədvəl şəklində verilmişdir.




G – **Sərbəst iş üçün tapşırıqlar** – mövzu ilə bağlı nəzəri və praktiki tapşırıqlar; yeni qazanılmış bacarıqların tətbiqi, onların izahı və rəsm zamanı şagirdlərə yardım edən təsvir ardıcıllığının metodikası.

**Müəyyən edin.**

***1. Sağlamlıq imkanları məhdud şagirdlər üçün olan tapşırıqlar;***

**Yaradıcı fəaliyyət**

***2. Təlim nəticələri orta olan şagirdlər üçün tapşırıqlar;***

***3. Təlim nəticələri yüksək olan şagirdlər üçün verilmiş tapşırıqlar.***

Şagirdlərin bütün tapşırıqları yerinə yetirmələri vacib deyil. Tapşırıqlar diferensial yanaşma əsasında, çətinlik dərəcələrinə görə şagirdlər arasında bölüşdürülə bilər.

**Sənətkar məsləhəti** – şagird üçün praktiki və yaradıcı tapşırıqlarda əməl edilməsi vacib olan qaydalardan, yeni məlumatlardan ibarətdir.

H – **Özünüzü yoxlayın** və **Ümumiləşdirici tapşırıqlar** (hər bölmənin sonunda) – özünüqiymətləndirmə və əldə olunmuş nəticələri ümumiləşdirmək üçün verilmiş sual və tapşırıqlar.

Uşaqların incəsənətlə ünsiyyəti prosesində müəllimin rolu danılmazdır. Məhz müəllim dərsdə emosional-bədii atmosfer yaradır, məqsədlər qoyur, şagirdlərin hə-



Çap üçün deyil

min məqsədlərə çatması üçün bədii əsərlərlə canlı ünsiyyətini təşkil edir. Bu da şagirdlərin hərtərəfli inkişafına və estetik dünyagörüşünün formalaşmasına səbəb olur.

Hər mövzuda *yaradıcı tapşırıq* və *müzakirə üçün suallar* verilmişdir. Şagirdlərin bu tapşırıqları fərdi seçim əsasında yerinə yetirməsi daha məqsədəuyğundur.

Mövzuların metodoloji quruluşu müəllimə məzmundan müxtəlif variantlarda istifadə etmək üçün geniş imkan və şərait yaradır. Şagirdlərin məzmunla yalnız tanış olmaları kifayət deyil. Qazanılmış bilikləri yoxlamaq və dərinləşdirmək üçün nəzərdə tutulmuş müxtəlif təlim materialları, həmçinin illüstrasiyalar mövzunun dərk edilməsində əsas yardımçı elementlərdir.

Dərslikdəki zəngin illüstrasiyalar məktəblilərə incəsənət aləmi ilə ünsiyyət yaratmağa, “bədii” biliklərin sistemləşdirilməsinə və yaradıcı təfəkkürün formalaşmasına yardım göstərir.

Diferensial təlim prinsipləri nəzərə alınmaqla hazırlanmış dərsliyə bilik və bacarıqları möhkəmləndirmək üçün müxtəlif yaradıcı tapşırıqlar və praktik çalışmalar daxil edilmişdir. Yadda saxlanılması vacib olan məlumatların ayrıca izahı verilir.

Dərslikdə *xüsusi qayğıya ehtiyacı olan şagirdlər* üçün çalışmalar da nəzərdə tutulmuşdur. Mövzularda yaradıcı tapşırıqlar sadədən mürəkkəbə doğru yerləşdirilmişdir.

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

Təsviri incəsənət fənni üzrə müəllim üçün metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- Təsviri incəsənət fənn kurikulumu haqqında;
- Fənn üzrə məzmun standartlarının reallaşma cədvəli və illik planlaşdırma nümunəsi;
- Şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və formaları;
- Fənlərarası inteqrasiya imkanları və digər fənlərin uyğun alt-standartları ilə inteqrasiya cədvəli;
- İnklüziv təlim prinsipləri haqqında ümumi məlumat;
- Müəllim üçün metodik vəsaitdə istifadə olunan forma və üsullar;
- Dərsin fəal təlim mərhələləri üzrə planlaşdırılma nümunələri;
- Müəllimlər üçün mövzu üzrə əlavə məlumatlar;
- Bölmə və vahidlər üzrə qiymətləndirmə vasitələri;
- Müəllimin istifadə edə biləcəyi mənbələr.

Müəllim tövsiyə olunan materiallardan sinfin hazırlıq səviyyəsinə, tədris vaxtına, texniki təchizata və diferensial təlim prinsiplərinə uyğun lazım bildiyi kimi istifadə edə bilər. Vəsaitdə tədqiqat işlərində qruplarla və cütlərlə iş formalarına daha çox üstünlük verilir. Praktik dərslər zamanı isə şagirdlərdə fərdi bacarıqların formalaşdırılması məqsədilə əsasən fərdi və cütlərlə iş formasından istifadə edilməsi daha məqsədəuyğundur. Cütlərdə işləyən şagirdlər tədqiqat işini də birlikdə yerinə yetirirlər.



Çap üçün deyil

Ümidvarıq ki, bu vəsait müəllimlərə təsviri sənətlə şagirdlərin ünsiyyət prosesini daha səmərəli təşkil etməyə imkan yaradacaq və onlarda incəsənətə maraq oyadacaq.

## TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ İKT-dən İSTİFADƏ İMKANLARI

Müasir tədris sistemində informasiya texnologiyaları o qədər geniş tətbiq olunur ki, onların zəruriliyi şübhə doğurmur.

Artıq məktəbin gündəlik praktik həyatında interaktiv avadanlıq və elektron lövhələr tətbiq olunmaqdadır ki, bu da qısa müddət ərzində təlim-tədris prosesinin ayrılmaz hissəsinə çevrilib.

## TƏLİMİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN FORMA VƏ ÜSULLAR

Təlim üsulları təlim prosesinin səmərəliliyini təmin edən faktorlardan biridir. Nəzərdə tutulan bacarıqlar təlim prosesi əsasında, fəal təlim üsullarından istifadə etməklə formalaşır. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Vəsaitdə fəal təlimin iş formalarından istifadə etməklə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı, işgüzar mühit və əməkdaşlıq şəraiti təmin olunur.

## TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ MUSİQİNİN ROLU

Orta məktəbdə təsviri incəsənət dərslərində musiqinin rolu əvəzedilməzdir. Təsviri sənətlə musiqi arasında çoxtərəfli əlaqə var. Qeyd edilməlidir ki, onlar bədii təxəyyülü, fantaziyanı eyni dərəcədə inkişaf etdirir, emosional aktivliyi artırır, bir sözlə, insanın daxili aləminin zənginliyinə gətirib çıxarır. Müəllim nəzərə almalıdır ki, musiqinin səslənməsi görmə obrazlarına xüsusi ahəng və qabarıqlıq verir. Şübhəsiz, belə coşqun qavrama şagirdin yaradıcı fəaliyyətinə stimullaşdırıcı təsir göstərir. Musiqi fraqmentinin optimal səslənmə müddəti konkret şəraitdən asılı olaraq 20–40 saniyədir.

Çap üçün deyil

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU) HAQQINDA

Kurikulumda təsbit olunmuş məqsəd və vəzifələri aşağıdakı məzmun xətləri vasitəsilə həyata keçirmək nəzərdə tutulur:

1. **Cəmiyyət və təsviri incəsənət**
2. **Təsviri və dekorativ yaradıcılıq**
3. **Estetik reaksiya**

**Cəmiyyət və təsviri incəsənət.** Bu məzmun xətti cəmiyyətdə təsviri incəsənətin rolu, cəmiyyət və təsviri incəsənət arasındakı əlaqələr, təsviri incəsənətin cəmiyyətdə baş verən tarixi hadisələrin mahiyyətinin dərk olunmasında müxtəlif nümunələrin əhəmiyyəti, milli və dünya təsviri incəsənət tarixinin görkəmli nümayəndələri, onların məşhur əsərləri haqqında məlumatları əhatə edir.

Cəmiyyətdə baş verən müxtəlif hadisələrin, xalqımızın, eləcə də dünya xalqlarının tarixi, mədəniyyəti, adət-ənənələri haqda məlumatların şagirdlərə mənimsədilməsində, təsviri sənət əsərlərinin informativ-kommunikativ imkanlarının dərk olunmasında bu fənn mühüm vasitə kimi çıxış edir.

Digər fənlər vasitəsilə mənimsədilən tarixi faktların, hadisələrin və şəxsiyyətlərin təsvirlərdə əks olunması şagirdlərdə dolğun və əyani təsəvvürlərin formalaşmasına əhəmiyyətli təsir göstərir.

Cəmiyyət və təsviri incəsənət əlaqələrini əks etdirən bu məzmun xətti üzrə müəyyən olunan bilik və bacarıqlar şagirdlərdə milli və beynəlmiləl dəyərlərə maraq və hörmət hissi aşılayır, insan cəmiyyətinin mədəni, siyasi və iqtisadi həyatı haqqında geniş və dolğun təsəvvürlər yaradır, müxtəlif dövrlərdə mövcud olan cəmiyyətlər, onların tərkib hissələri və özünəməxsus xüsusiyyətləri haqqında geniş və rəngarəng məlumatlar verir.

**Təsviri və dekorativ yaradıcılıq.** Təsvir yaradarkən şagird hadisələri, obyektləri və predmetləri dərk etdiyi tərzdə vizuallaşdıraraq onların mahiyyətinə, qarşılıqlı əlaqələrinə və fərdi xüsusiyyətlərinə öz münasibətini bildirir.

Təsviri yaradıcılıq prosesi şagirdlərin əqli və estetik inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, onların görmə yaddaşının, mühit və məkan duyumunun, obrazlı təsəvvür qabiliyyətinin formalaşmasında mühüm rol oynayır.

Təsviri yaradıcılıq fəaliyyəti gerçəkliyi dərk etmək, obrazlı və məntiqi düşünmək, hiss və duyğuları vizual obrazlarda əks etdirmək bacarıqlarının təmin edilməsində başlıca vasitə hesab olunur. Bu prosesdə şagird keçmişə və gələcəyə obrazlı münasibətini bildirmək imkanları əldə edir.

İnsan mənəviyyatının mühüm tərkib hissəsi olan gözəlliyə tələbatın ödənilməsində təsvir yaradıcılığı mühüm əhəmiyyət kəsb edir. Yaradıcılıq prosesi şagirdlərdə daxili aləmlə xarici aləm arasında əlaqələrin yaranmasını, müxtəlif təsvir



Çap üçün deyil

üsullarının mənimsənilməsini təmin edir, onların cəmiyyətə daha fəal inteqrasiyasına və özünütəsdiqinə geniş imkanlar yaradır.

Təsviri sənətin mühüm hissəsi olan, istər müstəvi səth üzərində (qrafika, rəngkarlıq), istərsə də üçölçülü plastik forma yaratmaq bacarığı (heykəltəraşlıq) şagirddə forma hissiyyatını təmin etməklə yanaşı, onun forma gözəlliyindən və kamilliyindən zövq almaq qabiliyyətini inkişaf etdirir.

Təsviri və dekorativ yaradıcılıq şagirdlərə eyni zamanda tərtibat, quraşdırma və dizayn bacarıqları aşılayır.

Dekorativ yaradıcılıq insanın bəzəyə olan təbii tələbatını ödəyir və onun estetik aləmini zənginləşdirərək bədii zövqünün formalaşmasına, bu sahədə milli ənənələrin davam etdirilməsinə güclü təsir göstərir.

Dekorativ kompozisiya və dizayn (tərtibat) işlərinin yerinə yetirilməsi şagirdin bədii düşüncə, zövq, ənənə daşıyıcısına çevrilməsinə imkan yaradır.

Dekorativ yaradıcılıq prosesi şagirdlərin abstrakt və estetik düşüncə qabiliyyətini inkişaf etdirərək rənglərin, formaların, ölçülərin vəhdət prinsiplərini və qanunauyğunluqlarını mənimsəmələrini təmin edir.

**Estetik reaksiya.** Təsviri və dekorativ sənət növlərinə aid nümunələr təbiətin, ətraf aləmin insanın daxili aləminə, hislərinə, duyğularına təsirindən yaranır. Şəxsiyyətin mənəvi dünyasında gözəllik təsəvvürləri (meyarları) incəsənət vasitəsilə formalaşaraq, termin, anlayışlar və bədii ifadə vasitələri (rəsm, heykəl, dekor, kompozisiya) şəklində əks olunur. Şüurlu, mükəmməl mənimsəmə estetik-emosional hislərin yaranmasında və formalaşmasında mühüm rol oynayır.

Azərbaycan və dünya incəsənəti tarixini təşkil edən əsərlər zaman keçdikcə mədəni, bədii, mənəvi dəyərlərin ifadəsi kimi meydana gəlmiş, milli və ümumbəşəri dəyərlərin maddiləşmiş daşıyıcılarına çevrilmişdir.

Təsviri incəsənət əsərləri ilə təmasda olmaq şagirdə milli və ümumbəşəri dəyərlərə yiyələnməklə, bir növ, mədəni mübadilə prosesi yaşadır. Təsviri və dekorativ incəsənət əsərlərinin şəxsiyyətə göstərdiyi təsir nəticəsində şagirdlərdə estetik-emosional meyar və normalar, mənəvi zənginləşmə və mədəni tolerantlıq formalaşır, hissiyyat diapazonu daha da genişlənir.

Təsviri və dekorativ sənət əsərlərinin qavranılması estetik zövqün, emosional duyğuların kamilləşməsini və hissiyyat aləminin zənginləşməsini təmin edir. İncəsənət əsərlərinə, hadisələrinə və fenomenlərinə şagird tərəfindən verilən estetik reaksiya gözəlliyi duymaq və qiymətləndirmək (dəyərləndirmək) qabiliyyətlərinin göstəricisi kimi çıxış edir.

Təsviri incəsənət fənninin mənimsənilməsi nəticəsində formalaşdırılan və inkişaf etdirilən bədii həssaslıq və emosional qavrama bacarıqları şagirdlərin mənəvi dünyasını zənginləşdirir, onlarda milli və ümumbəşəri dəyərlərə hörmət, humanizm, şəfqət hislərini gücləndirir.



Çap üçün deyil

## VIII SİNİF ÜÇÜN TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**VIII sinfin sonunda şagird:**

- Azərbaycan təsviri incəsənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi şərh edir;
- təsviri və dekorativ sənətin növ və janrlarını (tarixi, batal) xüsusiyyətlərinə görə şərh edir;
- Azərbaycanın və dünyanın təsviri incəsənətinin görkəmli nümayəndələri (Toğrul Nərimanbəyov, Böyükağa Mirzəzadə, Eldar Mikayılzadə, Fuad Əbdürrəhmanov, Tokay Məmmədov, Sadıq Dadaşov, Jan Ogüst Dominik Enqr, Ejen Delakrua, Fransisko Qoyya, Vinsent Van Qoq, Jak Lui David, Eduard Mane, Klod Mone, Ogüst Renuar, Pol Qogen, Anri Matis, Ogüst Roden) və onların əsərləri haqqında təqdimat edir;
- müxtəlif vasitələrdən istifadə etməklə həyati görüntüləri incəsənətin müxtəlif növlərində (misgərlik, şəbəkə, qarışıq texnika) real və abstrakt tərzdə təsvir edir;
- geyim və nəqliyyat vasitələri üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir;
- bədii sənət əsərlərinin milli-üslubi cəhətlərini estetik-emosional hislərə görə müqayisə edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Cəmiyyət və təsviri incəsənət**

Şagird:

**1.1. Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.**

1.1.1. Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir.

**1.2. Təsviri və dekorativ sənətin növ və janrlarına dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.2.1. Təsviri sənətin növ və janrlarını (tarixi, batal) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

1.2.2. Dekorativ sənət növlərini (misgərlik, şəbəkə, qarışıq texnika) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

**1.3. Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələrinə və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.3.1. Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Toğrul Nərimanbəyov, Böyükağa Mirzəzadə, Eldar Mikayılzadə, Fuad Əbdürrəhmanov, Tokay Məmmədov, Sadıq Dadaşov, Jan Ogüst Dominik Enqr, Ejen Delakrua, Fransisko Qoyya, Vinsent Van Qoq, Jak Lui David, Eduard Mane, Klod Mone, Ogüst Renuar, Pol Qogen, Anri Matis, Ogüst Roden) və onların əsərləri haqqında təqdimat edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

Şagird:

**2.1. Həyati görüntüləri real və abstrakt təsvir edir.**

2.1.1. Həyati görüntüləri tarixi, batal janrlarda real və abstrakt təsvir edir.

2.1.2. Həyati görüntülərin real və abstrakt təsvirində müxtəlif vasitələrdən (tuş, sulu boyalar, qarışıq texnika və ya yağlı boya, plastilin, gil və ya gips) istifadə edir.

**2.2. Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.**

2.2.1. Geyim əşyaları və nəqliyyat vasitələri üzərində bədii tərtibat və dizayn bacarıqlarını nümayiş etdirir.

**3. Estetik reaksiya**

Şagird:

**3.1. Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.**

3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir.

3.1.2. Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir.



Çap üçün deyil

## DƏRSLİK KOMPLEKTİNİN MÖVZULAR ÜZRƏ STRUKTURU

| TƏDRİS VAHİDLƏRİ | MÖVZULAR | |
|---|---|---|
| **1. TƏSVİRİ SƏNƏTDƏ TARİXİ HADİSƏLƏR VƏ QƏHRƏMANLIQ MÖVZUSU** | 1 | Təsviri sənətdə batal və tarixi janrlar |
| | 2. | Fransisko Qoyya: rəssamın rəng dünyasına həyat hadisələrinin təsiri |
| | 3. | Jak Lui David: tarixi obrazlar |
| | 4. | Jan Ogüst Dominik Enqr: xətt incəsənəti |
| | 5. | Ejen Delakrua: rəng kontrastının dahi sənətkarı |
| **2. TƏSVİRİ SƏNƏTDƏ YENİ DÖVRÜN BƏDİİ İFADƏ VASİTƏLƏRİ** | 6. | İmpressionizm: təəssüratların poeziyası |
| | 7. | Oskar Klod Mone: işıq və rəng vurğunluğu |
| | 8–9. | Eduard Mane: impressionizmdə natürmort |
| | 10–11. | Ogüst Renuar: işığa yeni baxış |
| | 12. | Ogüst Roden: heykəltəraşlıqda hərəkət və emosiya |
| | 13–14. | Vinsent Van Qoq: rəng, xətt və formaların emosional təsiri |
| | 15–16. | Pol Qogen: rəng və xətlərin sadələşdirilməsi. Simvolizm |
| | 17–18. | Anri Matis: rəngkarlıqda dekorativlik, forma və rəng |
| **3. AZƏRBAYCAN SƏNƏTKARLARI** | 19. | Böyükağa Mirzəzadə: füsunkar rənglər dünyası |
| | 20. | Fuad Əbdürrəhmanov: dəzgah və monumental heykəltəraşlıq |
| | 21. | Tokay Məmmədov: monumental heykəltəraşlıqda forma, material və məkan |
| | 22. | Sadıq Dadaşov: Azərbaycan memarlığında milli və müasir elementlər |
| | 23. | Toğrul Nərimanbəyov: monumental rəngkarlıq |
| | 24. | Eldar Mikayılzadə: xalçalarda fəlsəfi fikrin təcəssümü |
| | 25–26. | İdeya, funksiya, rahatlıq: insanın əşyalar aləmi |
| | 27. | Dünya muzeyləri: impressionizmin ruhu |



Çap üçün deyil

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ

Cədvəldə kurikulumda tələb olunan bacarıqlar əsasında tövsiyə edilən illik planlaşdırma nümunəsi verilmişdir. İş planı həftədə 1 saat olmaqla, ildə 34 həftəyə və ya 34 saata nəzərdə tutulmuşdur. Tədris ili ərzində 5 saat KSQ, 2 saat BSQ, 27 saat hər mövzuya 1 saat olmaqla, 27 mövzunun tədrisi üçün nəzərdə tutulmuşdur.

| | TƏDRİS VAHİDİ VƏ MÖVZULAR | | Məşğələ növü | Cəmiyyət və təsviri incəsənət | | | | Təsviri və dekorativ yaradıcılıq | | | Estetik reaksiya | | Saat |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1.1. | 1.2. | | 1.3. | 2.1. | | 2.2. | 3.1. | | |
| | | | | 1.1.1. | 1.2.1. | 1.2.2. | 1.3.1. | 2.1.1. | 2.1.2. | 2.2.1. | 3.1.1. | 3.1.2. | |
| 1. | 1. TƏSVİRİ SƏNƏTDƏ TARİXİ HADİSƏLƏR VƏ QƏHRƏMANLIQ MÖVZUSU | Təsviri sənətdə batal və tarixi janrlar | T.s.h.s. | | + | | | | | | + | + | 1 |
| 2. | | Fransisko Qoyya: rəssamın rəng dünyasına həyat hadisələrinin təsiri | M.ü.r. | | + | | + | + | + | | | | 1 |
| 3. | | Jak Lui David: tarixi obrazlar | M.ü.r. | | + | | + | + | + | | | | 1 |
| 4. | | Jan Ogüst Dominik Enqr: xətt incəsənəti | M.ü.r. | | + | | + | + | + | | | | 1 |
| 5. | | Ejen Delakrua: rəng kontrastının dahi sənətkarı | M.ü.r. | | + | | + | + | + | | | | 1 |
| | | **Qiymətləndirmə (KSQ №1)** | | | | | | | | | | | 1 |
| 6. | 2. TƏSVİRİ SƏNƏTDƏ YENİ DÖVRÜN BƏDİİ İFADƏ VASİTƏLƏRİ | İmpressionizm: təəssüratların poeziyası | T.s.h.s. | | | | | | | | + | + | 1 |
| 7. | | Oskar Klod Mone: işıq və rəng vurğunluğu | N.r. | | | | + | | + | | + | + | 1 |
| 8–9. | | Eduard Mane: impressionizmdə natürmort | N.r. | | | | + | | + | | + | + | 2 |
| 10–11. | | Ogüst Renuar: işığa yeni baxış | N.r. | | | | + | | + | | + | + | 2 |
| 12. | | Ogüst Roden: heykəltəraşlıqda hərəkət və emosiya | Yapma | | | | + | | + | | + | + | 1 |
| | | **Qiymətləndirmə (KSQ №2)** | | | | | | | | | | | |
| | | **Qiymətləndirmə (BSQ №1)** | | | | | | | | | | | |
| 13–14. | | Vinsent Van Qoq: rəng, xətt və formaların emosional təsiri | N.r. | | | | + | | + | | + | + | 2 |
| 15–16. | | Pol Qogen: rəng və xətlərin sadələşdirilməsi. Simvolizm | M.ü.r. | | | | + | | + | | + | + | 2 |
| 17–18. | | Anri Matis: rəngkarlıqda dekorativlik, forma və rəng | D-t.f. | | | + | + | | + | | + | + | 2 |
| | | **Qiymətləndirmə (KSQ №3)** | | | | | | | | | | | 1 |
| 19. | 3. AZƏRBAYCAN SƏNƏTKARLARI | Böyükağa Mirzəzadə: füsunkar rənglər dünyası | M.ü.r. | + | | | + | | + | | + | + | 1 |
| 20. | | Fuad Əbdürrəhmanov: dəzgah və monumental heykəltəraşlıq | Yapma | + | | | + | | + | | + | + | 1 |
| 21. | | Tokay Məmmədov: monumental heykəltəraşlıqda forma, material və məkan | Yapma | + | | | + | | + | | + | + | 1 |
| 22. | | Sadıq Dadaşov: Azərbaycan memarlığında milli və müasir elementlər | M.ü.r. | + | | | + | | + | | + | + | 1 |
| | | **Qiymətləndirmə (KSQ №4)** | | | | | | | | | | | 1 |
| 23. | | Toğrul Nərimanbəyov: monumental rəngkarlıq | D-t.f. | + | | | + | | + | | + | | 1 |
| 24. | | Eldar Mikayılzadə: xalçalarda fəlsəfi fikrin təcəssümü | D-t.f. | + | | | + | | + | | + | | 1 |
| 25–26. | | İdeya, funksiya, rahatlıq: insanın əşyalar aləmi | D-t.f. | + | | + | | | + | + | + | | 2 |
| | | **Qiymətləndirmə (KSQ №5)** | | | | | | | | | | | 1 |
| 27. | | Dünya muzeyləri: impressionizmin ruhu | T.s.h.s. | | | | | | | | + | + | 1 |
| | | **Qiymətləndirmə (BSQ №2)** | | | | | | | | | | | 1 |



Çap üçün deyil

Təsviri incəsənət dərsləri məşğələ növləri vasitəsilə təqdim edilir: ***mövzu üzrə rəsm, naturadan rəsm, dekorativ-tətbiqi fəaliyyət, yapma, təsviri sənət haqqında söhbət.***

**M.ü.r.** – Mövzu üzrə rəsm; **T.s.h.s.** – Təsviri sənət haqqında söhbət; **D-t.f.** – Dekorativ-tətbiqi fəaliyyət; **N.r.** – Naturadan rəsm.

*Müəllim mövzulara şəxsi münasibətindən asılı olaraq tövsiyə edilən illik planlaşdırma nümunəsinə müəyyən dəyişikliklər edə bilər.*

## FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| TƏDRİS VAHİDİ | MÖVZULAR | | FƏNNİN ADI VƏ ALT-STANDARTIN NÖMRƏSİ |
|---|---|---|---|
| 1. TƏSVİRİ SƏNƏTDƏ TARİXİ HADİSƏLƏR VƏ QƏHRƏMANLIQ MÖVZUSU | 1. | Təsviri sənətdə batal və tarixi janrlar | Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; Ü-t. 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| | 2–3 . | Fransisko Qoyya: rəssamın rəng dünyasına həyat hadisələrinin təsiri | Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; Ü-t. 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| | 3. | Jak Lui David: tarixi obrazlar | Ü-t. 5.1.1.; Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| | 4. | Jan Ogüst Dominik Enqr: xətt incəsənəti | Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; Ü-t. 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1.; 5.1.2.; Ə. 2.2.1. |
| | 5. | Ejen Delakrua: rəng kontrastının dahi sənətkarı | Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; Ü-t. 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| 2. TƏSVİRİ SƏNƏTDƏ YENİ DÖVRÜN BƏDİİ İFADƏ VASİTƏLƏRİ | 6. | İmpressionizm: təəssüratların poeziyası | Az-t. 4.1.1.; 5.1.2.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; Ə. 2.2.1. |
| | 7. | Oskar Klod Mone: işıq və rəng vurğunluğu | C. 3.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; Az-t. 4.1.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 8–9. | Eduard Mane: impressionizmdə natürmort | Az-t. 4.1.1.; 5.1.2; Ə. 2.2.1.Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1. |
| | 10–11. | Ogüst Renuar: işığa yeni baxış | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; Az-t. 4.1.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 12. | Ogüst Roden: heykəltəraşlıqda hərəkət və emosiya | İnf. 3.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; Az-t. 4.1.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 13–14. | Vinsent Van Qoq: rəng, xətt və formaların emosional təsiri | Ə. 2.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; Az-t. 4.1.1.; 5.1.2. |
| | 15–16. | Pol Qogen: rəng və xətlərin sadələşdirilməsi. Simvolizm | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; Az-t. 4.1.1.; 5.1.2; Ə. 2.2.1. |

Çap üçün deyil

| | | | |
|---|---|---|---|
| | 17–18. | Anri Matis: rəngkarlıqda dekorativlik, forma və rəng | Ə. 2.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1; 5.1.1.; C. 3.2.1.; Az-t. 4.1.1.; 5.1.2; |
| **3. AZƏRBAYCAN SƏNƏTKARLARI** | 19. | Böyükağa Mirzəzadə: füsünkar rənglər dünyası | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; Az-t. 4.1.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 20. | Fuad Əbdürrəhmanov: dəzgah və monumental heykəltəraşlıq | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1; 5.1.1.; C. 3.2.1.; Az-t. 4.1.1.; 5.1.2; Ə. 2.2.1. |
| | 21. | Tokay Məmmədov: monumental heykəltəraşlıqda forma, material və məkan | F. 2.1.1.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1; 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1; 4.1.1.; 5.1.2; Ə. 2.2.1.; Az-d. 1.1.2.; 1.2.4.; Tex. 1.3.1.; 1.3.2. |
| | 22. | Sadıq Dadaşov: Azərbaycan memarlığında milli və müasir elementlər | Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1; 5.1.1.; C. 3.2.1.; Az-t. 4.1.1.; 5.1.2.; Ə. 2.2.1. |
| | 23. | Toğrul Nərimanbəyov: monumental rəngkarlıq | İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1.; 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1.; 4.1.1.; 5.1.2.; Az-d. 1.1.2.; 1.2.4.; Tex. 1.3.1.; 1.3.2.; Ə. 2.2.1. |
| | 24. | Eldar Mikayılzadə: xalçalarda fəlsəfi fikrin təcəssümü | Az-d.1.1.1.;1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; C. 3.2.1.; 3.2.3.; Az-t. 1.3.1.; 5.1.2.; Ə. 2.2.1.; Ü-t. 4.1.1; 5.1.1.; H-b. 2.1.1.; 3.1.1.; 3.2.2.; Tex.1.3.3. |
| | 25–26. | İdeya, funksiya, rahatlıq: insanın əşyalar aləmi | İnf. 3.2.1.; 3.2.3.; Tex. 1.3.1.; 1.3.2.; 1.3.3.; Ü-t. 1.1.2.; 3.1.2.; Az-d.1.2.4.; H-b.2.1.1.; Az-t. 1.3.1.; 4.1.1.; 5.1.2.; 5.1.3. |
| | 27. | Dünya muzeyləri: impressionizmin ruhu | İnf. 3.2.1.; Ü-t. 5.1.1.; Az-d. 1.2.4.; C. 3.2.3.; H-b. 3.1.1.; 3.2.1; Az-t. 1.3.1.; Ə. 2.2.1. |

*Az.-d. – Azərbaycan dili; H-b. – Həyat bilgisi; X-d. – Xarici dil; Az.t. – Azərbaycan tarixi; İnf. – İnformatika; Ə. – Ədəbiyyat; Ü-t. – Ümumi tarix; C. – Coğrafiya; Tex. – Texnologiya*

Çap üçün deyil

# İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ CƏDVƏLİ

| Tədris həftələri | Saat | Tədris vahidi | Mövzular | Məşğələ növü | Standartlar | Qiymətləndirmə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Üsulları | Vasitələri |
| 1 — 5 | 1 | 1. TƏSVİRİ SƏNƏTDƏ TARİXİ HADİSƏLƏR VƏ QƏHRƏMANLIQ MÖVZUSU | TƏSVİRİ SƏNƏTDƏ BATAL VƏ TARİXİ JANRLAR | təsviri sənət haq. söhbət | 1.2.1.; 3.1.1.; 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə; təqdimat (yapma), rubrik (sxem) | tarixi və batal janrında olan reproduksiyalar, rubriklər, cədvəllər |
| | 1 | | FRANSİSKO QOYYA: RƏSSAMIN RƏNG DÜNYASINA HƏYAT HADİSƏLƏRİNİN TƏSİRİ | mövzu üzrə rəsm | 1.2.1. ; 1.3.1. ; 2.1.1. ; 2.1.2. | Müşahidəetmə, tapşırıqvermə, sual-cavab, təqdimat | rəssamın əsərlərinin reproduksiyası (foto, slaydlar), meyar cədvəli |
| | 1 | | JAK LUİ DAVİD: TARİXİ OBRAZLAR | mövzu üzrə rəsm | 1.2.1.; 1.3.1.; 2.1.1.; 2.1.2. | Müşahidəetmə, tapşırıqvermə, təqdimat | rəssamın əsərlərinin reproduksiyası (foto, slaydlar), meyar cədvəli |
| | 1 | | JAN OGÜST DOMİNİK ENQR: XƏTT İNCƏSƏNƏTİ | mövzu üzrə rəsm | 1.2.1.; 1.3.1.; 2.1.1. ; 2.1.2. | Müşahidə etmə, tapşırıqvermə; təqdimat | Rəssamın əsərlərinin reproduksiyası (slayd və ya fotolar), meyar cədvəli |
| | 1 | | EJEN DELAKRUA: RƏNG KONTRASTININ DAHİ SƏNƏTKARI | mövzu üzrə rəsm | 1.2.1.; 1.3.1.; 2.1.1. ; 2.1.2. | Müşahidə etmə, tapşırıqvermə; təqdimat | Rəssamın rəngkarlıq nümunələri (slayd və ya şəkillər), rəng dairəsinə aid əyani vəsait, meyar cədvəli |
| **6-cı dərs – Qiymətləndirmə (KSQ №1)** | | | | | | | |
| 7 — 13 | 1 | 2. YENİ DÖVRÜN BƏDİİ İFADƏ VASİTƏLƏRİ | İMPRESSİONİZM: TƏƏSSÜRATLARIN POEZİYASI | təsviri sənət haq. söhbət | 3.1.1. ; 3.1.2. | Şifahi sual-cavab; tapşırıqvermə; təqdimat | Impressionist əsərlərindən nümunələr (slayd və ya foto), meyarlar |
| | 1 | | OSKAR KLOD MONE: İŞIQ VƏ RƏNG VURĞUNLUĞU | naturadan rəsm | 1.3.1. ; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə; rubrik (sxem) | rəssamın reproduksiyaları (slayd və ya foto), meyar cədvəli |
| | 2 | | EDUARD MANE: İMPRESSİONİZMDƏ NATÜRMORT | naturadan rəsm | 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə; özünüqiymətləndirmə, rubrik (sxem) | natürmort janrında əsərlərdən nümunələr (slayd və ya fotolar), əşyalar, meyar cədvəli |
| | 2 | | OGÜST RENUAR: İŞIĞA YENİ BAXIŞ | naturadan rəsm | 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə; rubrik (sxem) | məişət janrında əsərlərdən nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 1 | | OGÜST RODEN: HEYKƏLTƏRAŞLIQDA HƏRƏKƏT VƏ EMOSİYA | yapma | 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə; təqdimat | heykəltəraşlıq nümunələri (əyani, slayd və ya fotolar), meyar cədvəli |
| **14-cü dərs – Qiymətləndirmə (KSQ №2), 15-ci dərs – Qiymətləndirmə (BSQ №1)** | | | | | | | |

Çap üçün deyil

# İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ CƏDVƏLİ

| Tədris həftələri | Saat | Tədris vahidi | Mövzular | Məşğələ növü | Standartlar | Qiymətləndirmə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Üsulları | Vasitələri |
| 16— 21 | 2 | 2. TƏSVİRİ SƏNƏTDƏ YENİ DÖVRÜN BƏDİİ İFADƏ VASİTƏLƏRİ | **VİNSENT VAN QOQ: RƏNG, XƏTT VƏ FORMALARIN EMOSİONAL TƏSİRİ** | naturadan rəsm | 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə; təqdimat rubrik (sxem) | rəssamın əsərlərinə aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 2 | | **POL QOGEN: RƏNG VƏ XƏTLƏRİN SADƏLƏŞDİRİLMƏSİ. SİMVOLİZM** | mövzu üzrə rəsm | 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2 | Müşahidəetmə, tapşırıqvermə; təqdimat rubrik (sxem) | simvolizmə aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 2 | | **ANRİ MATİS: RƏNGKARLIQDA DEKORATİVLİK, FORMA VƏ RƏNG** | dekorativ-tətbiqi fəaliyyət / qarışıq texnika | 1.2.2.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidəetmə, dekorativ-tətbiqi sənət nümunələri | rəssam əsərlərindən nümunələr (slayd və ya fotolar), əyani vəsait, ardıcıllığı əks etdirən nümunə, meyar cədvəli |
| **22-ci dərs – Qiymətləndirmə (KSQ №3)** | | | | | | | |
| 23 — 33 | 1 | 3. AZƏRBAYCAN SƏNƏTKARLARI | **BÖYÜKAĞA MİRZƏZADƏ: FÜSÜNKAR RƏNGLƏR DÜNYASI** | mövzu üzrə rəsm | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidə, tapşırıqvermə; təqdimat, rubrik (sxem) | rəssam əsərlərindən nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | 1 | | **FUAD ƏBDÜRRƏHMANOV: DƏZGAH VƏ MONUMENTAL HEYKƏLTƏRAŞLIQ** | yapma | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | heykəltəraşlığa aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 1 | | **TOKAY MƏMMƏDOV: MONUMENTAL HEYKƏLTƏRAŞLIQDA FORMA, MATERİAL VƏ MƏKAN** | yapma | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | heykəltəraşlığa aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 1 | | **SADIQ DADAŞOV: AZƏRBAYCAN MEMARLIĞINDA MİLLİ VƏ MÜASİR ELEMENTLƏR** | mövzu üzrə rəsm | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | memarlıq nümunələri (slayd və ya fotolar), meyar cədvəli |
| | 1 | | **T. NƏRİMANBƏYOV: MONUMENTAL RƏNGKARLIQ** | dekorativ-tətbiqi fəaliyyət | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1. | Müşahidəetmə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | Rəssamın əsərlərinə aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 1 | | **E.MIKAYILZADƏ: XALÇALARDA FƏLSƏFİ FİKRİN TƏCƏSSÜMÜ** | dekorativ-tətbiqi fəaliyyət | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1. | Müşahidəetmə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | süjetli xalçalara aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | 2 | | **İDEYA, FUNKSİYA, RAHATLIQ: İNSANIN ƏŞYALAR ALƏMİ** | dekorativ-tətbiqi fəaliyyət | 1.1.1.; 1.2.2.; 2.1.2.; 2.2.1.; 3.1.1. | Müşahidəetmə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | mövzuya dair əyani vəsait, qiymətləndirmə cədvəli |
| | 1 | | **DÜNYA MUZEYLƏRİ: İMPRESSİONİZMİN RUHU** | təsv. sənət haq. söhbət | 3.1.1.; 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə, təqdimat | müxtəlif muzey və eksponatlar, ekspozisiyalar (slayd və ya şəkillər) |
| **27-ci dərs – Qiymətləndirmə (KSQ №4), 32-ci dərs – Qiymətləndirmə (KSQ №5), 34-cü dərs – Qiymətləndirmə (BSQ №2)** | | | | | | | |



Çap üçün deyil

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏ PRİNSİPLƏRİ VƏ ÜSULLARI

Təlim prosesinin ən mühüm mərhələlərindən biri qiymətləndirmədir. Hər bir fənn üzrə təlim prosesinin müxtəlif mərhələlərində aparılan qiymətləndirmə şagirdlərdə mənfi emosiya doğurmamalıdır. O cümlədən təsviri incəsənət fənni üzrə əldə edilən bilik və bacarıqların qiymətləndirilməsində bir yaradıcılıq, şəffaflıq, yüksək estetik zövq və daim yüksəlişə, ümumbəşəri dəyərlərə köklənmiş müsbət emosiya hiss olunmalıdır. Bu prosesdə müəllim şagirdin səhvlərini deyil, daha çox əldə etdiyi nailiyyətləri, keyfiyyət göstəricilərini və qazandığı dəyərləri vurğulamalıdır. Müəllim təlim prosesində müəyyənləşdirilmiş hər hansı bir səhvin ən asan həlli yollarını tapmaqda onlara dəstək verməklə stimul yaratmalıdır.

Azərbaycan Respublikası Təhsil nazirinin 2 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə 1–7-ci siniflərdə məktəbdaxili qiymətləndirmə qaydalarında bir sıra dəyişiklik edilmişdir (http://www.muallim.edu.az/arxiv/2013/34/26.htm).

Vəsaitdə hər bir dərsin sonunda təlim nəticələrinə uyğun formativ qiymətləndirmə meyarları göstərilmişdir. Tədris vahidlərinin sonunda isə summativ qiymətləndirmə vasitələri verilmişdir. Müəllim vəsaitdəki vasitələrdən yararlana və ya bu nümunələr əsasında yeni qiymətləndirmə vasitəsini özü tərtib edə bilər. Kiçik summativ qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin sonunda verilmişdir.

Fənn kurikulumlarına görə, qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir, onu idarə edən vacib amil kimi meydana çıxır. Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. Məktəbdaxili qiymətləndirmə *diaqnostik, formativ* və *summativ* qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə** fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir. Diaqnostik qiymətləndirmə, adından da məlum olduğu kimi, şagirdə və ya bütöv sinfə qoyulan diaqnozdur. Şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat almağa imkan verir. Bu qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılır.

Diaqnostik qiymətləndirmədə istifadə olunan metod və vasitələr: müsahibə; söhbət; müşahidə; tapşırıqlar; valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq.

Diaqnostik qiymətləndirmə həm də şəraitə görə təlim məqsədləri və üsullarda çevik dəyişikliklər aparılmasına imkan yaradır.

**Formativ qiymətləndirmə**nin məqsədi (2 sentyabr 2013-cü il tarixli təlimata əsasən) təhsilalanın təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, bu zaman qarşıya çıxan problemləri müəyyən etməkdən və onları aradan qaldırmaqdan ibarətdir. Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil.

Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır. Tədris prosesində formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə oluna bilər.



Çap üçün deyil

Müəllim qiymətləndirmə meyarlarına uyğun dördsəviyyəli rubriklər (I–IV səviyyə) hazırlayır. Zəruri hallarda rubriklər 3 və ya 5 səviyyədə tərtib oluna bilər.

Müəllim şagirdin fəaliyyətinin nəticəsini "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubrikə uyğun olaraq rum rəqəmləri (I, II, III və IV) ilə, "Məktəbli kitabçası"nda isə sözlərlə yazır.

"Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubriklərin məzmunu və şagirdin formativ qiymətləndirilməsinə dair məlumatlar sərbəst formada aparılır. Müəllim yarımillərin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri" əsasında şagirdin yarımil ərzində fəaliyyətinin qısa təsvirini hazırlayır və portfolioda saxlayır.

***Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr***

| **Üsullar** | **Vasitələr** |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Təsviri sənət üzrə müəyyən şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Tapşırıqlar: rəsm, yapma, aplikasiya, konstruksiya |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Oxu | Dinləmə üzrə qeydiyyat vərəqi |
| | Oxu üzrə qeydiyyat vərəqi |
| Yazı | Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi: təsviri sənət əsərinə, növ və janrlara, rəssamın yaradıcılığına, məşhur əsərlərinə aid yazılmış esse və ya annotasiyalar, qısa şərhlər |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimatlar üçün meyarlar | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

Formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə olunur. Rubrik xüsusi növ qiymətləndirmə şkalasıdır. O, iki əsas suala cavab verir:

- “Mən nəyi qiymətləndirməliyəm?” (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyətlər);
- “Aşağı, orta, yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə bilmək olar?”

Rubrik vasitəsilə qiymətləndirmə nəticəsində şagirdlərin keçilmiş materialı necə mənimsədiklərini, buraxdıqları xarakterik səhvləri müəyyən etmək, növbəti dərsdə qarşıya çıxa biləcək problemlər üzərində görüləcək işləri dəqiqləşdirmək olar.

Qiymətləndirmə şkalası nailiyyət səviyyələrinə qiymət (bal) verilməsi üçün mexanizmdir. Rubriklərin hazırlanması üçün əvvəlcə dərsin məqsədləri müəyyən



Çap üçün deyil

olunmalıdır. Qiymətləndirmənin formalarından biri seçilməlidir (diaqnostik, formativ və ya summativ).

**Müəllimlər üçün rubriklərin üstün cəhətləri:**

- Rubriklər qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl olmasına imkan verir.
- Rubriklər tələb edir ki, müəllimlər müvafiq şərtlər üzrə öz meyarlarını səviyyələr əsasında müəyyənləşdirsinlər.
- Rubriklər müəllimləri tədrisin səmərəliliyi ilə bağlı faydalı məlumatlarla təmin edir.
- Rubriklər keyfiyyət səviyyələrinin intervalı vasitəsilə müxtəlif qabiliyyətli şagirdlərin olduğunu nəzərə alır.

***Səviyyələr üzrə təsvirlərin hazırlanması üçün təlimat:***

1. Qısa və sadə tərzdə, şagirdin anlayacağı dildən istifadə edilməlidir.
2. Müqayisəli və ya normativ dildən fərqli olaraq, deskriptiv dildən istifadə edin. Pis, orta, kafi, yaxşı, əla kimi qeyri-müəyyən deskriptorlardan istifadə olunmur.
3. Səviyyə deskriptorları müşahidə oluna bilən davranışlar və ya nəticənin xüsusiyyətləri baxımından mümkün dərəcədə ifadə edilməlidir.
4. Qiymətləndirmə səviyyələri arasında sərhəd aydın olmalı, üst-üstə düşməməlidir.
5. Şkala şagird nailiyyətləri intervalını tam əhatə etməlidir.
6. Təsvirlərin məzmunu nailiyyət səviyyələri üzrə eyni formalı tərtib edilməlidir.
7. Fəaliyyət səviyyələri bütün aspektlər üzrə uyğun olmalıdır (məsələn: bir aspekt üzrə “4” qiyməti digər aspekt üzrə “4” qiyməti ilə müqayisə oluna bilməlidir).
8. Əvvəlcə “ən yüksək”, sonra “ən aşağı” səviyyələr, sonda “aralıq” səviyyələrin təsvir edilməsi tövsiyə olunur.
9. Ən yüksək səviyyə: yüksək tələbkarlığa malik, bununla yanaşı, real olmalıdır.
10. Ən aşağı səviyyə: yalnız çatışmazlıqları deyil, həmçinin minimal nailiyyətin xüsusiyyətlərini əks etdirməlidir.

**Summativ qiymətləndirmə** təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Summativ qiymətləndirmə məzmun standartlarını mənimsəmə səviyyəsinin etibarlı göstəricisidir.

Summativ qiymətləndirmə kiçik summativ və böyük summativ qiymətləndirmədən ibarətdir.

Kiçik summativ qiymətləndirmə (KSQ) bəhs və ya bölmələrin sonunda müəllim, böyük summativ qiymətləndirmə (BSQ) isə yarımillərin sonunda məktəb rəhbərliyinin və ya məktəbdə yaratdığı müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur.

Kiçik summativ qiymətləndirmə fənn kurikulumları tətbiq olunan siniflərdə bəhs və ya bölmələrin sonunda altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir. Onun nəticələri yarımillik qiymətlərin hesablanmasında nəzərə alınır.



Çap üçün deyil

Kiçik summativ qiymətləndirmə vasitələri (test, tapşırıq, yazı işləri və s.) fənni tədris edən müəllim tərəfindən hazırlanır.

Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsi rəhbərliyinin yaratdığı müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. Ona görə də metodik vəsaitdə böyük summativ qiymətləndirmə üçün testlərin nümunəsi verilməyib.

Şagirdin illik qiyməti aşağıdakı cədvələ uyğun hesablanır:

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 2 | 2 | 2 |
| 2 | 3 | 3 |
| 2 | 4 | 3 |
| 2 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 3 | 2 | 2 |
| 3 | 3 | 3 |
| 3 | 4 | 4 |
| 3 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 4 | 2 | 2 |
| 4 | 3 | 3 |
| 4 | 4 | 4 |
| 4 | 5 | 5 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 5 | 2 | 2 |
| 5 | 3 | 4 |
| 5 | 4 | 5 |
| 5 | 5 | 5 |

Şagirdin qiyməti düzgün cavabların maksimum bala nisbəti ilə faiz göstəricisinə uyğun müəyyənləşdirilir:

| № | Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı | Şagirdin qiyməti |
|---|---|---|
| 1. | (0% – 40%] | 2 (qeyri-kafi) |
| 2. | (40% – 60%] | 3 (kafi) |
| 3. | (60% – 80%] | 4 (yaxşı) |
| 4. | (80% – 100%] | 5 (əla) |

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ FORMATİV QİYMƏTLƏNDİRMƏ ZAMANI İSTİFADƏ OLUNAN ÜSUL VƏ VASİTƏLƏR

| FƏALİYYƏT NÖVLƏRİ | ÜSULLAR | VASİTƏLƏR |
|---|---|---|
| **Müşahidəetmə** | **Müşahidə** (müəllim şagirdlərin fəaliyyətini müşahidə edərək qiymətləndirir). | **Müşahidə vərəqi** (şagirdin təlim fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarların yazıldığı cədvəl):<br>natura, təbiət, interyer, meyvə, tərəvəz, məişət əşyaları və s.<br>Təsviri incəsənət əsərləri (rəsm və heykəltəraşlıq nümunələri).<br>Dekorativ-tətbiqi sənət nümunələri (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər). |
| | **Tapşırıqvermə** | **Təsviri incəsənət əsərləri, rəsm işləri** |
| | Nəzəri tapşırıqlar | |

Çap üçün deyil

<table>
<tr><td rowspan="6">Təsvirlərin təhlili</td><td>Sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili.</td><td>Təsviri (reproduksiya, fotoşəkil və s.) və dekorativ sənət əsərlərinə (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər) münasibət.</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar:</td></tr>
<tr><td>Məzmun</td><td>İşləmə texnikası</td></tr>
<tr><td>səth üzərində</td><td>rəsm, rəngkarlıq, aplikasiya</td></tr>
<tr><td>həcmli (model)</td><td>kağız, karton, plastilin, gil, maket</td></tr>
<tr><td>• Rəsm çəkmək (naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ fəaliyyət və s.);<br>• Dekorativ-tətbiqi fəaliyyət (texnikalar: aplikasiya, panno, kollaj, dekupaj, vitraj, mozaika, batika, tikmə, hörmə, keramik məhsullar və s.);<br>• Yapma (relyefli və ya həcmli);<br>• Kompüter qrafikası.</td><td>• karandaş, flomaster, diyircəkli və rəngli qələm, tuş, kömür, qrafit, pastel təbaşir, rəngli kağız, karton, qutu, parça, boya (quaş, akvarel, akril, yağlı boya və s.) və s.;<br>• təbiət materialları (düyü, buğda, şam qozası, ağac, budaq, toxum, yarpaq və s.);<br>• plastilin, gil, gips, duzlu xəmir;<br>• qrafik redaktor (Paint və s.).</td></tr>
<tr><td>Sorğu</td><td>Şifahi sual-cavab</td><td>Təsviri incəsənət əsərləri, ətraf aləm, qayda və anlayışlar üzrə sual-cavablar, təhlil, müzakirə üzrə qeydiyyat vərəqi</td></tr>
<tr><td>Təqdimat</td><td>Şifahi, yazılı, rəmzi, təsviri, kompüterdə təqdimatlar</td><td>Şifahi cavablar;<br>bədii əsərlərə esselərin yazılması;<br>rəmzi təsvirlər (işarələr);<br>bədii yaradıcılıq və əl işləri, slayd vasitəsilə təqdimat;<br>layihələr</td></tr>
<tr><td>Qiymətləndirmə</td><td>Qrup işlərinin qiymətləndirilməsi, özünüqiymətləndirmə, rubrik üzrə qiymətləndirmə, qrafik, sxem, şkala, test və s.</td><td>Qiymətləndirmə vərəqləri, qiymətləndirmə sxemləri, meyarlar cədvəli, şkalalar, sxemlər, test tapşırıqları və s.</td></tr>
</table>

Müvafiq qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin arxasında verilmişdir.

Müəllim üçün metodik vəsaitdə bir sıra qiymətləndirmə üsullarından istifadə olunması tövsiyə edilir. Müəllim bu üsul və formalardan öz məqsədinə uyğun şəkildə istifadə edib, yenilərini yarada bilər.

Çap üçün deyil

# 1. TƏSVİRİ SƏNƏTDƏ TARİXİ HADİSƏLƏR VƏ QƏHRƏMANLIQ MÖVZUSU




1. Təsviri sənətdə batal və tarixi janrlar
2. Fransisko Qoyya: rəssamın rəng dünyasına həyat hadisələrinin təsiri
3. Jak Lui David: tarixi obrazlar
4. Jan Ogüst Dominik Enqr: xətt incəsənəti
5. Ejen Delakrua: rəng kontrastının dahi sənətkarı

Çap üçün deyil

# MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ

# İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

## 1. TƏSVİRİ SƏNƏTDƏ BATAL VƏ TARİXİ JANRLAR

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | təsviri sənət haqqında söhbət |
| **Alt-standart** | | 1.2.1.; 3.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• təsviri sənətin tarixi və batal janrlarını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• tarixi və batal janrlarında olan əsərlərdə milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;<br>• tarixi və batal janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Resurslar** | müəllim üçün | tarixi və batal janrlarında olan reproduksiyalar və ya fotolar, rubriklər, tapşırıq cədvəlləri |
| | şagird üçün | dərslik, albom, sadə və rəngli karandaşlar, qələmlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlər təsviri sənətin tarixi və batal janrı haqqında maraqlı məlumatlarla tanış olur, janrların xarakterik xüsusiyyətlərinin oxşar və fərqli cəhətlərini müəyyən edirlər. Dərsin əsas məqsədi – təsviri sənətdə müharibə, döyüş səhnələri və hərbi həyat mövzuları – batal (hərbi) janrına; cəmiyyət həyatında sosial əhəmiyyətli tarixi hadisələrə həsr olunmuş əsərlərin isə tarixi janra aid edildiyini müəyyən etməkdir.*




(A) Dərsliyin **İncəsənətə dair dialoq** blokunda şagirdlər verilmiş rəssam əsərlərinin bir-birindən nə ilə fərqləndiyini (təsviri sənətin növü, janrı, mövzusu) müzakirə edirlər.

***Tədqiqat sualları:*** *Tarixi və batal janrları arasında fərq nədədir? Janrların xarakterik xüsusiyyətlərini necə müəyyən etmək olar?*

(B) Dərsliyin **Xatırlayın** blokunda verilmiş sual müzakirə olunur. Şagirdlərlə birlikdə təsviri sənətdə müharibə səhnələrini və məşhur şəxsiyyətlərin həyatını əks etdirən janrların adı müzakirə edilir. Müəllim mövzunun açıqlanmasını anlayışın çıxarılması üsulu ilə başlaya bilər.

Çap üçün deyil




Şagirdlər sual işarəsinin arxasında olan sözü tapdıqdan sonra, müəllim batal janrında əsas yeri döyüş və hərbi yürüş səhnələrinin tutduğunu bildirir. Batal janr həmişə vətənpərvərlik ruhu ilə müşayiət olunur. Batal mövzularında işləyən rəssam batalist adlanır. Sonra şagirdlər ikinci anlayışı tapırlar.




Tarixi janra rəssamlar qədim zamanlardan müraciət edirlər. Belə əsərlərdə tarixi hadisələr və görkəmli şəxsiyyətlər, cəmiyyətdə baş verən sosial əhəmiyyətli hadisələr təsvir olunur.

C Şagirdlərin diqqəti dərslikdə batal və tarixi janrlara dair verilmiş məlumata, onun cəmiyyətdə roluna və yeni anlayışlara yönəldilir, mövzu ilə bağlı suallar verilir. Dərs zamanı şagirdlər verilmiş məzmunla müstəqil tanış olurlar. Tarixi janr digər təsviri sənət janrları – məişət (tarixi-məişət təsvirləri), portret (keçmiş dövr qəhrəmanlarının təsviri), mənzərə (tarixi mənzərə) janrları ilə sıx əlaqədardır və tarixi janrın müxtəlif hərbi hadisələrin əhəmiyyətinin açıldığı batal janrı ilə birləşməsi xüsusilə maraqlıdır.




D **Düşünün və izah edin** blokunda şagirdlər batal və ya tarixi janrları təsvir etməkdə əsas məqsədin nə olduğunu cavablandırırlar.

Janrlar haqqında məlumatlarla tanışlıqdan sonra şagirdlər onların oxşar və fərqli cəhətlərini Venn diaqramı vasitəsilə də yerinə yetirə bilərlər.

E **Təsviri sənət qalereyası** blokunda şagirdlər Avropa və Azərbaycan rəssamlarının yaradıcılığında batal və tarixi janrlarda olan rəngkarlıq və heykəltəraşlıq əsərlərinə



Çap üçün deyil

estetik münasibət bildirirlər. Müəllim şagirdlərə müasir rəssamın təkcə ötən yüzilliklərin sənətkarlarının topladığı biliklərin misilsiz yükünü özündə daşımadığını, hətta dövlətimizin şərəfli tarixini öyrənməyə, ata-babalarımızın qəhrəmanlığı ilə fəxr etməyə kömək etdiyini, həmçinin gənc nəslə vətənpərvərlik və öz vətəninə məhəbbət hissi aşıladığını vurğulayır.

**G Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Mövzuda verilmiş rəssamların əsərləri təsviri sənətin hansı növünə və janrına aid olduğu soruşulur. Şagirdlərə öz cavablarını əsaslandırmaq tövsiyə olunur.

Müəllim yalnız mövzuda verilmiş batal və tarixi janrlara aid rəssam əsərlərindən deyil, həm də öz seçiminə əsasən bu janrda yaradılmış digər əsərləri nümayiş etdirə bilər. Şagirdlər isə bu əsərləri mövzusuna, janrına görə təhlil edirlər.

**Yaradıcı fəaliyyət**

**2.** Dərslikdə verilmiş cədvəlləri şagirdlər alboma çəkir, janrların əsas səciyyəvi xüsusiyyətlərini yazmaqla onu doldururlar. Bu vaxtadək keçilmiş mövzular üzrə rəssamların verilmiş janrlardakı əsərlərini xatırlamaq tövsiyə olunur.

| Janrlar | Janrın xüsusiyyətləri | Janrların yaranması | Rəssamın adı və yaratdığı əsər |
|---|---|---|---|
| Batal | | | |
| Tarixi | | | |

Müqayisə edərək janrların ümumi və fərqli cəhətlərini qeyd edirlər. Janrların müqayisəli xarakteristikası, bir növ, Venn diaqramı əsasında yerinə yetirilir.

| Batal janrının xüsusiyyətləri | Batal və tarixi janrların ümumi xüsusiyyətləri | Tarixi janrın xüsusiyyətləri |
|---|---|---|
| | | |
| | | |

**3.** Şagirdlər təsviri sənətin batal və tarixi janrları haqqında müxtəlif mənbələrdən əlavə məlumat toplayır və təqdim edirlər.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Müqayisəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətin tarixi və batal janrları haqqında ən sadə məlumata malikdir. | Təsviri sənətin tarixi janrının xarakterik xüsusiyyətlərini izah edir, lakin batal janrının izahında çətinlik çəkir. | Təsviri sənətin tarixi və batal janrlarını xarakterik xüsusiyyətlərinə görə suallar əsasında şərh edir. | Təsviri sənətin tarixi və batal janrlarını xarakterik xüsusiyyətlərinə görə sərbəst şərh edir. |

Çap üçün deyil

| | | | |
|---|---|---|---|
| Verilmiş rəssam əsərlərində tarixi və batal janrlarını suallar əsasında tanıyır. | Tarixi və batal janrlarında olan əsərlərdə milli-üslubi cəhətləri müəllimin verdiyi suallar əsasında tanıyır. | Tarixi və batal janrlarında olan əsərlərdə milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini nümunələr əsasında fərqləndirir. | Tarixi və batal janrlarında olan əsərlərdə milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| Tarixi və batal janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını sadalayır. | Tarixi və batal janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını suallar əsasında izah edir. | Tarixi və batal janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını çətinliklə şərh edir. | Tarixi və batal janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |

## 2. FRANSİSKO QOYYA: RƏSSAMIN RƏNG DÜNYASINA HƏYAT HADİSƏLƏRİNİN TƏSİRİ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
| **Alt-standart** | | 1.2.1.; 1.3.1.; 2.1.1.; 2.1.2. |

**Təlim nəticələri:**
- təsviri sənətin tarixi və batal janrlarını xarakterik xüsusiyyətlərinə görə şərh edir;
- ispan rəssamı Fransisko Qoyya və onun əsərləri haqqında təqdimat edir;
- həyati görüntüləri tarixi və batal janrlarında real təsvir edir;
- süjetli əsərin real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan istifadə edir.

| | | |
|---|---|---|
| **Resurslar** | müəllim üçün | rəssamın əsərlərinin reproduksiyası (foto, slaydlar), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda romantizm dövrünün böyük ispan rəssamı Fransisko Qoyyanın əsərlərində ispan xalqının fransız işğalçıları ilə qətiyyətli mübarizəsinin heyrətamiz səhnələri haqqında məlumat və əsərləri verilmişdir. Dərsin məqsədi – şagirdlərə Qoyyanın sənətinin onu müasirlərindən fərqləndirən ən vacib cəhətlərini anlatmaqdır. Bu mövzuda şagirdlər dünya əhəmiyyətli rəssamın qrafika və rəngkarlıq əsərlərindəki tarixi və batal janrları haqqında olan məlumatları genişləndirir, onun yaradıcılığının xarakterik xüsusiyyətləri, bir-birindən fərqləndirən səciyyəvi cəhətləri və ən məşhur əsərlərinin adı ilə tanış olurlar.*

Çap üçün deyil




**A** Müəllim mövzunu dərslikdə verilmiş **İncəsənətə dair dialoq** blokundakı "Ətraf mühitdə baş verən hadisələr insanın həyat və yaradıcılığına təsir göstərə bilərmi?" sualı ilə və yaxud mövzunun məqsədinə uyğun fotolar, müxtəlif reproduksiyalar nümayiş etdirməklə başlaya bilər.

***Tədqiqat sualları:*** *Fransisko Qoyyanın yaradıcılığını fərqləndirən səciyyəvi cəhətlər hansılardır? Tarixi və batal janrlarında süjetli rəsm çəkmək üçün nələri nəzərə almaq vacibdir?*

**B** Müəllim şagirdlərin əvvəlki siniflərdə aldığı məlumatlara əsasən **Xatırlayın** blokuna müraciət edir, rəssamların süjetli əsərlərdə, adətən, nəyi təsvir etdiklərini soruşur.

**C** Dərslikdə ispan rəssamı Fransisko Qoyyanın həyat və yaradıcılığı haqqında maraqlı məlumat verilmişdir. Şagirdlər rəssamın yaradıcılığında baş verən dəyişikliklərlə tanış olurlar. **Bilirsinizmi?** blokunda verilmiş rəssamın "Kral IV Karlın ailəsi" tablosu haqqında maraqlı məlumat da burada öz əksini tapır.

**D** **Düşünün və izah edin** blokunda rəssamın təsvir xarakterinə görə təntənəli, yaxud kameral portretlər çəkdiyi barədə müzakirə aparılır.

**E** Dərsliyin **Təsviri sənət qalereyası** blokunda Qoyyanın İspaniyanın azad edilməsinə həsr etdiyi batal və tarixi janrlarda olan tabloları yer almışdır.

**F** **Görkəmli rəssamlar** blokunda Fransisko Qoyyanın həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası cədvəl şəklində verilmişdir.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Rəssamın verilmiş əsərlərində insanların xarakter və hərəkətlərini necə və hansı bədii ifadə vasitələri ilə təsvir edildiyi soruşulur. Şagirdlər birlikdə müzakirə edir və sualı cavablandırırlar.

**Yaradıcı fəaliyyət**

**2.** Batal, yaxud tarixi janrda süjetli rəsm çəkmək tapşırılır. Janrların xüsusiyyətlərini göstərmək, mövzudakı nümunələrdən seçərək istifadə etmək tövsiyə olunur.

Müəllim şagirdlərə cütlüklərlə də işləməyi tapşıra bilər. Bunun üçün 1-ci cütlüklər – batal janrında, 2-ci cütlüklər isə tarixi janrda süjetli rəsm çəkə bilərlər.

Çap üçün deyil



Dərslikdə s. 27-də batal və tarixi janrlara aid şagirdlərin rəsm zamanı istifadə edə biləcəkləri təsvirlərin metodikası verilmişdir. Müəllim rəsm zamanı bu barədə şagirdlərə xatırlada bilər.

**3.** Fransisko Qoyyanın yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdim etmək tapşırılır.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təqdimatetmə;
- Təsviretmə;
- Təsvir material və alətlərindən istifadəetmə;

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətin tarixi və batal janrları haqqında sadə məlumatları çətinliklə izah edir. | Təsviri sənətin tarixi janrının xarakterik xüsusiyyətlərini izah edir, lakin batal janrının izahında çətinlik çəkir. | Təsviri sənətin tarixi və batal janrlarını xarakterik xüsusiyyətlərinə görə suallar əsasında şərh edir. | Təsviri sənətin tarixi və batal janrlarını xarakterik xüsusiyyətlərinə görə sərbəst şərh edir. |
| İspan rəssamı Fransisko Qoyya haqqında sualların köməyi ilə bəsit məlumat verir. | İspan rəssamı Fransisko Qoyya və onun verilmiş əsərləri əsasında məlumatları izah etməkdə çətinlik çəkir. | İspan rəssamı Fransisko Qoyya və onun verilmiş əsərləri haqqında sadə təqdimat hazırlayır. | İspan rəssamı Fransisko Qoyya və onun əsərləri haqqında müxtəlif mənbələrdən məlumatlar toplayır və təqdimat edir. |
| Həyati görüntülərin tarixi və batal janrlarında real təsvirində çətinlik çəkir. | Həyati görüntüləri tarixi və batal janrlarında nümunələr əsasında bacardığı kimi real təsvir edir. | Həyati görüntülərin tarixi və batal janrlarında real təsvirində müəllimin köməyindən istifadə edir. | Həyati görüntüləri tarixi və batal janrlarda real təsvir edir. |
| Süjetli əsərin real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan istifadə etməkdə çətinlik çəkir. | Süjetli əsərin real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan səliqəsiz istifadə edir. | Süjetli əsərin real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan müəllimin köməyi ilə istifadə edir. | Süjetli əsərin real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan sərbəst istifadə edir. |

Çap üçün deyil

# 3. JAK LUİ DAVİD: TARİXİ OBRAZLAR

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
| **Alt-standart** | | 1.2.1.; 1.3.1.; 2.1.1.; 2.1.2. |
| **Təlim nəticələri:**<br>• təsviri sənətin tarixi janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• fransız rəngkarı Jak Lui David və onun əsərləri haqqında təqdimat edir;<br>• insan obrazını tarixi janrda real təsvir edir;<br>• insan obrazının real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan istifadə edir. | | |
| **Resurslar** | müəllim üçün | rəssamın əsərlərinin reproduksiyası (foto, slaydlar), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş və ya akvarel |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda təsviri sənətdə klassisizm, ampir və neoklassisizmin meydana gəlməsində əvəzsiz xidmətləri olan fransız rəssamı Jak Lui David və onun yaradıcılığı haqqında maraqlı məlumat verilmişdir. Yaradıcılığının çoxşaxəli olması, tarixi portretlərində antik obrazların ifadəsi, üslublarını dəb, dizayn və mebeldə əks etdirməsi, təsviri sənətin inkişafında mühüm olan xidmətləri fransız rəssamı digər nümayəndələrdən fərqləndirən səciyyəvi xüsusiyyətlərdir.*




Ⓐ Mövzunu dərsliyin **İncəsənətə dair dialoq** blokundakı sual ilə və yaxud rəssamın 3 üsluba aid əsərlərini nümayiş etdirməklə izah etmək olar. Yeni üslubları asan mənimsəmək üçün müəllim əsərlərlə bağlı şagirdlərə yönəldici suallar verə bilər.




*“Horatsilərin andı”. Luvr, Paris. 1784*

Əsərdə hansı xalqın baş və bədən geyimləri əks olunub? Dəbilqələr haqqında nə demək olar? (Antik üslub)

İdeal kimi antik dövrə müraciət edən üslub klassisizm adlanır.

Çap üçün deyil

Ampir və neoklassisizm üslublarını da dərslikdə verilmiş nümunələr və yönəldici suallarla başa salmaq olar.

***Tədqiqat sualları:*** *Jak Lui Davidin yaradıcılığının əsas xüsusiyyətləri nədir? Hər hansı bir üslubda insan obrazını yaratmaq üçün nələri bilmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** Müəllim dərsliyin **Xatırlayın** blokunda verilmiş sualla sinfə müraciət edərək, şagirdlərin fərziyyələrini dinləyir.

**C** Müəllim şagirdlərə rəssamın yaradıcılığının təsviri sənətdə, cəmiyyətdə rolu haqqında kiçik məlumat verir. Jak Lui David antik dövrün məşhur qəhrəmanlarını özünün ilk tablolarının personajlarına çevirərək, onların obrazları vasitəsilə dövrün yeni ideallarını ifadə edirdi.

Şagirdlər dərslikdə verilmiş mətni sərbəst oxuyur, verilmiş məzmunu birlikdə müzakirə edirlər. Müəllim şagirdlərin mövzu ilə tanışlığı üçün BİBÖ cədvəlindən istifadə edə bilər.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

**D** Sonra **Düşünün və izah edin** blokundakı suallara öz fikirlərini bildirirlər.

**E** Dərsliyin **Təsviri sənət qalereyası** blokunda Davidin tarixi janrda və onun yaradıcılığının ən mühüm hissəsi olan Napoleon Bonapartın təntənəli portretləri əks olunmuşdur.

**F** **Görkəmli rəssamlar** blokunda fransız klassisizminin nəhəng nümayəndəsi Jak Lui Davidin həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası cədvəl şəklində verilmişdir.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Şagirdlər Davidin əsərlərinə nəzər salmaqla ölkədə baş verən hadisələrin onun yaradıcılığına necə təsir göstərdiyini izah edirlər.

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlərə öz yaradıcılığı, şəxsiyyəti ilə təsir edən insanın obrazını çəkmək tapşırılır. Vərəqdə onun məşğuliyyətini, geyim tərzini, kompozisiya qaydalarını müəyyən edirlər.

**3. a)** Şagirdlər Jak Lui Davidin yaradıcılığı haqqında əlavə məlumat toplayaraq təqdimat hazırlayırlar.

**b)** Bu tapşırıq müəllimin seçimi əsasında evə verilə bilər. Şagirdlər tanıdıqları Azərbaycanın Milli qəhrəmanları haqqında qısa esse yazırlar, onların igidliyini tərənnüm edən rəsm çəkirlər.

**H** Müəllim şagirdlərdən dərslikdə verilmiş **Özünüzü yoxlayın** blokundakı ümumiləşdirici sualların cavablandırılmasına nail olur.



Çap üçün deyil

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təqdimatetmə;
- Təsviretmə;
- Müxtəlif təsvir materiallarından istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətin tarixi janrı haqqında sadə məlumatları çətinliklə sadalayır. | Təsviri sənətin tarixi janrının xarakterik xüsusiyyətlərini izah etməkdə çətinlik çəkir. | Təsviri sənətin tarixi janrını xarakterik xüsusiyyətlərinə görə suallar əsasında şərh edir. | Təsviri sənətin tarixi janrını xarakterik xüsusiyyətlərinə görə sərbəst şərh edir. |
| Fransız rəngkarı Jak Lui David haqqında yönəldici suallar əsasında bəsit məlumat verir. | Fransız rəngkarı Jak Lui David və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Fransız rəngkarı Jak Lui David və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Fransız rəngkarı Jak Lui David və onun əsərləri haqqında təqdimat edir (vərəq və ya müxtəlif kompüter proqramlarında). |
| İnsan obrazının tarixi janrda real təsvirində çətinlik çəkir. | İnsan obrazının tarixi janrda real təsvirini səliqəsiz çəkir. | İnsan obrazının tarixi janrda real təsvirini müəllimin köməyi ilə edir. | İnsan obrazının tarixi janrda real təsvirini sərbəst çəkir. |
| İnsan obrazının real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan istifadə etməkdə çətinlik çəkir. | İnsan obrazının real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan səliqəsiz istifadə edir. | İnsan obrazının real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan müəllimin köməyi ilə istifadə edir. | İnsan obrazının real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan sərbəst istifadə edir. |

## 4. JAN OGÜST DOMİNİK ENQR: XƏTT İNCƏSƏNƏTİ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
| **Alt-standart** | | 1.2.1.; 1.3.1.; 2.1.1. ; 2.1.2. |

**Təlim nəticələri:**

- təsviri sənətin tarixi janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir;
- fransız rəssamı Jan Ogüst Dominik Enqr və onun əsərləri haqqında təqdimat edir;
- həyati görüntüləri tarixi janrda real təsvir edir;
- tarixi janrın təsvirində sadə və rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən istifadə edir.

| | | |
|---|---|---|
| **Resurslar** | müəllim üçün | əsərlərinin reproduksiyası (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, sadə və rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdləri fransız rəssamı Jan Ogüst Dominik Enqrin yaradıcılığı ilə tanış etmək, onun haqqında əlavə məlumat toplamalarıdır. Rəssamın klassisizm üslubunda olan tarixi əsərlərində xətt və forma, insan obrazlarının fransız incəsənətində akademizmin inkişafına böyük təsir göstərdiyi bildirilir.*



Çap üçün deyil



**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sual müzakirə olunur.

***Tədqiqat sualları:*** *Jan Ogüst Dominik Enqrin yaradıcılığı haqqında nə bilirsiniz? Tarixi janrda rəsm və ya portret çəkmək üçün nələri nəzərə almaq vacibdir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** Müəllim dərsliyin **Xatırlayın** blokunda verilmiş sualla sinfə müraciət edərək, şagirdlərin fərziyyələrini dinləyir.

**C** Müəllim şagirdlərə rəssamın yaradıcılığının təsviri sənətdə, cəmiyyətdə rolu haqqında kiçik məlumat verir. Fransız klassisizminin nümayəndələrindən biri, tarixi və portret janrının görkəmli sənətkarı rəssam Jan Ogüst Dominik Enqr olmuşdur. O, öz müəllimi David kimi, antik dövr və italyan İntibahı rəssamları ilə maraqlanır, Rafaeli əlçatmaz ideal hesab edirdi. Enqr yaradıcılığında ideal, mükəmməl formanın yaradılmasına can atırdı.

Şagirdlər dərslikdə verilmiş mətni sərbəst oxuyur, verilmiş məzmunu birlikdə müzakirə edirlər. Müəllim şagirdlərin mövzu ilə tanışlığı üçün BİBÖ cədvəlindən istifadə edə bilər.

**E** Dərsliyin **Təsviri sənət qalereyası** blokunda Enqrin tarixi janrda olan rəngkarlıq və qrafik əsərləri təqdim olunmuşdur. Rəssamın erkən əsərləri kompozisiyanın klassik quruluşu, incə rəng duyumu, aydın, işıqlı koloritin harmoniyası ilə fərqlənir. Enqr tarixi və dini mövzularda iri kompozisiyaların yaradılmasını həyatının əsas işi hesab edirdi. Lakin Enqr öz kompozisiyalarına daha çox təbiət müşahidələri, dini hislər gətirərək, mövzu dairəsini genişləndirir, o cümlədən, antik və orta əsrlər dövrünə müraciət edirdi.

**F** **Görkəmli rəssamlar** blokunda fransız klassisizminin nəhəng nümayəndəsi Jan Ogüst Dominik Enqrin həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası cədvəl şəklində verilmişdir.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Şagirdlər dərslikdə rəssamın verilmiş əsərlərindəki üslub və obrazların nə ilə fərqləndiyini müəyyən edirlər.

Çap üçün deyil

**Yaradıcı fəaliyyət**

**2.** Portret və ya tarixi mövzuda rəsm çəkmək tapşırılır. Səhifə 27-də verilmiş nümunələrdən istifadə etmək olar.

**3.** Jan Ogüst Dominik Enqrin yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdim etmək olar.

H Müəllim şagirdlərə suallar verməklə dərslikdə verilmiş **Özünüzü yoxlayın** blokundakı ümumiləşdirici sualların cavablandırılmasına nail olur.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təqdimatetmə;
- Təsviretmə;
- Müxtəlif təsvir materiallarından istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətin tarixi janrında verilmiş nümunəni çətinliklə tanıyır. | Təsviri sənətin tarixi janrının xarakterik xüsusiyyətlərini istiqamətverici suallar əsasında izah edir. | Təsviri sənətin tarixi janrını xarakterik xüsusiyyətlərinə görə suallar əsasında şərh edir. | Təsviri sənətin tarixi janrını xarakterik xüsusiyyətlərinə görə sərbəst şərh edir. |
| Fransız rəssamı Jan Ogüst Dominik Enqr haqqında çox bəsit məlumat verir. | Fransız rəssamı Jan Ogüst Dominik Enqr və onun əsərləri haqqında məlumatları çətinliklə izah edir. | Fransız rəssamı Jan Ogüst Dominik Enqr və onun əsərləri haqqında verilmiş nümunələr əsasında sadə təqdimat hazırlayır. | Fransız rəssamı Jan Ogüst Dominik Enqr və onun əsərləri haqqında məlumat toplayır və təqdimat edir. |
| Həyati görüntülərin tarixi janrda real təsvirində çətinlik çəkir. | Həyati görüntülərin tarixi janrda real təsvirini səliqəsiz çəkir. | Həyati görüntülərin tarixi janrda real təsvirini müəllimin köməyi ilə çəkir. | Həyati görüntüləri tarixi janrda təsvir qaydalarından istifadə etməklə real çəkir. |
| Həyati görüntülərin tarixi janrda real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan istifadə etməkdə çətinlik çəkir. | Həyati görüntülərin tarixi janrda real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan səliqəsiz istifadə edir. | Həyati görüntülərin tarixi janrda real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan müəllimin köməyi ilə istifadə edir. | Həyati görüntülərin tarixi janrda real təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, sulu boyalardan sərbəst istifadə edir. |

Çap üçün deyil

# 5. EJEN DELAKRUA: RƏNG KONTRASTININ DAHİ SƏNƏTKARI

## Gündəlik planlaşdırmaya dair dərs nümunəsi

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | mövzu üzrə rəsm |
| **Alt-standart** | | 1.2.1.; 1.3.1.; 2.1.1. ; 2.1.2. |
| **Təlim nəticələri:**<br>• təsviri sənətin tarixi və batal janrlarını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• fransız rəngkarı Jan Ogüst Ejen Delakrua və onun əsərləri haqqında təqdimat edir;<br>• rəng kontrastından istifadə etməklə tarixi rəsm və ya natürmort təsvir edir;<br>• tarixi rəsm və ya natürmortun təsvirində pastel təbaşirlərdən, quaşdan istifadə edir. | | |
| **İnteqrasiya** | | Az-d. 1.1.2.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3; Ü-t. 5.1.1.; C. 3.2.1.; Az-t. 1.3.1; 5.1.2.; Ə. 2.2.1. |
| **İş formaları** | | qrup işi, kollektiv iş |
| **İş üsulları** | | müzakirə, dəyirmi masa, təqdimat |
| **Resurslar** | müəllim üçün | rəssamın rəngkarlıq nümunələri (slayd və ya şəkillər), rəng dairəsinə aid əyani vəsait, iş vərəqləri, meyar cədvəli |
| | şagird üçün | pastel təbaşirlər, quaş |




### Dərsin gedişi. Motivasiya

**A** Müəllim rəngli kağızlar vasitəsilə rəng dairəsi yaratmağı məsləhət görür. Dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş sual soruşulur. Şagirdlər aşağı siniflərdən bu barədə məlumatlı olmalıdırlar.

– Rəng dairəsində bir-birinin qarşısında yerləşən rənglər necə adlanır? (Kontrast rənglər).
– Kontrast rəng nə deməkdir? (Bir-birinə zidd, əks olan, kəskin fərqlənən rənglər).
– Bu rənglər hansılardır? (Qırmızı–yaşıl; sarı–bənövşəyi; göy–narıncı).
– Kontrastlıq deyərkən nə başa düşülür? (Rəng və ton kontrastı).
– Rəng kontrastı nədir? (Parlaq, əlvan, təmiz rənglərin bir-birinə görə kəskin fərqi).
– Ton kontrastı nədir? (Rəngin açıq və tündlüyünün fərqi).

Çap üçün deyil



Ton kontrastı



Rəng dairəsi



Rəng kontrastı

***Tədqiqat sualları:*** *Ejen Delakruanın yaradıcılığında rəngin rolu nədən ibarət idi?*
*Rəsmlərdə rəng kontrastlığına necə nail olmaq olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

## TƏDQİQATIN APARILMASI

**B** Müəllim şagirdlərə dərsliyin **Xatırlayın** blokunda verilmiş rəng və ton kontrastına aid nümunələr söyləməyi tapşırır və onların fərziyyələrini dinləyir.

**C** Şagirdlərə tarixi janrın inkişafında misilsiz rol oynamış Ejen Delakruanın yaradıcılığında rəng kontrastının rolu haqqında məlumat verilir. Sonra **Bilirsinizmi?** bloku müzakirə edilir.

Şagirdlər dərslikdə verilmiş mətni sərbəst oxuyur, məzmunu birlikdə müzakirə edirlər. Müəllim dərsin fəal mərhələsini "Dəyirmi masa" ("Karusel") üsulundan istifadə edərək keçirə bilər. Bunun üçün şagirdlər 4 qrupa bölünür. Müəllim qruplara mövzuya dair 4–5 açıq sual və ya tapşırıq verir. Bunun üçün müəllim A2 formatlı iş vərəqləri tərtib edir və orada sualları müxtəlif rənglərdə olan flomasterlərlə yazır. Qrupların hər birinə suallara aid cavabı həmin rəngdə olan flomasterlə yazmağı tapşırır. Qrup iş vərəqlərindəki yazıları nəzərdən keçirir və öz əlavələrini edir. Müəllim bir-birinə ötürmə prosesinə gecikmələr olmaması üçün nəzarət edir. Bu proses qrupların hamısı hər bir iş vərəqini nəzərdən keçirib əlavələr edənədək davam edir. Sonra bu vərəqlər ilkin qrupa qaytarılır, təqdimatlar və onların müzakirəsi başlayır.

Əgər "Dəyirmi masa" ("Karusel") üsulu çox vaxt aparsa, müzakirəni sual və cavablarla yerinə yetirmək olar.

**I qrup**
**RƏNG DAİRƏSİ**
Rəng dairəsi haqqında bildiklərinizi qeyd edin.

**II qrup**
**RƏNG KONTRASTI**
Rəng kontrastı haqqında bildiklərinizi qeyd edin və nümunələr göstərin.

**III qrup**
**TON KONTRASTI**
Ton kontrastı haqqında bildiklərinizi qeyd edin və nümumələr göstərin.

**IV qrup**
**TARİXİ VƏ BATAL JANRLARI**
Janrlar haqqında bildiklərinizi qeyd edin.

Çap üçün deyil

**E** Dərsliyin **Təsviri sənət qalereyası** blokunda Delakruanın tarixi janrda olan əsərləri təqdim olunmuşdur. Müəllim Delakruanın yaradıcılığında mühüm yer tutan əsərləri haqqında onlara məlumat verə bilər.

Delakruanın ilk əsəri "Dantenin qayığı" olmuşdur. Həmin dövrdə əsər bir o qədər də əhəmiyyət kəsb etməmişdir. Ona ilk uğuru 1824-cü ildə Yunanıstanın müstəqilliyi uğrunda gedən müharibəyə çəkmiş olduğu "Xios qətliamı" gətirir. Bu əsər təsviri sənət tənqidçiləri tərəfindən "tale və əzabın tükürpədici himni" adlandırmışdır. Ejenin sonrakı əsəri – "Sardanapalın ölümü" dövrünün tənqidçilərinə görə, haray salır, hədələyir və Allahın adından danışır.

Delakrua 1830-cu ildə Burbonlar monarxiyasının bərpası rejiminə qarşı baş vermiş Böyük Fransa inqilabı motivləri əsasında "Xalqı aparan Azadlıq" əsərini yaratmışdır. Bu tablonu çoxlu hazırlıq eskizindən sonra üç ay ərzində ərsəyə gətirmişdir. İlk dəfə 1831-ci ilin mayında Paris salonunda təqdim olunmuş bu əsər dərhal dövlət tərəfindən satın alınmışdır. Delakrua qardaşına məktubunda yazmışdır: "Əgər mən vətən uğrunda döyüşməmişəmsə, onda heç olmasa onun üçün əsər çəkərəm".



**"Sardanapalın ölümü". Luvr, Paris. 1820**



**"Xios qətliamı". Luvr, Paris. 1824**

**Bu maraqlıdır** blokunda rəssamın natürmort və vəhşi heyvanları çəkdiyi əsərlər yer almışdır.

**D** **Düşünün və izah edin** blokunda isə rəssamın əsərlərində hansı əhvali-ruhiyyə hökm sürür və bunun nə ilə assosiasiya olunduğu müzakirə edilir.

**F** **Görkəmli rəssamlar** blokunda XIX əsrin fransız romantik rəngkarlığında misilsiz rol oynamış nəhəng nümayəndəsi Ejen Delakruanın həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası cədvəl şəklində verilmişdir. Ejen Delakruanın yaradıcılığı haqqında saytda maraqlı məlumat və əsərlərinə baxmaq olar: http://www.goia.ru/

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Şagirdlər rəssamın əsərlərində hansı kontrast rənglərin mövcud olduğunu tapırlar.

**2.** Rəng kontrastından istifadə etməklə tarixi rəsm və ya natürmort çəkmək tapşırılır.

**Sənətkar məsləhət**indən də kömək məqsədilə kontrast rəng cütlüklərini yaradacaq rəsmlərində istifadə etmək olar.



Çap üçün deyil

| | | | | | |
|---|---|---|---|---|---|
| *sarı* | ↔ | *bənövşəyi* | *sarımtıl-narıncı* | ↔ | *göyümtül-bənövşəyi* |
| *narıncı* | ↔ | *göy* | *qırmızımtıl-narıncı* | ↔ | *göyümtül-yaşıl* |
| *qırmızı* | ↔ | *yaşıl* | *qırmızımtıl-bənövşəyi* | ↔ | *sarımtıl-yaşıl* |

Qrupların yuxarıda verilmiş adlarına görə tarixi rəsm və ya natürmort çəkmək tapşırılır. I – RƏNG DAİRƏSİ və II – RƏNG KONTRASTI qrupları natürmort, III – TON KONTRASTI və IV – TARİXİ VƏ BATAL JANRLARI qrupu tarixi janrda rəsm çəkirlər.

Müəllim nümunə üçün maraqlı natürmort rəsmləri göstərə bilər.





Təsvir zamanı müəllim dərsin sonunda qrupun özünü qiymətləndirəcəyini xatırladır və meyarları nümayiş etdirir.

### Məlumat mübadiləsi

Qruplar təsvirlərini təqdim edirlər. Digər qruplar öz münasibətlərini bildirirlər.

### Məlumatın müzakirəsi və təşkili

- Çəkdiyiniz rəsmlərdə hansı rəng və ton kontrastından istifadə etdiniz?
- Tarixi rəsmlə natürmort arasında hansı ümumi meyar gözlənildi?

### Yaradıcı tətbiqetmə

**3.** Ejen Delakruanın yaradıcılığı haqqında müxtəlif mənbələrdən əlavə məlumat toplamaq və təqdim etmək tapşırılır.

### Ümumiləşdirmə və nəticə

H Müəllim şagirdlərlə dərslikdə verilmiş **Özünüzü yoxlayın** blokundakı ümumiləşdirici sualları cavablandırırlar.

- Romantik üslubda əsərlər yaradan rəssamlar, hansı süjetlərin təsvirinə üstünlük verərdilər?
- Delakruanın yaradıcılığının mühüm xüsusiyyətləri hansılardır?

Fransız rəssamı, təsviri sənətdə romantizm cərəyanının yaradıcılarından biri olan Delakrua dünya təsviri sənət tarixinə ən böyük rəng ustadı kimi daxil oldu. Rəssamlar ara-



Çap üçün deyil

sında ilk dəfə rəng problemini irəli sürdü və bunu elmi cəhətdən əsaslandırdı. O, bütün yaradıcılığı boyunca boyaların ahəngdar uyğunluğu, rəng kontrastları və qarışıq rənglərin tətbiqi problemi ilə maraqlanırdı. Onun bu sahədəki nailiyyətləri impressionistlər tərəfindən qəbul olundu və onların yaradıcılığında daha da inkişaf etdirildi.

### Qiymətləndirmə

Qiymətləndirmə zamanı qrupun özünüqiymətləndirməsindən istifadə edilir.

| № | MEYARLAR | Həmişə | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|
| 1. | Təsviri sənətin tarixi və batal janrlarını xarakterik xüsusiyyətlərinə görə şərh edir | | | |
| 2. | Fransız rəngkarı Jan Ogüst Ejen Delakrua və onun əsərləri haqqında təqdimat edir | | | |
| 3. | Rəng kontrastından istifadə etməklə tarixi rəsm və ya natürmort təsvir edir | | | |
| 4. | Tarixi rəsm və ya natürmortun təsvirində pastel təbaşirlərdən, quaşdan istifadə edir | | | |

---

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №1)**
**nümunəsi vəsaitin sonunda verilmişdir.**

Çap üçün deyil

# 2. TƏSVİRİ SƏNƏTDƏ YENİ DÖVRÜN BƏDİİ İFADƏ VASİTƏLƏRİ




6. İmpressionizm: təəssüratların poeziyası
7. Oskar Klod Mone: işıq və rəng vurğunluğu
8–9. Eduard Mane: impressionizmdə natürmort
10–11. Ogüst Renuar: işığa yeni baxış
12. Ogüst Roden: heykəltəraşlıqda hərəkət və emosiya
13–14. Vinsent Van Qoq: rəng, xətt və formaların emosional təsiri
15–16. Pol Qogen: rəng və xətlərin sadələşdirilməsi. Simvolizm
17–18. Anri Matis: rəngkarlıqda dekorativlik, forma və rəng

Çap üçün deyil

# 6. İMPRESSİONİZM: TƏƏSSÜRATLARIN POEZİYASI

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | təsviri sənət haqqında söhbət |
| **Alt-standart** | | 3.1.1. ; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• impressionizm əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;<br>• təsviri sənətin növ və janrlarının impressionizm cərəyanındakı xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Resurslar** | müəllim üçün | impressionistərin əsərlərindən nümunələr (slayd və ya foto), iş vərəqləri, meyar cədvəli |
| | şagird üçün | dərslik, sadə karandaş və qələmlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlər təsviri sənətdə XIX əsrin ortalarında Fransada rəngkarlıq sahəsində meydana çıxan və sonralar bütün dünyaya yayılan impressionizm haqqında məlumat əldə edir, bu cərəyanı digərlərindən fərqləndirən bir çox cəhətlər haqqında öyrənir.*




A Mövzuya dərsliyin **İncəsənətə dair dialoq** blokundakı sualı müzakirə və ya aşağıdakı əsərlərdən istifadə etməklə başlamaq olar. Müəllim şagirdlərdən impressionizm cərəyanı haqqında istədiyi cavabları düzgün verilmiş suallar əsasında ala bilər:



**Rembrandt. "Ailə portreti". 1666–1668**



**Eduard Mane. "Foli-Berjerdə bar". 1882**

Çap üçün deyil

– Gördüyünüz iki əsər bir-birindən nə ilə fərqlənir? (Fərziyyələr).
– İnsanlar harada təsvir edilmişlər? Əsərlərin fonu haqqında nə demək olar? (fərziyyələr).
– Rənglər, işıq-kölgə necə verilmişdir? və s.

Şagirdlərdən alınan cavabları Venn diaqramında əks etdirmək olar. 1-ci və 2-ci əsər haqqında fərqli xüsusiyyətləri diaqramın daxilində, oxşar xüsusiyyətləri isə 2 dairənin kəsişən hissəsində qeyd edilir.




***Tədqiqat sualları:** İmpressionizm cərəyanının yaranmasına nə səbəb oldu?*
*İmpressionizmin əsas xüsusiyyətləri nədir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** bloku şagirdlərin köhnə biliklərini yada salmaq məqsədilə birlikdə müzakirə olunur.

**C** Müəllim şagirdlərlə birlikdə dərslikdə verilmiş impressionizm cərəyanının meydana gəlmə səbəbləri ilə tanış olurlar. **Bu maraqlıdır** blokunda “impressionizm” termininin ilk dəfə tənqidçilərdən biri tərəfindən Klod Monenin mənzərə əsəri olan “Təəssürat. Doğan günəş” haqqında yazısında istifadə edildiyini öyrənirlər. Sonradan “İmpressionistlər” (“Təəssüratçılar”) ləqəbini gənc rəssamlar öz qruplarının adı kimi qəbul etmişlər. Dərslikdəki məlumatları şagirdlərə müxtəlif təlim üsullarından istifadə edərək – BİBÖ cədvəli, açar sözlərlə, şaxələndirmə, İQS ilə vermək olar.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |
| | | |
| | | |

Çap üçün deyil


Kontrast rəngli yaxmalardan istifadə edilirdi


Tübik-boyalar istehsal olundu


İşıq və rəng keçidləri dəqiqliklə təsvir edilirdi


Palitradan istifadə etmirdilər


Əsərlər havada – plenerdə yaradılırdı

## İMPRESSİONİZM

D **Düşünün və izah edin** blokunda impressionizm zamanı rəngkarlıqda hansı dəyişikliklər baş verdiyini birlikdə izah edirlər.

İmpressionizm üçün rəsmdə nə təsvir olunması o qədər də əhəmiyyətli deyildi, lakin necə təsvir olunması çox vacib idi. Onlar əsərlərində həyatı yalnız müsbət tərəflərdən təqdim edirdilər, o cümlədən, aclıq, xəstəlik, ölüm kimi sosial problemlərə toxunmurdular. Rəssamlar tez-tez insanları istirahət və ya əyləncə zamanı hərəkətdə, müəyyən bir yerin görüntüsündə, müəyyən işıqda çəkirdilər. Onların işində başlıca motivlərdən biri də təbiət idi. İmpressionizm – XIX əsrdə Fransada mövcud olan böyük bədii hərəkat idi. Öz müasirlərinin düşüncəsində bədii inqilab edərək, onların qarşısında yeni üfüqlər açaraq, impressionizm incəsənətin inkişafına, yeni konsepsiyaların, cərəyan və formaların yaranmasına təkan verdi.

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** İmpressionist rəssamların əsərlərindəki ümumi cəhətlər hansılardır?

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlər dərslikdə verilmiş cədvəli albomda çəkirlər və impressionizmin əsas xüsusiyyətlərini orada qeyd edirlər.

| İmpressionist rəssamlar | Rəssamların yaradıcılıq dövrü | İmpressionizmin əsas xüsusiyyətləri |
|---|---|---|
| | | |

**3.** İmpressionizm və onun görkəmli nümayəndələri haqqında əlavə məlumat toplayaraq esse yazır və ya təqdimat hazırlayırlar.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

Çap üçün deyil

*Qiymətləndirmə meyarları:*

- Müqayisəetmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İmpressionizm əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin köməyi ilə izah edir. | İmpressionizm əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edərkən tez-tez səhvlərə yol verir. | İmpressionizm əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edərkən bəzən qeyri-dəqiqliyə yol verir. | İmpressionizm əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| Təsviri sənətin növ və janrlarının impressionizm cərəyanındakı xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını çətinliklə şərh edir. | Təsviri sənətin növ və janrlarının impressionizm cərəyanındakı xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edərkən səhvlərə yol verir. | Təsviri sənətin növ və janrlarının impressionizm cərəyanındakı xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını nümunəyə əsasən şərh edir. | Təsviri sənətin növ və janrlarının impressionizm cərəyanındakı xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını müəyyənləşdirərək şərh edir. |

## 7. OSKAR KLOD MONE: İŞIQ VƏ RƏNG VURĞUNLUĞU

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | naturadan rəsm |
| **Alt-standart** | | 1.3.1. ; 2.1.2.; 3.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:** • fransız rəssamı Klod Mone və onun əsərləri haqqında təqdimat edir; • mənzərə görüntülərinin real və abstrakt təsvirində sulu boyalardan istifadə edir; • impressionizm əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir; • impressionizm üslubunda olan mənzərə janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Resurslar** | müəllim üçün | rəssam reproduksiyaları (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, akvarel, quaş |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda impressionizm dövrünün görkəmli sənətkarlarından olan fransız rəssamı Klod Mone və onun yaradıcılığı haqqında məlumat verilmişdir. Dərsin məqsədi – impressionizm cərəyanının yaranmasına səbəb olan Monenin əsərləri və qeyri-adi işləmə üslubu ilə tanışlıqdır.*

Çap üçün deyil



**A** Mövzunu dərslikdə **İncəsənətə dair dialoq** blokunda verilmiş sualın müzakirəsi ilə başlamaq olar. Şagirdlər təsvirlərdə işıq və rəng arasında hansı əlaqələrin mövcud olduğuna dair fərziyyələr söyləyirlər.

***Tədqiqat sualları:*** *Klod Mone yaradıcılığının əsas xüsusiyyətləri hansılardır?*
*İmpressionizm üslubunda rəsmi çəkmək üçün hansı bədii ifadə vasitələrini nəzərə almaq vacibdir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** bloku təhlil olunur. Rəng dairəsində rənglər və onların xüsusiyyəti şagirdlər tərəfindən müqayisə edilir, ümumi cəhətləri araşdırılır.
**C** Şagirdlər impressionizm üslubu, onun yaranma tarixi və səbəbləri, cəmiyyətdə yeri haqqında məlumatla tanış olurlar. Dərslikdə verilmiş Klod Monenin əsərlərində işıq və rəng nisbəti barədə müzakirə aparılır.
**D** **Düşünün və izah edin** blokunda verilmiş suala cavab axtarılır.
**E** Şagirdlər **Təsviri sənət qalereyası** blokunda Klod Monenin əsərlərində mənzərə janrının xüsusiyyətləri, rəssamın özünəməxsus tərzdə çəkdiyi nümunələrinin təsvirləri ilə tanış olurlar. Burada "Laləli çəmənlik" əsərinin təhlili də geniş şəkildə şagirdlərə təqdim olunur. Mone, əsasən, mənzərə sahəsində əsərlər yaradıb. O, eyni mənzərənin günəşli və ya buludlu havada, səhər və ya axşam işığında tamamilə fərqli təəssürat oyatdığına diqqət yetirmişdir. Dərslikdə Monenin "Ruan kilsəsi" silsiləsindən olan əsərlərində bu hal ən yüksək səviyyədə tərənnüm edilmişdir.
**F** **Görkəmli rəssamlara** dair cədvəldə impressionizmin yaradıcılarının ən parlaq nümayəndələrindən olan Klod Monenin həyat xronologiyası verilmişdir.
**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Şagirdlər Klod Monenin əsərlərində obyektlər üzərində işıq-kölgəni göstərmək və rəssamın onları günün hansı vaxtında təsvir etdiyini izah edirlər.

**Yaradıcı fəaliyyət**

**2.** Siniflə şəhərə ekskursiya etmək məsləhət görülür. İmpressionizm üslubunda naturadan şagirdlərin xoşuna gələn mənzərənin, hər hansı bir küçənin rəsmini çəkmək tapşırılır. Rəsm çəkərkən ilin fəsli, günün vaxtı nəzərə alınmalıdır. **Sənətkar məsləhətinə** də əməl etmək vacib sayılır. Palitrada boyaları qarışdırmadan, təmiz halda vərəqə iri yaxmalar vuraraq, birbaşa lazım olan rəngi almağa cəhd etmək, obyektlərdə işıq-kölgəni göstərmək lazımdır.

Çap üçün deyil

**3.** Klod Monenin yaradıcılığı haqqında əlavə məlumat toplayıb, təqdim edirlər.
H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə;
- Sulu boyalardan istifadəetmə;
- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fransız rəssamı Klod Mone haqqında bəsit məlumat verir. | Fransız rəssamı Klod Mone və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Fransız rəssamı Klod Mone və onun əsərləri haqqında verilmiş nümunələr əsasında sadə təqdimat hazırlayır. | Fransız rəssamı Klod Mone və onun əsərləri haqqında müxtəlif mənbələrdən məlumat toplayaraq, təqdimat edir. |
| Mənzərə görüntülərinin real və abstrakt təsvirində sulu boyalarla yaxmalar verilməsində çətinliklə istifadə edir. | Mənzərə görüntülərinin real və abstrakt təsvirində sulu boyalardan yaxmalar verilməsində səliqəsiz istifadə edir. | Mənzərə görüntülərinin real və abstrakt təsvirində sulu boyalardan istifadə edir, lakin yaxmaları göstərmir. | Mənzərə görüntülərinin real və abstrakt təsvirində sulu boyalardan yaxmalar verməklə istifadə edir. |
| İmpressionizm əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini verilmiş nümunə əsasında tanıdığını nümayiş etdirir. | İmpressionizm əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə sadalayır. | İmpressionizm əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin yönəldici sualları əsasında fərqləndirir. | İmpressionizm əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| İmpressionizm üslubunda olan mənzərə janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | İmpressionizm üslubunda verilmiş mənzərə janrının emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | İmpressionizm üslubunda olan mənzərə janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | İmpressionizm üslubunda olan mənzərə janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |



Çap üçün deyil

# 8–9. EDUARD MANE: İMPRESSİONİZMDƏ NATÜRMORT

| | | |
|---|---|---|
| **Məşğələ növü** | naturadan rəsm | |
| **Alt-standart** | 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | |
| **Təlim nəticələri:**<br>• fransız rəssamı Eduard Mane və onun əsərləri haqqında təqdimat edir;<br>• natürmortun real və abstrakt təsvirində quaş, akvarel, pastel təbaşirlərdən istifadə edir;<br>• Eduard Manenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;<br>• impressionizm üslubunda olan natürmort janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Resurslar** | müəllim üçün | natürmort janrında əsərlərdən nümunələr (slayd və ya fotolar), əşyalar, praktik işin ardıcıllığını əks etdirən nümunələr, meyar cədvəli |
| | şagird üçün | dərslik, akvarel, quaş, pastel təbaşirlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərə impressionizm üslubunda yaradılan natürmort əsərlərindəki işıq və kölgənin əhəmiyyətini izah etməkdir. Böyük fransız impressionisti Eduard Manenin yaradıcılığında realist natürmortun inkişafını izləyərək, şagirdlər kompozisiya, işıq və kölgənin rolu haqqında məlumat toplayırlar. Şagirdlər rəngkarlığın bu ifadə vasitələrindən istifadə edərək verilmiş naturadan natürmortun çəkilməsində əşyaların forma, rəng çalarlarını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edirlər.*




**Mövzuya 2 tədris saatı ayrılmışdır. 1-ci saatda mövzu nəzəri cəhətdən tanışlığa və praktik tapşırığın yalnız sadə karandaşla kompozisiyasının qurulmasına, 2-ci saat isə praktik tapşırığın rəng həllinə verilmişdir.**

(A) Müəllim dərsin "motivasiya" mərhələsini dərslikdə **İncəsənətə dair dialoq** blokunda verilmiş sual və ya istənilən vasitələrlə qura bilər.

***Tədqiqat sualları:*** *Eduard Manenin yaradıcılığının və əsərlərinin əsas xüsusiyyətləri nədədir? İmpressionizm üslubunda müxtəlif əşyalardan ibarət natürmortu çəkərkən kompozisiya, işıq-kölgə münasibətlərinin verilməsində hansı bədii ifadə vasitələrini nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

Çap üçün deyil

B Şagirdlər natürmortun yaranması, təsvirində əsas olanları dərsliyin **Xatırlayın** blokunda verilmiş sual əsasında müzakirə edirlər. Müəllim əyani vəsait kimi hazırladığı müxtəlif əşyaları göstərərək, şagirdlərdən onların üzərində işıq-kölgən keçidlərini (blik, işıq, yarımkölgə, xüsusi kölgə, refleks, düşən kölgə) izah etməyi tapşıra bilər.

C Müəllim şagirdlərə XVII əsrdən etibarən natürmortun Avropada müstəqil janr kimi meydana çıxdığı haqqında söhbət açır. Finlandiya  və Niderlandda bu janr xüsusilə çiçəklənərək inkişaf etmiş, daha məzmunlu və parlaq nümunələr yaradılmışdı. Realist natürmort öz inkişafını böyük fransız impressionisti Eduard Manenin yaradıcılığında tapmışdı. O, natürmortlarda kompozisiyanı sadələşdirmək üçün əşyaların sayını azaldırdı. Manenin natürmortlarında o dövr sənətkarlarının çox sevdiyi hədsiz yüklənməyə və yaxud süni çoxmürəkkəbliyə rast gəlmək mümkün deyil.




Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olur, yeni mövzu sərbəst müzakirə edirlər. Natürmortun inkişaf mərhələlərini müəllim Venn diaqramında da əks etdirməklə, şagirdlərdən alınan cavabları orada qeyd edə bilər. İntibah, Orta əsrlər və Yeni dövrə aid fərqli xüsusiyyətlər dairələrin daxilində, oxşar olan xüsusiyyətləri isə 3 dairənin kəsişən hissəsində qeyd edilir.

Mövzunu Ziqzaq üsulu ilə də keçirmək olar. Qruplara natürmortun inkişafı haqqında məlumat verilir. 1-ci "Ekspert" qrupuna Qədim dövr,  2-ci "Ekspert" qrupuna – İntibah dövrü, 3-cü "Ekspert" qrupuna – Orta əsrlər, 4-cü "Ekspert" qrupuna isə Yeni dövrdə natürmort janrında baş vermiş dəyişikliklər haqqında oxuyub, digərlərini də bu məlumatla tanış etmək tapşırıla bilər.

Şagirdlər dərslikdə verilmiş mətni oxuyub, sonra təhlil edə bilərlər. Eduard Manenin natürmortlarındakı bədii ifadə vasitələri və ümumiyyətlə natürmort haqqında bildiklərini Şaxələnmə (Klaster) üsulu vasitəsilə də verə bilərlər.

D **Düşünün və izah edin** blokunda rəssamın natürmortlarında ən çox nəyin nəzərə çarpdığı haqqında fərziyyələr də dinlənilir.

E **Təsviri sənət qalereyası** blokunda Eduard Manenin natürmortlarında kompozisiya, rəng və işıq həlli müzakirə olunur.

F **Görkəmli rəssamlara** dair cədvəldə böyük fransız impressionisti Eduard Manenin yaradıcılığı – həyat xronologiyası verilmişdir.

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Dərslikdə verilmiş hansı natürmortda kompozisiyanın düzgün yerinə yetirildiyi soruşulur. Verilən cavablara əsasən, şagirdlər öz seçimlərini əsaslandırırlar.

**Yaradıcı fəaliyyət**

**2.** 1-ci dərsdə şagirdlər xoşlarına gələn əşyalardan ibarət natürmort çəkirlər. Əşyaları kağız üzərində düzgün yerləşdirmək, üzərinə düşən işığın vəziyyətini və kompozi-



Çap üçün deyil

siya mərkəzini müəyyənləşdirmək tapşırılır. Rəsmin vərəq üzərində kompozisiyasının işləmə variantları dərslikdə **Sənətkar məsləhəti**ndə göstərilmişdir. Əsər üzərində işləyərkən formatın seçimi də vacibdir. Onun müəyyən edilməsi rəssamın nə düşündüyündən asılıdır.

2-ci dərsdə rəsmin impressionizm üslubuna yaxın rəng həlli işlənilir.

**3.** Eduard Manenin yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdimat etmək tapşırılır.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fransız rəssamı Eduard Mane haqqında bəsit məlumat verir. | Fransız rəssamı Eduard Mane və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Fransız rəssamı Eduard Mane və onun əsərləri haqqında verilmiş nümunələr əsasında sadə təqdimat hazırlayır. | Fransız rəssamı Eduard Mane və onun əsərləri haqqında məlumat toplayaraq, təqdimat edir (vərəq və ya müxtəlif kompüter proqramlarında). |
| Natürmortun real və abstrakt təsvirində quaş, akvarel, pastel təbaşirlərdən çətinliklə istifadə edir. | Natürmortun real və abstrakt təsvirində quaş, akvarel, pastel təbaşirlərdən səliqəsiz istifadə edir. | Natürmortun real və abstrakt təsvirində quaş, akvarel, pastel təbaşirlərdən istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Natürmortun real və abstrakt təsvirində quaş, akvarel, pastel təbaşirlərdən sərbəst və düzgün istifadə edir. |
| Eduard Manenin əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Eduard Manenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Eduard Manenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Eduard Manenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| İmpressionizm üslubunda olan natürmort janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | İmpressionizm üslubunda verilmiş natürmort janrını emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | İmpressionizm üslubunda olan natürmort janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | İmpressionizm üslubunda olan natürmort janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |

Çap üçün deyil

# 10–11 . OGÜST RENUAR: İŞIĞA YENİ BAXIŞ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | naturadan rəsm |
| **Alt-standart** | | 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• fransız rəssamı Ogüst Renuar və onun əsərləri haqqında təqdimat edir;<br>• məişət janrının real və abstrakt təsvirində rəngli karandaşlar, pastel təbaşirlər, sulu boyalardan istifadə edir;<br>• Ogüst Renuarın əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;<br>• impressionizm üslubunda olan məişət janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Resurslar** | müəllim üçün | məişət janrında əsərlərdən nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, pastel təbaşirlər, quaş və ya akvarel |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlərə impressionizm dövründə məişət janrı, impressionizmin banilərindən olan Ogüst Renuarın yaradıcılığı haqqında məlumat verilir.*




**Mövzuya 2 tədris saatı ayrılmışdır. 1-ci saatda mövzu nəzəri cəhətdən tanışlığa və praktik tapşırığın yalnız sadə karandaşla kompozisiyasının qurulmasına, 2-ci saat isə praktik tapşırığın rəng həllinə verilmişdir.**

Ⓐ “Motivasiya” mərhələsini tətbiq etmək üçün müəllim dərslikdə verilmiş sualdan və ya rəssamların portret və məişət janrındakı əsərlərini nümayiş etdirərək, onların hansı janrda işlənilməsini soruşa bilər. Janrlar şagirdlər tərəfindən müəyyən edilir.

***Tədqiqat sualları:*** *Ögüst Renuarın yaradıcılığının əsas xüsusiyyətləri nədir?*
*İmpressionizm üslubunda insanın gündəlik həyatına dair rəsm çəkmək üçün nələri nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

Ⓑ **Xatırlayın** blokunda verilmiş sual şagirdlərlə birlikdə müzakirə olunur. Müəllim şagirdlərə 7-ci sinifdə keçdikləri məişət janrı barədə xatırlada bilər.

Ⓒ Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olur, məişət janrının müxtəlif dövrlərdəki əsas xüsusiyyətləri, cəmiyyətdə rolu və belə təsvirlər yaradan rəssamlardan olan

Çap üçün deyil

Renuar haqqında oxuyurlar. Məişət janrına çox qədim nümunələrdə rast gəlinsə də, onun əsas xüsusiyyətləri XIV–XV əsrlərdə yaranmışdır. Lakin XVI əsrdən başlayaraq bir çox Avropa rəssamlarının yaradıcılıq fəaliyyəti nəticəsində o, daha da inkişaf edərək müstəqil janra çevrilmişdi. Məişət janrının sonrakı inkişafı XVIII əsr fransız rəssamlarının yaratdığı gözəl həyat və məişət səhnələri ilə əlaqədar olmuşdur.

Renuar haqqında məlumatlar oxunub, təhlil edilir. Məişət janrının inkişaf mərhələlərini müəllim Venn diaqramında da əks etdirməklə, şagirdlərdən alınan cavabları orada qeyd edə bilər. İntibah, Orta əsrlər və Yeni dövrə aid fərqli xüsusiyyətləri dairələrin daxilində, oxşar xüsusiyyətlər isə 3 dairənin kəsişən hissəsində qeyd edilir.




Mövzunu Ziqzaq üsulu ilə də keçirmək olar. Qruplara məişət janrının inkişafı haqqında məlumat verilir. 1-ci "Ekspert" qrupuna Qədim dövr, 2-ci "Ekspert" qrupuna – İntibah dövrü, 3-cü "Ekspert" qrupuna – Orta əsrlər, 4-cü "Ekspert" qrupuna isə Yeni dövrdə məişət janrında baş vermiş dəyişikliklər haqqında oxuyub, digərlərini də bu məlumatla tanış etmək tapşırıla bilər.

Şagirdlər dərslikdə verilmiş mətni oxuyub, sonra onu təhlil edirlər. Renuarın əsərlərindəki bədii ifadə vasitələri və janr haqqında bildiklərini Şaxələnmə (Klaster) üsulu vasitəsilə də verə bilərlər.

E Dünyanın şən, şux qavranılması, bütövlükdə, impressionizmə xasdır, lakin Ogüst Renuarın yaradıcılığında bu cəhət daha aydın nəzərə çarpır. Onun əsərlərində tez-tez məişət və mənzərə janrları qarışır, təbii işıqla işıqlandırılmış insan fiqurları, adətən, pəncərə önündə, köşkdə və s. bu kimi şəraitdə təsvir olunur. Renuarın **Təsviri sənət qalereyası** blokunda verilmiş əsərləri müzakirə edilir.

D **Düşünün və izah edin** blokunda Renuarın əsərlərində hansı kontrastlıq müşahidə olunduğu təhlil edilir. rəssamın "Avarçəkənlərin səhər yeməyi" əsərinin təhlilini şagirdlər birlikdə şərh edirlər və Renuarın əsərinin digər rəssam tərəfindən yenidən necə canlandırıldığı ilə tanış olurlar.

F **Görkəmli rəssamlar**a dair cədvəldə dünya şöhrətli rəssam və yeni bədii cərəyanlardan olan impressionizmin banilərindən biri kimi tanınan Renuarın həyat xronologiyası verilmişdir. **Bu maraqlıdır** blokunda özünün altmış il davam edən uzun yaradıcılığı boyunca Renuar, təxminən, altı minə yaxın rəsm əsəri yarada bilmişdir. Rəssam qəhrəmanlıq və faciə süjetlərini sevmirdi, onu adi həyatın adi sevincləri maraqlandırırdı.

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Rəssam hansı janrlarda işləmişdir?

**Yaradıcı fəaliyyət**

**2.** İnsanın gündəlik həyatına aid səhnələrin rəsmini çəkmək tapşırılır. Bu, bayram, təntənəli mərasim və ya sadəcə insanın istirahəti də ola bilər.



Çap üçün deyil

1-ci dərsdə mövzunun süjeti karandaşla müəyyən edilir, 2-ci dərsdə isə rəng həlli yerinə yetirilir.

**3.** Şagirdlər Ogüst Renuarın yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdim edirlər.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fransız rəssamı Ogüst Renuar haqqında bəsit məlumat verir. | Fransız rəssamı Ogüst Renuar və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Fransız rəssamı Ogüst Renuar və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Fransız rəssamı Ogüst Renuar və onun əsərləri haqqında təqdimat edir (vərəq və ya müxtəlif kompüter proqramlarında). |
| Məişət janrının real və abstrakt təsvirində rəngli karandaşlar, quaş, akvarel, pastel təbaşirlərdən çətinliklə istifadə edir. | Məişət janrının real və abstrakt təsvirində rəngli karandaşlar, quaş, akvarel, pastel təbaşirlərdən səliqəsiz istifadə edir. | Məişət janrının real və abstrakt təsvirində rəngli karandaşlar, quaş, akvarel, pastel təbaşirlərdən istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Məişət janrının real və abstrakt təsvirində rəngli karandaşlar, quaş, akvarel, pastel təbaşirlərdən sərbəst və düzgün istifadə edir. |
| Ogüst Renuarın əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Ogüst Renuarın əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Ogüst Renuarın əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Ogüst Renuarın əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| İmpressionizm üslubunda olan məişət janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | İmpressionizm üslubunda verilmiş məişət janrının emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | İmpressionizm üslubunda olan məişət janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | İmpressionizm üslubunda olan məişət janrının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |

Çap üçün deyil

# 12. OGÜST RODEN: HEYKƏLTƏRAŞLIQDA HƏRƏKƏT VƏ EMOSİYA

<table>
<tr><td>Məşğələ növü</td><td colspan="2">yapma</td></tr>
<tr><td>Alt-standart</td><td colspan="2">1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2.</td></tr>
<tr><td colspan="3">Təlim nəticələri:<br>• fransız heykəltəraşı Ogüst Roden və onun əsərləri haqqında təqdimat edir;<br>• heykəl, büstün real və abstrakt yapılmasında plastilin və ya gildən istifadə edir;<br>• Ogüst Rodenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;<br>• impressionizm üslubunda olan heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir.</td></tr>
<tr><td>Resurslar</td><td>müəllim üçün</td><td>heykəltəraşlıq nümunələri (slayd və ya fotolar), meyar cədvəli</td></tr>
<tr><td></td><td>şagird üçün</td><td>dərslik, plastilin və ya gil</td></tr>
</table>

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Heykəltəraşlıq əsərlərində ən başlıca rol insan obrazına məxsusdur. İnsan xarakterinin, onun daxili aləminin çatdırılma kəskinliyi və tamlığı Rodenin portret büstlərinə xasdır. Plastikanın yeni imkanlarını kəşf etmiş böyük heykəltəraş, XIX əsrin ən parlaq sənətkarlarından olan Roden heykəltəraşlığın sonrakı inkişafına böyük təsir göstərmişdir. Onun əsərlərində insan vücudunun hərəkəti emosiyalara çevrilir, daha erkən dövr heykəltəraşlığına məlum olmayan fiqurların təbii və sərbəst vəziyyəti insanın daxili həyatının zənginliyini əks etdirir.*



Ⓐ Müəllim **İncəsənətə dair dialoq** blokunda verilmiş suala əsasən impressionist cərəyanına aid bir rəngkarlıq və Rodenin bir heykəltəraşlıq əsərinin fotoşəklini asır və ya slayd vasitəsilə nümayiş etdirərək soruşur:



*Oğüst Roden "Mütəfəkkir". 1880–1882*



*Klod Mone. "Mannport: Etret qayasının tağı". 1883*

– Heykəltəraşlıqda, boyalar olmadan, impressionist rəngkarların yaratdığı təəssürata nail olmaq mümkündürmü? (Şagirdlərin fərziyyələri dinlənilir).

– Çox vaxt deyirlər ki, impressionizm təkcə rəngkarlığa deyil, həm də heykəltəraşlığa yeni həyat verdi. Mane və Mone rəngkarlığı dəyişdirdiyi bir zamanda heykəltəraşlıqda ilk dəyişiklik etmək istəyən isə dahi heykəltəraş Ogüst Roden olmuşdu. Rodenin heykəltəraşlığa gətirdiyi ən əyani impressionizm nümunəsi "Mütəfəkkir" əsəridir. Heykəlin çevik çapılmış səthindəki qabarıq hamarlıqlar və qırışlar üzündən pardaqlanmış bürünc dairə dəyişən parıltını əks etdirir. Bu gün onun yaradıcılığı ilə yaxından tanış olacaqsınız.

***Tədqiqat sualları:*** *Oğüst Rodenin yaradıcılığının əsas xüsusiyyətləri nadir?*
*İmpressionist üslubunda heykəl, büst yapmaq üçün hansı ifadə vasitələrindən istifadə etmək olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

B **Xatırlayın** blokundakı sual müzakirə olunur. Şagirdlər impressionizmə qədər heykəltəraşların əsərlərinin necə göründüyü sualına cavab axtarırlar. Nümunə üçün müəllim müxtəlif heykəlləri foto və ya slaydlarla nümayiş etdirə bilər.

C İnsanın psixoloji və emosional həyatına maraq Rodeni impressionistlərdən fərqləndirirdi. Əsərlərinin bilərəkdən natamamlığı onun haqqında impressionist texnikasını heykəllərdə tətbiq etmiş ilk sənətkarlardan biri barədə danışmağa imkan verir. Rodenin yaratdığı insan obrazları müxtəlifdir.

D Mövzu hissə-hissə oxunub müzakirə olunur. **Düşünün və izah edin** blokundakı sual müzakirə olunur, sonra **Bilirsinizmi?** blokunda maraqlı məlumat təhlil edilir.

E **Təsviri sənət qalereyası** blokunda verilmiş Ogüst Rodenin əsərlərində insan obrazlarında hərəkət və emosiyalar təhlil edilir. Roden üçün hərəkət həyatın heykəldə əsas ifadə forması idi. Roden heykəllərinin daha bir xüsusiyyəti onların emosionallığıdır. Rodenin qəhrəmanları güclü emosiyalar – məhəbbət, ağrı, çarəsizlik saçır və Roden bu vəziyyətlərin inandırıcı əksinə nail olur.

F **Görkəmli rəssamlar**a dair cədvəldə plastikanın yeni imkanlarını kəşf etmiş böyük heykəltəraş, XIX əsrin ən parlaq sənətkarlarından olan Rodenin həyat xronologiyası verilmişdir.

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Şagirdlər Rodenin yaratdığı heykəllərin növlərin (dəyirmi və relyef) və inkişaf sahələrini (monumental, monumental-dekorativ, dəzgah) sadalayırlar.

**Yaradıcı fəaliyyət**

**2.** İmpressionizm üslubunda istənilən heykəl və yaxud büst yapmaq tapşırılır. Yapılmış işin səthini hamarlamamaq, düyün və qabarcıqları olduğu kimi saxlamaq lazımdır. Şagirdlər hərəkət və ya emosiyaları portretdə göstərməyə çalışırlar.

**3.** Şagirdlər Ogüst Rodenin yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdimat edirlər.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.



Çap üçün deyil

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə;
- Plastilin və ya gildən istifadəetmə;
- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fransız heykəltəraşı Ogüst Roden haqqında bəsit məlumat verir. | Fransız heykəltəraşı Ogüst Roden və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Fransız heykəltəraşı Ogüst Roden və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Fransız heykəltəraşı Ogüst Roden və onun əsərləri haqqında təqdimat edir (vərəq və ya müxtəlif kompüter proqramlarında). |
| Heykəl, büstün real və yapılmasında plastilin və ya gildən çətinliklə istifadə edir. | Heykəl, büstün real və yapılmasında plastilin və ya gildən səliqəsiz istifadə edir. | Heykəl, büstün real və yapılmasında plastilin və ya gildən istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Heykəl, büstün real və abstrakt yapılmasında plastilin və ya gildən sərbəst və düzgün istifadə edir. |
| Ogüst Rodenin əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Ogüst Rodenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Ogüst Rodenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Ogüst Rodenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| İmpressionizm üslubunda olan heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | İmpressionizm üslubunda verilmiş heykəltəraşlığın emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | İmpressionizm üslubunda olan heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | İmpressionizm üslubunda olan heykəltəraşlığın xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ № 2) nümunəsi vəsaitin sonunda verilmişdir.**

Çap üçün deyil

# 13–14. VİNSENT VAN QOQ: RƏNG, XƏTT VƏ FORMALARIN EMOSİONAL TƏSİRİ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | naturadan rəsm |
| **Alt-standart** | | 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• Vinsent Van Qoq və onun əsərləri haqqında təqdimat edir;<br>• rəssam əsərinin surətinin real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel və quaşdan istifadə edir;<br>• Vinsent Van Qoqun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;<br>• postimpressionist üslubunda olan təsviri sənətin janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Resurslar** | müəllim üçün | rəssam əsərlərinə aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, pastel təbaşirlər, akvarel və quaş |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Özünəməxsus parlaq yaradıcılıq üslubu ilə seçilən Vinsent Van Qoq rəngkarlıqda fərdi tərzini yaratmışdır. Van Qoqun əsərlərindəki özünəməxsus yaradıcılıq ehtirası, onun ani ekspressiyası və faciəvi pafosu da məhz buradan irəli gəlir. Bütün bunlar Van Qoqun postimpressionizm sənətindəki xüsusi yerini müəyyən etməklə, onu bu cərəyanın başlıca nümayəndəsinə çevirir. Mövzuda şagirdlər postimpressionizm cərəyanının xüsusiyyətləri, rəssamın yaradıcılığı ilə tanış olurlar.*






Çap üçün deyil

**Mövzuya 2 tədris saatı ayrılmışdır. 1-ci saatda mövzu nəzəri cəhətdən tanışlığa və praktik tapşırığın yalnız sadə karandaşla kompozisiyasının qurulmasına, 2-ci saat isə praktik tapşırığın rəng həllinə verilmişdir.**

A Dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş *"Təsviri sənətin müxtəlif növlərində hissləri, emosiyaları hansı vasitələrlə ifadə etmək olar?"* sualı müzakirə edilir.

***Tədqiqat sualları:*** *Vinsent Van Qoqun yaradıcılığında rəng, forma və xəttin rolu nədədir? Postimpressionizm üslubunda olan əsərin surətini yaratmaq üçün nələrə diqqət yetirmək vacib sayılır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

B **Xatırlayın** blokunda verilmiş sual şagirdlərlə birlikdə müzakirə olunur. Müəllim şagirdlərə əvvəlki siniflərdə keçdikləri fırçanın işləmə üsulları barədə xatırlada bilər.

C Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olur, postimpressionist cərəyanının əsas xüsusiyyətləri, cəmiyyətdə rolu və belə təsvirlər yaradan rəssam Van Qoq haqqında oxuyurlar.

Rəssam haqqında məlumatlar oxunub, təhlil edilir. İmpressionizm və postimpressionizm cərəyanlarının oxşar və fərqli xüsusiyyətlərini şagirdlər Venn diaqramı vasitəsilə müqayisə edə bilərlər.




Şagirdlər dərslikdə verilmiş mətni oxuyub, sonra təhlil edirlər. Van Qoqun əsərlərindəki bədii ifadə vasitələri, faktura, sadəlik, dekorativlik onun yaradıcılığının əsas xüsusiyyətlərindən sayılır.

E Rəssamın ən məşhur silsilə əsərlərindən biri günəbaxanlara həsr olunmuşdur. Günəbaxanlar Van Qoq yaradıcılığının rəmzi hesab edilir. Bu çiçək onun üçün xüsusi əhəmiyyət daşıyırdı: sarı rəng dostluğu və ümidi əks etdirirdi.
Rəssam üçün sarı – günəşin rəngi, yetişmiş buğda (bolluq, bərəkət, çörək) və günəbaxanların, gün işığının rəmzinə çevrilmişdi. **Təsviri sənət qalereyası** blokunda verilmiş Vinsent Van Qoqun əsərləri müzakirə edilir.

D **Düşünün və izah edin** blokunda Van Qoqun əsərlərində fırça ilə hansı işləmə üsullarından istifadə edildiyi təhlil edilir. Rəssamın "On beş günəbaxan ilə güldan" əsərinin təhlilini şagirdlər birlikdə şərh edirlər. Qeyri-adi texnikada işlənməsinə baxmayaraq, Van Qoqun təsvir etdiyi portretlər çox zaman insan ruhunun və düşüncəsinin dərkolunma dərinliyi ilə tamaşaçını sarsıdır.

F **Görkəmli rəssamlara** dair cədvəldə dünya şöhrətli rəssam və yeni bədii cərəyanlardan olan postimpressionizmin banilərindən biri kimi tanınan Van Qoqun həyat xronologiyası verilmişdir.
Vinsent Van Qoqun yaradıcılığı haqqında saytda əsərləri və həyatı haqqında maraqlı məlumatlar əldə etmək olar: http://vangogh-world.ru/
**Bu maraqlıdır** blokunda **rəssamın** "Ulduzlu gecə" əsərinin təhlili verilmişdir. Əsər bu



Çap üçün deyil

gün də təkcə rəngkarlıqda deyil, ədəbiyyatda və həm də həyatda yaradıcı insanları ruhlandırmaqda davam edir.

**G Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1. Rəssamın** verilmiş əsərlərində hansı kolorit müşahidə olunur?

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlər Vinsent Van Qoqun əsərlərindən birinin surətini çəkirlər. Təbaşir, akvarel və ya quaşla əsərdəki daha ifadəli formaları, rəng yaxmalarını və cizgiləri göstərməyə çalışırlar. 1-ci dərsdə mövzu karandaşla müəyyən edilir, 2-ci dərsdə isə rəng həlli yerinə yetirilir.

**3.** Şagirdlər Vinsent Van Qoqun yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdimat edirlər.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Vinsent Van Qoq haqqında yönəldici suallarla bəsit məlumat verir. | Vinsent Van Qoq və onun əsərləri haqqında məlumatları çətinliklə izah edir. | Vinsent Van Qoq və onun əsərləri haqqında verilmiş nümunələr əsasında sadə təqdimat hazırlayır. | Vinsent Van Qoq və onun əsərləri haqqında məlumatlar toplayaraq təqdimat edir. |
| Rəssam əsərinin surətinin real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel və quaşdan çətinliklə istifadə edir. | Rəssam əsərinin surətinin real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel və quaşdan səliqəsiz istifadə edir. | Rəssam əsərinin surətinin real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel və quaşdan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Rəssam əsərinin surətinin real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel və quaşdan sərbəst və düzgün istifadə edir. |
| Vinsent Van Qoqun əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Vinsent Van Qoqun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Vinsent Van Qoqun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Vinsent Van Qoqun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| Postimpressionizm üslubunda olan təsviri sənətin janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | Postimpressionizm üslubunda verilmiş təsviri sənətin janrlarının emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | Postimpressionizm üslubunda olan təsviri sənətin janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | Postimpressionizm üslubunda olan təsviri sənətin janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |



Çap üçün deyil

# 15–16. POL QOGEN: RƏNG VƏ XƏTLƏRİN SADƏLƏŞDİRİLMƏSİ. SİMVOLİZM

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | |

**Təlim nəticələri:**
- fransız rəssamı Pol Qogen və onun əsərləri haqqında təqdimat edir;
- simvolik rəsmin real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaşdan istifadə edir;
- Pol Qogenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;
- əsərlərdə simvolizmin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir.

| | | |
|---|---|---|
| **Resurslar** | müəllim üçün | simvolizmə aid nümunələr (slayd və ya foto), meyarlar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Postimpressionizm, primitivizm, simvolizm, modern istiqamətinin ən böyük sənətkarlarından olan Pol Qogen öz təkrarsız bədii dili ilə seçilir. Qogenin tabloları öz səthliyinə, ornamentallığına və rənglərin şuxluğuna görə dekorativ parçaları və müəyyən qədər də Şərq xalqlarının incəsənətini xatırladır. Mövzuda Qogenin yaradıcılığı, əsərlərindəki simvolizm motivləri haqqında məlumat verilir.*










**Mövzuya 2 tədris saatı ayrılmışdır. 1-ci saatda mövzu nəzəri cəhətdən tanışlığa və praktik tapşırığın yalnız sadə karandaşla kompozisiyasının qurulmasına, 2-ci saat isə praktik tapşırığın rəng həllinə verilmişdir.**



Çap üçün deyil

**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda verilmiş rəssamların əsərləri nümayiş etdirilərək, onların nə ilə fərqləndiyi soruşulur. Şagirdlər əsərlərin mövzusunu, koloritini, işlənmə texnikasını müəyyən edirlər.

***Tədqiqat sualları:*** *Pol Qogenin yaradıcılığı nə ilə səciyyələnir? Simvolizm və primitivizm üslubunda rəsmi çəkmək üçün nələri nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokunda verilmiş sual şagirdlərlə birlikdə müzakirə olunur.

**C** Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olur, postimpressionizmin, simvolizmin əsas xüsusiyyətləri, cəmiyyətdə rolu, bu istiqamətdə yaradan rəssam Pol Qogen haqqında oxuyurlar. Qogen forma və xətləri ümumiləşdirib sadələşdirməklə, iri rəngli zolaqları müstəvidə ritmik yerləşdirməklə dəqiq xətlərdən istifadə edirdi. Qəlb və düşüncə dilinin ifadələrinin əsasında bədii əsərin mənasının cəmləşdiyi obraz-rəmzlər dururdu. Məhəbbət, ölüm, iztirab – bu kimi əbədi mövzular yaradıcılıqda simvolizmin əsas motivləridir. Şagirdlər Qogen haqqında məlumatları oxuyub, təhlil edilir. Qogenin əsərlərində şifrələnmiş simvolları Şaxələnmə (Klaster) üsulu vasitəsilə də müzakirə etmək olar.

**E** Qogenin yaradıcılığına həm də primitivizm cəhətləri xasdır. İbtidai incəsənət, Afrika, Okeaniya və Amerika xalqlarının ənənəvi incəsənəti, arxaika, orta əsrlər incəsənəti, həmçinin uşaq yaradıcılığı primitivizmin nümunələri sayılır. **Təsviri sənət qalereyası** blokunda verilmiş Qogenin əsərləri müzakirə edilir.

Rəssamın "Biz haradan gəldik? Biz kimik? Biz hara gedirik?" əsərində şifrələnmiş 15 simvolu şagirdlər birlikdə şərh edirlər.

**D** **Düşünün və izah edin** blokunda Qogenin öz əsərlərində daha çox nəyi təsvir etdiyi təhlil olunur.

**F** **Görkəmli rəssamlar**a dair cədvəldə dünya şöhrətli, simvolizm və modern üslubuna yaxın, postimpressionizmin əsas nümayəndələrindən olan Pol Qogenin həyat xronologiyası verilmişdir. **Bu maraqlıdır** blokunda şagirdlər Somerset Moemin "Ay və qara şahı" əsərinin Pol Qogenin həyatı əsasında yazıldığını öyrənirlər.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1. a)** Verilmiş əsərlərdə hansı cərəyanların əks olunduğu soruşulur. Şagirdlər cavablarını əsaslandırırlar.

**b)** Verilmiş rəmzlərin nəyi bildirdiyini müəyyən edirlər.

**Yaradıcı fəaliyyət**

**2.** Müxtəlif rəmzlərin əks olunduğu süjetli və ya sadə formalı, simvolik rəsm çəkmək tapşırılır. Şagirdlər onların hansı məna daşıdığını və niyə məhz bu rəmzləri çəkdiklərini izah edirlər.

1-ci dərsdə mövzunun süjeti karandaşla müəyyən edilir, 2-ci dərsdə isə rəng həlli yerinə yetirilir.

**3.** Pol Qogenin yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdimat edirlər.

Növbəti dərs üçün dekupaj texnikasında işləniləcək mövzu üçün istənilən lazımsız əşya (plastik boşqab, stəkan, güldan və s.) gətirmək tapşırılır.



Çap üçün deyil

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fransız rəssamı Pol Qogen haqqında bəsit məlumat verir. | Fransız rəssamı Pol Qogen və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Fransız rəssamı Pol Qogen və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Fransız rəssamı Pol Qogen və onun əsərləri haqqında təqdimat edir (vərəq və ya müxtəlif kompüter proqramlarında). |
| Simvolik rəsmin real və abstrakt təsvirində rəngli karandaşlar, quaş, akvarel, pastel təbaşirlərdən çətinliklə istifadə edir. | Simvolik rəsmin real və abstrakt təsvirində rəngli karandaşlar, quaş, akvarel, pastel təbaşirlərdən səliqəsiz istifadə edir. | Simvolik rəsmin real və abstrakt təsvirində rəngli karandaşlar, quaş, akvarel, pastel təbaşirlərdən istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Simvolik rəsmin real və abstrakt təsvirində rəngli karandaşlar, quaş, akvarel, pastel təbaşirlərdən sərbəst və düzgün istifadə edir. |
| Pol Qogenin əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Pol Qogenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Pol Qogenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Pol Qogenin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| Əsərlərdə simvolizmin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | Əsərlərdə simvolizmin emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | Əsərlərdə simvolizmin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | Əsərlərdə simvolizmin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |

Çap üçün deyil

# 17–18. ANRİ MATİS: RƏNGKARLIQDA DEKORATİVLİK, FORMA VƏ RƏNG

### Gündəlik planlaşdırmaya dair dərs nümunəsi

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | dekorativ-tətbiqi fəaliyyət / qarışıq texnika |
| **Alt-standart** | | 1.2.2.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• qarışıq texnikanı xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• fransız rəssamı Anri Matis və onun əsərləri haqqında təqdimat edir;<br>• həyati görüntülərin real və abstrakt təsvirində tuş, sulu boyalar, qarışıq texnikadan istifadə edir;<br>• Anri Matisin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;<br>• təsviri sənətin növ və janrlarında fovizmin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Dərsin tipi** | | induktiv |
| **İnteqrasiya** | | Ə. 2.2.1.; Az-d. 1.1.1.; 1.2.4.; İnf. 3.2.1.; 3.2.3.; Ü-t. 4.1.1; 5.1.1.; C. 3.2.1.; Az-t. 4.1.1.; 5.1.2. |
| **İş formaları** | | cütlərlə, fərdi |
| **İş üsulları** | | müzakirə, BİBÖ, qalereya gəzintisi |
| **Resurslar** | müəllim üçün | rəssam əsərlərindən nümunələr (slayd və ya fotolar), əyani vəsait, praktik işin ardıcıllığını əks etdirən nümunə, meyar cədvəli |
| | şagird üçün | dərslik, quaş, rəngli kağız, karton, şəffaf lak |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərdə rəng uyğunluğunun harmoniyası haqqında təsəvvürün formalaşdırılması, dekorativ rəngkarlığın təkrarolunmaz sənətkarı Anri Matisin yaradıcılığı barədə məlumatlandırmaqdır.*



**Mövzuya 2 tədris saatı ayrılmışdır. 1-ci saatda mövzu nəzəri cəhətdən tanışlığa və dekupaj texnikası ilə əşyaların eskizinin yaradılmasına, 2-ci saat isə təmiz kontrast rənglərdən rəsmin çəkilməsinə verilmişdir.**

## Dərsin gedişi. Motivasiya

(A) Müəllim müxtəlif dövr və üslublara aid portretlər nümayiş etdirir:

– Portretlər bir-birindən nə ilə fərqlənir? (Fərziyyələr)
– Onlara ilk baxışda hansı təəssüratlar yaranır? (Fərziyyələr)
– Tablonun insana təsiri nədən asılıdır? (Rəng, forma və s.)

Çap üçün deyil

1.  2.  3. 

*1. Leonardo da Vinçi. “Mona Liza”. 1503–1519*
*2. Ogüst Renuar. “Lojada”. 1874*
*3. Anri Matis. “Şlyapalı qadın”. 1905*

– Leonardo da Vinçi və Renuar haqqında artıq məlumatınız var. Məşhur fransız rəssamlarından biri də Anri Matisdir. Onun yaradıcılığı ilə yaxından tanış olaq.

– Rəsm salonlarının birində tanınmış rəssamların əsərləri ilə yanaşı, Anri Matisin də “Yaşıl şlyapalı qadın” əsəri nümayiş etdirilir. Portretdən tamaşaçıya yanakı əyləşmiş hündür şlyapalı qadın baxır. Onun asimmetrik üz cizgiləri “vəhşi” boyalarla çəkilmişdir. Təsvir real insana o qədər oxşamırdı ki, onun eybəcər görünməməsi mümkünsüz idi. Matis boyaların “səsini” maksimal gücləndirərək onu absurda gətirib çıxarmışdı. Əsər əvvəllər Avropa rəngkarlığında rast gəlinməyən rəng uyğunluğunun harmoniyası haqqında təsəvvür formalaşdırır. Bu əsər qalmaqallı gurultu qoparır və fovizmin təməlini qoyur. Əgər dahi Leonardo da Vinçi rəngkarlığın əsas möcüzəsi – əşyalara həcm vermək bacarığının olduğunu iddia edirdisə, Matis isə əksinə, hər şeyi səthə çevirir. Belə ki, Matis rəngkarlıqda dərinliyi yox edir.

***Tədqiqat sualları:*** *Dekupaj texnikası haqqında nə bilirsiniz? Dekupaj texnikasında əşyaya tərtibat vermək üçün nələri bilmək vacibdir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**Tədqiqatın aparılması**

**B** **Xatırlayın** blokunda verilmiş suala əsasən şagirdlər təmiz rəngləri sadalayırlar. Təmiz – rəng dairəsində bütün əsas rənglər (qırmızı, sarı, göy) və onların çalarlarıdır.

**C** Şagirdlər yeni mövzu ilə tanış olurlar. XIX əsrin sonu – XX əsrin əvvəlində fransız rəngkarlığında yaranmış fovizm cərəyanı, onun cəmiyyətdə rolu, xarakterik xüsusiyyətləri haqqında məlumat alırlar. Fovistlər yalnız təmiz və kontrast rənglərdən istifadə edir, prinsipial olaraq kölgədən imtina edirdilər. Onlar öz rəngkarlıqlarına reallıq illüziyası vermək istəmirdilər. Fovizm üçün işıq-kölgə və xətt perspektivindən imtina etməklə formanın sadələşdirilməsi səciyyəvi sayılırdı.

Müəllim BİBÖ cədvəlində üslublar haqqında şagirdlərin bildiklərini və bilmək istədiklərini qeyd edir.

Çap üçün deyil

| Üslublar | Bilirik | İstəyirik biləк | Öyrəndik |
|---|---|---|---|
| Renessans | | | |
| İmpressionizm | | | |
| Fovizm | | | |

Tapşırığı Venn diaqramı və Şaxələnmə (Klaster) vasitəsilə də etmək olar.

Matisin yaradıcılığı şagirdlər tərəfindən təhlil edilir. Matis məşhur rəssam olduqdan sonra fovizm tarixində onun təsviri sənətin mühüm üslubu kimi doğulub təşəkkül tapmasında əsl inqilab etdi. Onun əsərlərində rəng formadan o qədər üstün idi ki, rəngi onun əsərlərinin əsl məzmunu saymaq olardı. Renessans və impressionizm haqqında, demək olar ki, şagirdlər məlumatlıdırlar. Dərsin sonunda onlar fovizm cərəyanı haqqında öyrəndiklərini də müəllimlə cədvələ qeyd edirlər.

E **Təsviri sənət qalereyası** blokunda verilmiş Matisin əsərləri təhlil edilir. Matis yaradıcılığına islam incəsənəti güclü təsir etmişdi. Eskizlərin yaradılma prosesində Matis rəngli kağızlardan kəsmə texnikasından – “dekupaj”dan istifadə etməyə başlamışdı. Şagirdlər dekupaj texnikasının müxtəlif əşyaların səthində şəkil, rəsm və yaxud ornamentin əşyaya yapışdırılmasına əsaslanan və alınmış kompozisiyanın effektli və uzunömürlü olması üçün lak ilə örtülən dekor – bəzək texnikası olduğunu öyrənirlər.

D **Düşünün və izah edin** blokunda rəssam öz əsərlərində nə demək istədiyi, bunun necə başa düşüldüyü soruşulur.

F **Görkəmli rəssamlar**a dair cədvəldə fovizm cərəyanının məşhur nümayəndəsi Anri Matisin yaradıcılığı haqqında məlumat – həyat xronologiyası verilmişdir. Matisin tərəfdarlarından heç kim onun kimi əsərin bütün elementlərinin dolğun kompozisiya və dekorativ tabeliyinə nail olmağı bacarmadı. O, dekorativ rəngkarlığın təkrarolunmaz sənətkarı olaraq qalır.

## G Sərbəst iş üçün tapşırıqlar

### Müəyyən edin

**1.** Dərslikdə verilmiş əsər təhlil edilir. rəssamın bütün əsərlərində yastı formalara necə nail olduğu müəyyən edilir.

**2.** 1-ci dərsdə dekupaj texnikasında əşyaya tərtibat verərək bəzəmək tapşırılır. Dərslikdə verilmiş nümunələrdən istifadə oluna bilər. Tapşırığı cütlükdə yerinə yetirilməsi məqsədəuyğundur.

2-ci dərsdə təmiz kontrast rənglərdən istifadə edərək, əlvan koloritli rəsm çəkilir.

### Məlumat mübadiləsi

Hər cütlük dekupaj texnikasında yaratdığı işləri lövhənin qarşısına düzür. Şagirdlər qalereya gəzintisi üsulu ilə işlərə diqqətlə baxırlar.

### Məlumatın müzakirəsi və təşkili

– Matis haqqında nə öyrəndiniz? Eskizləri hansı ardıcıllıqla işlədiniz?

## H Ümumiləşdirmə və nəticə

– Hansı xüsusiyyətlər fovizmi impressionizmdən fərqləndirir?
– Matisin yaradıcılığı incəsənətin inkişafına necə təsir göstərdi?



Çap üçün deyil

## Yaradıcı tətbiqetmə

**3.** Anri Matisin yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdimat etmək, yaxud bir əsərinə esse yazmaq tapşırıla bilər.

## Qiymətləndirmə

Müəllim cütlüklərin *dərəcələr üzrə qiymətləndirməsindən* istifadə edir.

| Cütlər | Meyarlar | | | | | Nəticə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| № | Qarışıq texnikanı xarakterik xüsusiyyətlərinə görə şərh edir | Fransız rəssamı Anri Matis və onun əsərləri haqqında təqdimat edir | Həyati görüntülərin real və abstrakt təsvirində tuş, sulu boyalar, qarışıq texnikadan istifadə edir | Anri Matisin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir | Təsviri sənətin növ və janrlarında fovizmin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir | IV səviyyə (Əla) | III səviyyə (Yaxşı) | II səviyyə (Orta) | I səviyyə (Zəif) |
| *1-ci* | + | + | + | + | + | + | | | |
| *2-ci* | + | + | + | - | + | | + | | |
| *3-cü* | + | - | + | - | + | | | + | |
| *4-cü və s.* | + | - | - | - | + | | | | + |

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ № 3)**
**nümunəsi vəsaitin sonunda verilmişdir.**

Çap üçün deyil

# 3. AZƏRBAYCAN SƏNƏTKARLARI




19. Böyükağa Mirzəzadə: füsunkar rənglər dünyası
20. Fuad Əbdürrəhmanov: dəzgah və monumental heykəltəraşlıq
21. Tokay Məmmədov: monumental heykəltəraşlıqda forma, material və məkan
22. Sadıq Dadaşov: Azərbaycan memarlığında milli və müasir elementlər
23. Toğrul Nərimanbəyov: monumental rəngkarlıq
24. Eldar Mikayılzadə: xalçalarda fəlsəfi fikrin təcəssümü
25–26. İdeya, funksiya, rahatlıq: insanın əşyalar aləmi
27. Dünya muzeyləri: impressionizmin ruhu

Çap üçün deyil

# 19. BÖYÜKAĞA MİRZƏZADƏ: FÜSUNKAR RƏNGLƏR DÜNYASI

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | |
| **Təlim nəticələri:**<br>• Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir;<br>• Azərbaycanın görkəmli rəssamı Böyükağa Mirzəzadə və onun əsərləri haqqında təqdimat edir;<br>• həyati görüntülərin real və abstrakt təsvirində akvarel və ya quaşdan istifadə edir;<br>• Böyükağa Mirzəzadənin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;<br>• rəngkarlıq əsərlərinin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Resurslar** | müəllim üçün | rəssam əsərlərindən nümunələr (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, akvarel və ya quaş, pastel təbaşirlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda Azərbaycan milli rəngkarlıq məktəbinə Avropa ruhunu gətirən, onun daha da zənginləşməsinə nail olan, XX əsrin yetirdiyi görkəmli rəssam Böyükağa Mirzəzadə və onun yaradıcılığı haqqında söhbət açılır.*




**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda Edqar Deqanın “Mavi geyimli rəqqasələr” və Böyükağa Mirzəzadənin “Rəqqasələr” əsərləri verilmişdir. Şagirdlər müxtəlif dövrlərdə və eyni üslubda yaranmış əsərlərin oxşar xüsusiyyətlərini araşdırırlar.

***Tədqiqat sualları:*** *İmpressionizm üslubu Böyükağa Mirzəzadənin sənətinə necə təsir etmişdir? İstənilən janrda rəsm çəkmək üçün janrın hansı əsas xüsusiyyətləri nəzərə alınır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** bloku təhlil olunur. Şagirdlər impressionizm üslubu üçün səciyyəvi olan cəhətləri müzakirə edirlər.

**C** Görkəmli fırça ustası Böyükağa Mirzəzadə klassik ənənələrlə müasir rəngkarlıq üslublarını birləşdirərək Avropa rəngkarlığını böyük məharətlə Azərbaycan təsviri sənətinə uzlaşdırmışdır. Şagirdlər rəssam haqqında maraqlı faktlarla tanış olur, dərslikdə verilmiş mətn vasitəsilə yeni informasiya əldə edirlər.

Çap üçün deyil

Müəllim şagirdlərin hər birinə dərslikdəki mövzunun əvvəlcədən çıxarılmış surətini paylayır və onlara tapşırır ki, İQS vasitəsilə mətni aşağıda verilmiş xüsusi işarələrlə oxusunlar:
"+" – yeni informasiyadır; "–" – bildiyimə ziddir; "?" – qarışıq informasiyadır;
"!" – əvvəl bilirdim.

Şagirdlər Böyükağa Mirzəzadə haqqında mətni oxuyur və verilmiş işarəli cədvəldə qeyd edirlər. Bunun üçün yeni və qarışıq informasiyanı, bildikləri və bilmədiklərini cədvəldə müvafiq hissədə qeyd edirlər.

Böyükağa Mirzəzadənin natürmortları, mənzərə lövhələri, portretləri özünəməxsus kompozisiya həlli və koloriti ilə diqqəti cəlb edir. Şagirdlər həm də B.Mirzəzadənin teatr rəssamı kimi bir çox tamaşalara bədii tərtibatlar hazırladığını da öyrənirlər.

D **Düşünün və izah edin** bloku da şagirdlərlə müzakirə edilir, rəssamın əsərlərindəki işıq-kölgə keçidləri haqqında bildiklərini söyləyirlər.

Mətni mənimsəmək üçün BİBÖ cədvəlindən də istifadə etmək olar.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

E B.Mirzəzadənin **Təsviri sənət qalereyası** blokunda verilmiş əsərləri təhlil edilir. Kompozisiya aydınlığı, işıq-kölgə həllinin təsiri, kolorit zənginliyi, impressionist ənənələrə hədsiz maraq rəssamın yaradıcılığının ən səciyyəvi xüsusiyyətləridir.

F **Görkəmli rəssamlar**a dair cədvəldə Azərbaycanın görkəmli nümayəndəsi B.Mirzəzadənin yaradıcılığı haqqında məlumat – həyat xronologiyası verilmişdir.

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** B.Mirzəzadənin əsərlərində hansı koloritin müşahidə olunduğu soruşulur.

**Yaradıcı fəaliyyət**

2. Müəllim şagirdləri dörd qrupa bölərək, hər birinə təsviri sənətin bir janrında rəsm çəkmək tapşırır. I qrup – şəhər mənzərəsi, II qrup – güllərlə natürmort, III qrup – tanınmış şəxsin portretini, IV qrup – yurdumuzun təbii sərvətləri və ya tarixi abidələrini əks etdirən mövzularda çəkir.

**3.** Böyükağa Mirzəzadənin yaradıcılığı haqqında əlavə məlumat toplayır və təqdimat edirlər.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimetmə;
- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə.

Çap üçün deyil

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi çətinliklə təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi müəllimin köməyi və sualları əsasında təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edərkən kiçik qeyri-dəqiqliyə yol verir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir. |
| Azərbaycanın görkəmli rəssamı Böyükağa Mirzəzadə haqqında bəsit məlumat verir. | Azərbaycanın görkəmli rəssamı Böyükağa Mirzəzadə və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Azərbaycanın görkəmli rəssamı Böyükağa Mirzəzadə və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Azərbaycanın görkəmli rəssamı Böyükağa Mirzəzadə və onun əsərləri haqqında təqdimat edir. |
| Həyati görüntülərin real və abstrakt təsvirində akvarel və ya quaşdan çətinliklə istifadə edir. | Həyati görüntülərin real və abstrakt təsvirində akvarel və ya quaşdan səliqəsiz istifadə edir. | Həyati görüntülərin real və abstrakt təsvirində akvarel və ya quaşdan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Həyati görüntülərin real və abstrakt təsvirində akvarel və ya quaşdan sərbəst və düzgün istifadə edir. |
| Böyükağa Mirzəzadənin əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Böyükağa Mirzəzadənin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Böyükağa Mirzəzadənin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Böyükağa Mirzəzadənin əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| Rəngkarlıq əsərlərinin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | Rəngkarlıq əsərlərinin emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | Rəngkarlıq əsərlərinin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | Rəngkarlıq əsərlərinin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |



Çap üçün deyil

# 20. FUAD ƏBDÜRRƏHMANOV: DƏZGAH VƏ MONUMENTAL HEYKƏLTƏRAŞLIQ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | yapma |
| **Alt-standart** | | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:** • Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir; • Azərbaycanın görkəmli rəssamı Fuad Əbdürrəhmanov və onun əsərləri haqqında təqdimat edir; • tanınmış şəxsin real yapılmasında plastilin, gil və ya gipsdən istifadə edir; • Fuad Əbdürrəhmanovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir; • heykəltəraşlıq əsərlərinin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Resurslar** | müəllim üçün | heykəltəraşlığa aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, plastilin, gil və ya gips |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda Azərbaycan heykəltəraşlıq məktəbinin ilk nümayəndəsi və bu məktəbin əsasını qoymuş görkəmli heykəltəraş, Xalq rəssamı Fuad Əbdürrəhmanovun yaradıcılığının səciyyəvi xüsusiyyətləri haqqında məlumat verilmişdir.*




**A** Dərsliyin **İncəsənətə dair dialoq** blokunda monumental və dəzgah heykəltəraşlığı nümunələrinə hansı məsafədən baxıldığı soruşulur. Onları bir-birindən fərqləndirən xüsusiyyətlər müzakirə edilir.

**_Tədqiqat sualları:_** *Fuad Əbdürrəhmanovun yaradıcılığının səciyyəvi xüsusiyyətləri hansılardır? Relyef texnikasında portreti hansı materiallardan və necə hazırlamaq olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokundakı sual təhlil olunur. İrifiqurlu kompozisiyalar, atlı heykəllər, xatirə-memorial ansamblları, relyeflər, görkəmli şəxslərə həsr olunmuş abidələr hansı heykəltəraşlıq sahəsinə aid edilir? Dəzgah heykəltəraşlığına aid olanlar hansılardır?

**C** Dərslikdə şagirdlər Xalq rəssamı Fuad Əbdürrəhmanovun yaradıcılığı haqqında məzmunla tanış olurlar.



Çap üçün deyil

F.Əbdürrəhmanov dəzgah və monumental heykəltəraşlıq sahəsində bir çox uğurlu əsərlər yaratmışdır. F.Əbdürrəhmanov yaradıcılığa portret janrı ilə başlamış, Koroğlu, Babək və Cavanşirin barelyeflərini yaratmışdır.

**D** **Düşünün və izah edin** blokunda F.Əbdürrəhmanovun əsərləri heykəltəraşlığın hansı növünə (dəyirmi və ya relyef) və sahəsinə (monumental, monumental-dekorativ və ya dəzgah) aid olduğu müzakirə edilir.

**E** F.Əbdürrəhmanovun **Təsviri sənət qalereyası** blokunda verilmiş əsərləri təhlil olunur. Geniş yaradıcılıq diapazonuna malik F.Əbdürrəhmanov elm və mədəniyyət xadimlərinin, müharibə və əmək qəhrəmanlarının surətlərini canlandıran heykəl qalereyası yaradıb. F.Əbdürrəhmanov qəhrəmanının fərdi xarakterik cizgilərini, onun portret xüsusiyyətlərini öyrənmək məqsədilə müxtəlif vasitə və üsullardan, bədii ədəbiyyatdan və s. məharətlə istifadə etmişdir.

**F** **Görkəmli rəssamlar**a dair cədvəldə Azərbaycanın görkəmli nümayəndəsi F.Əbdürrəhmanovun yaradıcılığı haqqında məlumat – həyat xronologiyası verilmişdir.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** “Heykəl”, “barelyef”, “abidə”, “monumental”, “dəzgah” anlayışları arasında fərq nədədir? F.Əbdürrəhmanovun əsərləri hansı heykəltəraşlıq növünə və sahəsinə aiddir?

**Yaradıcı fəaliyyət**

**2.** Xalq qəhrəmanı, əsgər, şair və ya digər tanınmış şəxslərdən birinin relyef texnikasında portretini yaratmaq tapşırılır. İşə başlamadan öncə yaradılacaq relyefin vərəq üzərində eskizi cızılır. Sonra karton və ya faner üzərinə qalın lay plastilin və ya gil yayılır. Səthin üzərində portret rəsmi çəkilir. Heykəltəraş bıçağı ilə portretin kənar xətlərindən başlayaraq ətrafa doğru artıq səth götürülür. Nəticədə portret qabardılmış şəkildə ön plana çıxacaq. Sonra portret üzərində iş davam etdirilir.

**3.** Fuad Əbdürrəhmanovun yaradıcılığı haqqında əlavə məlumat toplayaraq təqdimat edilir.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimetmə;
- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi çətinliklə təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi müəllimin köməyi və sualları əsasında təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edərkən kiçik qeyri-dəqiqliyə yol verir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir. |

Çap üçün deyil

| | | | |
|---|---|---|---|
| Azərbaycanın görkəmli rəssamı Fuad Əbdürrəhmanov haqqında bəsit məlumat verir. | Azərbaycanın görkəmli rəssamı Fuad Əbdürrəhmanov və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Azərbaycanın görkəmli rəssamı Fuad Əbdürrəhmanov və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Azərbaycanın görkəmli rəssamı Fuad Əbdürrəhmanov və onun əsərləri haqqında təqdimat edir. |
| Tanınmış şəxsin real yapılmasında plastilin, gil və ya gipsdən çətinliklə istifadə edir. | Tanınmış şəxsin real yapılmasında plastilin, gil və ya gipsdən səliqəsiz istifadə edir. | Tanınmış şəxsin real yapılmasında plastilin, gil və ya gipsdən istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Tanınmış şəxsin real yapılmasında plastilin, gil və ya gipsdən sərbəst və düzgün istifadə edir. |
| Fuad Əbdürrəhmanovun əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Fuad Əbdürrəhmanovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Fuad Əbdürrəhmanovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Fuad Əbdürrəhmanovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| Heykəltəraşlıq əsərlərinin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | Heykəltəraşlıq əsərlərinin emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | Heykəltəraşlıq əsərlərinin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | Heykəltəraşlıq əsərlərinin xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |

## 21. TOKAY MƏMMƏDOV: MONUMENTAL HEYKƏLTƏRAŞLIQDA FORMA, MATERİAL VƏ MƏKAN

| | | |
|---|---|---|
| **Məşğələ növü** | yapma | |
| **Alt-standart** | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | |

**Təlim nəticələri:**
- Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir;
- Azərbaycanın görkəmli rəssamı Tokay Məmmədov və onun əsərləri haqqında təqdimat edir;
- dəyirmi heykəltəraşlığın yapılmasında plastilin, gildən istifadə edir;
- Tokay Məmmədovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;
- heykəltəraşlıq növünün xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir.

| | | |
|---|---|---|
| **Resurslar** | müəllim üçün | heykəltəraşlığa aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, plastilin, gil |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlər Azərbaycanın görkəmli sənətkarı, heykəltəraş Tokay Məmmədovun yaradıcılığı haqqında məlumatla tanış olurlar. Heykəltəraşın yaratdığı portretlər qalereyasında mərmər, tunc, gips, ağac materiallardan insanın xarici görünüşü ilə yanaşı, daxili psixoloji keyfiyyətləri də portretlərdə yer almışdır.*

Çap üçün deyil



Ⓐ Dərsliyin **İncəsənətə dair dialoq** blokunda monumental və ya dəzgah heykəllər üçün ən vacib sayılan xüsusiyyətlərin hansılar olduğu soruşulur.

***Tədqiqat sualları:*** *Tokay Məmmədovun yaradıcılığı nə ilə bağlıdır? Müxtəlif heykəltəraşlıq materiallarından yaradılan portretlərin fərqi nədədir? Dəyirmi heykəltəraşlığa aid nümunənin yapılmasında nəyi nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

Ⓑ **Xatırlayın** blokundakı sual təhlil olunur. Heykəllər hansı materiallardan yaradılır? Materialın, məkanın seçiminin nədən asılı olduğu müzakirə edilir.

Ⓒ Tokay Məmmədovun yaratdığı bir-birindən dəyərli sənət əsərlərinə paytaxtın küçələrində rast gəlmək olar. Heykəltəraşın yaradıcılığı monumental heykəllərlə zəngindir. Monumentallıq səciyyəsi daşıyan əsərlər nəhəng, ifadəli plastik formaya bürünmüş ictimai əhəmiyyət daşıyan məzmunu ilə fərqlənir.

Şagirdlər mövzu ilə “Ziqzaq” üsulundan da istifadə edərək tanış ola bilərlər. Müəllim hər “Ekspert” qrupuna heykəltəraşlıq materialına görə qranit, mərmər, tunc, ağac haqqında məlumat toplamağı tapşıra bilər.

Ⓓ Şagirdlər **Düşünün və izah edin** blokundakı sualı da cavablandırırlar.

Ⓔ T.Məmmədovun **Təsviri sənət qalereyası** blokunda verilmiş monumental heykəl əsərləri təhlil edilir.

Ⓕ **Görkəmli rəssamlar**a dair cədvəldə Azərbaycanın tanınmış nümayəndəsi T.Məmmədovun yaradıcılığı haqqında məlumat – həyat xronologiyası verilmişdir.

Ⓖ **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** “Heykəllərin materialına görə işləmə texnikası hansılardır?” sualı cavablandırılır.

**Yaradıcı fəaliyyət**

**2.** Dəyirmi heykəltəraşlığa aid nümunə yaratmaq tapşırılır.

**3.** Tokay Məmmədovun yaradıcılığı haqqında əlavə məlumat toplayıb təqdim etmək tapşırılır.

Ⓗ Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.



Çap üçün deyil

*Qiymətləndirmə meyarları:*

- Təqdimetmə;
- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi çətinliklə təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi müəllimin köməyi və sualları əsasında təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edərkən kiçik qeyri-dəqiqliyə yol verir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir. |
| Azərbaycanın görkəmli rəssamı Tokay Məmmədov haqqında bəsit məlumat verir. | Azərbaycanın görkəmli rəssamı Tokay Məmmədov və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Azərbaycanın görkəmli rəssamı Tokay Məmmədov və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Azərbaycanın görkəmli rəssamı Tokay Məmmədov və onun əsərləri haqqında təqdimat edir (vərəq və ya müxtəlif kompüter proqramlarında). |
| Dəyirmi heykəltəraşlığın yapılmasında plastilin, gildən çətinliklə istifadə edir. | Dəyirmi heykəltəraşlığın yapılmasında plastilin, gildən səliqəsiz istifadə edir. | Dəyirmi heykəltəraşlığın yapılmasında plastilin, gildən istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Dəyirmi heykəltəraşlığın yapılmasında plastilin, gildən sərbəst və düzgün istifadə edir. |
| Tokay Məmmədovun əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Tokay Məmmədovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Tokay Məmmədovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Tokay Məmmədovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| Heykəltəraşlıq növünün xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | Heykəltəraşlıq növünün emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | Heykəltəraşlıq növünün xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | Heykəltəraşlıq növünün xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |



Çap üçün deyil

# 22. SADIQ DADAŞOV: AZƏRBAYCAN MEMARLIĞINDA MİLLİ VƏ MÜASİR ELEMENTLƏR

| | | |
|---|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm | |
| **Alt-standart** | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1.; 3.1.2. | |
| **Təlim nəticələri:** • Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir; • Azərbaycanın görkəmli memarı Sadıq Dadaşov və onun əsərləri haqqında təqdimat edir; • memarlıq tikilisinin real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, rəngli qələmlərdən istifadə edir; • Sadıq Dadaşovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir; • memarlığın xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Resurslar** | müəllim üçün | memarlıq nümunələri (slayd və ya fotolar), meyar cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, flomasterlər, rəngli qələmlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlər Azərbaycan sovet memarlığının əsasını qoyanlardan biri, ali memarlıq təhsili almış ilk azərbaycanlı memar Sadıq Dadaşovun məşhur əsərləri ilə tanış olurlar.*




Ⓐ Dərsliyin **İncəsənətə dair dialoq** blokunda ötən illərlə müqayisədə Azərbaycan memarlığında hansı müasir dəyişikliklərin baş verdiyi müzakirə edilir.

**Tədqiqat sualları:** *Sadıq Dadaşov yaratdığı memarlıq nümunələrində hansı ənənələri gözləmişdir? Tikilinin eskizinin işlənilməsində forma, konstruksiya, obrazın rolu nədən ibarətdir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

Ⓑ **Xatırlayın** bloku müzakirə olunur. Azərbaycanın hansı memarlıq məktəblərinin tanış olduqları soruşulur. Şagirdlər misallar gətirirlər.

Ⓒ Şagirdlər dərslikdə verilmiş memarlıq nümunələri, onların xüsusiyyətləri, cəmiyyətdə rolu haqqında müzakirə edirlər. Yeni mövzu ilə tanış olmaq üçün mətn bloklara uyğun ayrılır və fasilələrlə oxu üsulundan istifadə edilir.

Müəllim bu dərsdə "Dəyirmi masa" (Karusel) üsulundan da istifadə edə bilər. Bu üsul şagirdlərin memarın layihələndirdiyi məşhur memarlıq tikililəri haqqında bilikləri



Çap üçün deyil

təkrarlamağa kömək edər. 3 qrupun hər biri iri vərəqdə dərslikdə verilmiş “Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyi”ni, “Nizami” kinoteatrı, “Azərbaycan Respublikası Nazirlər Kabineti”ni haqqında bildiklərini qeyd edirlər. Hər vərəq bir qrupa verilir. Qruplar tikililər haqqında bildiklərini yazıb digər qrupa ötürürlər. Sonda hər rəssam haqqında qruplar tərəfindən yazılmış məlumat toplanır və oxunur.

E **Memarlıq qalereyası** blokunda memarlar Sadıq Dadaşov və Mikayıl Useynovun müxtəlif illərdə layihələndirdikləri birgə işləri verilmişdir.

D **Düşünün və izah edin** blokunda tikililərin oxşar cəhəti təhlil edilir.

F **Görkəmli rəssamlar**a dair cədvəldə XX əsrdə Azərbaycan memarlığını zənginləşdirmiş, onun tarixində silinməz izlər qoymuş Sadıq Dadaşovun həyat xronologiyası verilmişdir.

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1.** Memarın əsərlərində forma və konstruksiyanın binanın xarici görünüşünə nə kimi əhəmiyyəti olduğu soruşulur.

**Yaradıcı fəaliyyət**

**2.** Müasir məktəb binası, yaşayış evi və yaxud kinoteatrın eskizlərini çəkin. Binanın hansı məqsədlə layihələndirildiyini nəzərə alaraq, onun üçün qeyri-adi forma düşünün.

**3.** Sadıq Dadaşovun yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdimat etmək tapşırılır.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimetmə;
- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi çətinliklə təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi müəllimin köməyi və sualları əsasında təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edərkən kiçik qeyri-dəqiqliyə yol verir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir. |
| Azərbaycanın görkəmli memarı Sadıq Dadaşov haqqında bəsit məlumat verir. | Azərbaycanın görkəmli memarı Sadıq Dadaşov və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Azərbaycanın görkəmli memarı Sadıq Dadaşov və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Azərbaycanın görkəmli memarı Sadıq Dadaşov və onun əsərləri haqqında təqdimat edir (vərəq və ya müxtəlif kompüter proqramlarında). |

Çap üçün deyil

| | | | |
|---|---|---|---|
| Memarlıq tikilisinin real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, rəngli qələmlərdən çətinliklə istifadə edir. | Memarlıq tikilisinin real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, rəngli qələmlərdən səliqəsiz istifadə edir. | Memarlıq tikilisinin real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, rəngli qələmlərdən istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Memarlıq tikilisinin real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, rəngli qələmlərdən istifadə edir. |
| Sadıq Dadaşovun əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Sadıq Dadaşovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Sadıq Dadaşovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Sadıq Dadaşovun əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| Memarlığın xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | Memarlığın emosional təsir imkanlarını qruplaşdıraraq şərh edir. | Memarlığın xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək şərh edir. | Memarlığın xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. |

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ № 4)**
**nümunəsi vəsaitin sonunda verilmişdir.**

Çap üçün deyil

# 23. TOĞRUL NƏRİMANBƏYOV: MONUMENTAL RƏNGKARLIQ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart** | | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir;<br>• Azərbaycanın görkəmli rəssamı Toğrul Nərimanbəyov və onun əsərləri haqqında təqdimat edir;<br>• pannonun yaradılmasında sulu boyalardan istifadə edir;<br>• T.Nərimanbəyovun monumental rəngkarlıq əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. | | |
| **Resurslar** | müəllim üçün | rəssamın əsərlərinə aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, boyalar, vatman |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzu rəngkarlıq sənətinin ən tanınmış nümayəndələrindən biri, rəngkar, monumentalçı və teatr rəssamı kimi öz fitri istedadı sayəsində mədəniyyətimizin inkişafına dəyərli töhfələr verən görkəmli rəssam Toğrul Nərimanbəyovun yaradıcılığı haqqındadır.*



(A) Dərsə **İncəsənət dair dialoq** blokunda verilmiş sualla müraciət edərək başlamaq olar.

– Azərbaycanın hansı dünya şöhrətli rəssamı öz yaradıcılığında nar təsvirlərinə, kompozisiyalarına geniş yer ayırmışdır?



– T.Nərimanbəyovun əsərlərinin hamısı Azərbaycan xalqının milli xüsusiyyətlərini, adət-ənənələrini, məişət tərzini, psixologiyasını özündə qabarıq əks etdirmək baxımından çox qiymətlidir. Onun tablolarında gah İçərişəhərin qədim, dar və sirli küçələrini, tarixi abidələrini, gah Xəzərin şahə qalxan dalğalarını, Azərbaycanın, digər ölkə və şəhərlərin füsunkar mənzərələrini görmək olar. O, narı elə çəkdi ki, bu nemətdən dadanların da, dadmayanların da ağzı sulandı, dodağı çatladı. O, narı elə təqdim etdi ki, bu yumruq boyda meyvənin timsalında vətəni göstərə bildi.

***Tədqiqat sualları:** T.Nərimanbəyovun yaradıcılığı nə ilə səciyyəvi idi? Kollektiv pannonu yaratmaq üçün hansı mərhələlərə əməl etmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.



Çap üçün deyil

**B** **Xatırlayın** blokunda verilən suala müraciət olunur. Memarlıqda divarı, döşəməni və tavanı bəzəyən rəngkarlıq növünün necə adlandığı müzakirə edilir.
**C** Yeni mövzunu mənimsəmək üçün BİBÖ üsulu tətbiq edilə bilər.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

Müəllim şagirdlərdən rəngkarlıq texnikaları haqqında bildiklərini soruşub cədvəlin 1-ci “Bilirik” hissəsinə yazır. Sonra bu haqda nə öyrənmək istədiklərini soruşur və meydana gələn sualları cədvəlin “İstəyirik bilək” hissəsinə yazır. Şagirdlər dərslikdəki məlumatla tanış olurlar. Sonra cədvəlin 3-cü hissəsinə “Öyrəndik” sözü əlavə edilir və oraya şagirdlərin öyrəndikləri yazılır. Şagirdlər Azərbaycan incəsənətinin zəngin ənənələrindən qidalanan və bənzərsiz üslubu ilə səciyyələnən sənətkarın yaradıcılığı ilə tanış olurlar.
**E** **Təsviri sənət qalereyası** blokunda T.Nərimanbəyovun bədii monumental rəngkarlıq işləri verilmişdir. Rəssam divar rəssamlığına üz tutmasını artıq kətanın onun fantaziyasına darısqallıq etdiyini duyması ilə izah edir. O, sonralar da divar rəssamlığına müraciət edərək unikal sənət nümunələri yaradıb. T.Nərimanbəyov bir çox teatr səhnələrinin və bayram təntənələrinin, dekorativ səhnə əsərlərinin müəllifi kimi də tanınır.
**D** **Düşünün və izah edin** blokunda şagirdlər Toğrul Nərimanbəyovun digər siniflərdə tanış olduqları başqa əsərlərini də xatırlayır, janrı haqqında danışırlar.
**F** **Görkəmli rəssamlar**a dair cədvəldə mahir rəngkar, monumentalist və teatr rəssamı kimi öz fitri istedadı sayəsində mədəniyyətimizin inkişafına dəyərli töhfələr vermiş T.Nərimanbəyovun həyat xronologiyası verilmişdir.
**G** **Sərbəst iş üçün tapşırıqlar**
**Müəyyən edin**

**1.** T.Nərimanbəyovun monumental əsərlərində hansı koloritin müşahidə olunduğu soruşulur.

**Yaradıcı fəaliyyət**

**2.** Yoldaşlarınızla birgə “Azərbaycan – yurdum mənim!” mövzusunda kollektiv panno yaradın. Bunun üçün əvvəlcə kompozisiyanı düşünüb, uyğun eskizlər çəkin. Sonra öz aranızda mövzunun mahiyyətini əhatə edəcək hansı elementlərin kim tərəfindən çəkiləcəyini müəyyənləşdirin. Bütün iştirakçılar işi tamamladıqdan sonra hissələri bir vatman vərəqdə, əvvəlcədən düşündüyünüz kimi, yapışdırın. Pannonun kənarlarını mövzuya uyğun dekorativ şəkil və naxışlarla bəzəyin.

**3.** Toğrul Nərimanbəyovun yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdim etmək tapşırılır.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Təqdimetmə;
- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə.



Çap üçün deyil

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi çətinliklə təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi müəllimin köməyi və sualları əsasında təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edərkən kiçik qeyri-dəqiqliyə yol verir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir. |
| Azərbaycanın görkəmli rəssamı Toğrul Nərimanbəyov haqqında bəsit məlumat verir. | Azərbaycanın görkəmli rəssamı Toğrul Nərimanbəyov və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Azərbaycanın görkəmli rəssamı Toğrul Nərimanbəyov və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Azərbaycanın görkəmli rəssamı Toğrul Nərimanbəyov və onun əsərləri haqqında təqdimat edir (vərəq və ya müxtəlif kompüter proqramlarında). |
| Pannonun yaradılmasında sulu boyalardan çətinliklə istifadə edir. | Pannonun yaradılmasında sulu boyalardan səliqəsiz istifadə edir. | Pannonun yaradılmasında sulu boyalardan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Pannonun yaradılmasında sulu boyalardan istifadə edir. |
| T.Nərimanbəyovun monumental rəngkarlıq əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | T.Nərimanbəyovun monumental rəngkarlıq əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | T.Nərimanbəyovun monumental rəngkarlıq əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | T.Nərimanbəyovun monumental rəngkarlıq əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |

## 24. ELDAR MIKAYILZADƏ: XALÇALARDA FƏLSƏFİ FİKRİN TƏCƏSSÜMÜ

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart** | | 1.1.1.; 1.3.1.; 2.1.2.; 3.1.1. |

**Təlim nəticələri:**
- Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir;
- Azərbaycanın görkəmli xalçaçı-rəssamı Eldar Mikayılzadə və onun əsərləri haqqında təqdimat edir;
- süjetli xalçanın eskizinin real və abstrakt təsvirində rəngli karandaşlar, qələmlər, flomasterlər, millimetrik kağızdan istifadə edir;
- süjetli xalçalarda milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir.

| | | |
|---|---|---|
| **Resurslar** | müəllim üçün | süjetli xalçalara aid nümunələr (slayd və ya foto), meyar cədvəli |
| | şagird üçün | dərslik, boyalar, flomasterlər, rəngli karandaşlar, millimetrik kağız |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda Azərbaycanın tanınmış xalçaçı-rəssamı Eldar Mikayılzadənin yaradıcılığı haqqında söhbət açılır. Şagirdlər süjetli xalça və bu xalçalarda həkk olunmuş mövzu, fəlsəfə, naxış çələngi haqqında yeni məlumatlar öyrənirlər.*



Çap üçün deyil




**A** Dərsə **İncəsənət dair dialoq** blokunda verilmiş sualla müraciət edərək başlamaq olar:

– Gördüyünüz alətlər harada istifadə olunur? (Xalçaçılıqda)

Və yaxud bayatı:
*Əzizinəm, xana qursam,*
*Xanə içrə xana qursam*
*O gün mənə azar gələr,*
*Mən xanadan yana dursam.*

– Söhbət nədən gedir? (Xalçadan).
– Mövzuda xalçaçı-rəssam Eldar Mikayılzadə və onun yaratdığı xalçalarla tanış olacaqsınız.

***Tədqiqat sualları:*** *Eldar Mikayılzadənin xalçalarında məzmun, süjet nə ilə bağlıdır? Süjetli xalçaların eskizinin çəkilməsində nəyi müəyyən etmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırlayın** blokunda verilən sual müzakirə edilir. Üzərində insan, onun məişəti təsvir olunan xalçaların necə adlandığı cavablandırılır.

**C** Azərbaycan xalçaları xalqın keçmişini, bu gününü əks etdirir, tariximizi naxışlara çevirərək yaşadır, gələcəyə aparır. Xalçaçılıq eyni zamanda xalqımızın mədəniyyətini, adətlərini, istəklərini yaşadan bir sənət növüdür. Qədimdə nənələr xalça naxışlarını çeşnisiz – məişətdə, təbiətdə gördükləri əsasında toxuyurdularsa, bu gün xalçaçı rəssamlar öz fantaziyaları əsasında yaratdıqları əl işləri ilə xalça sənətimizi daha da inkişaf etdirirlər. Eldar Mikayılzadə məhz xalçaçı-rəssam kimi bu sənəti yaşadan, dünyaya tanıtdıran sənətkarlardan biridir.

Rəssamın son işlərindən olan “Kəhkəşan” xalçası Kainatın yaradılışı, insanın göy cisimləri və fəza müstəvisini öyrənməsini əks etdirir.

Çap üçün deyil



**“Kəhkəşan” xalçası. Fraqment. 2013**

Şagirdlər dərslikdə verilmiş mətnlə tanış olurlar. Eldar Mikayılzadə xalçanın necə toxunduğunu, necə ərsəyə gəldiyi ideyasını gerçəkləşdirən ilk rəssamdır. Rəssamın qoyunların otarılmağından tutmuş xalçanın bazarda satılmasına qədər bütün prosesi əks etdirən çeşnisi əsasında “Yaranış” xalçası toxunmuşdur. Bu kompozisiyada “Şeyx Səfi”, “Pazırık”, “Pirəbədil”, “Sərab”, “Xilə-Buta”, “Çiçi” xalçalarının və Qarabağ xurcunlarının da təsviri əks olunub.

E **Təsviri sənət qalereyası** blokunda Eldar Mikayılzadənin xalçaları əks olunmuşdur. O çalışır ki, xalçada konkret bir fikir, mövzu və fəlsəfə olsun, xalça ölçüsündən, naxışlarından tutmuş rənginə qədər həmin o mövzunu, fikri açsın.

D **Düşünün və izah edin** blokunda xalçanın ərsəyə gəlməsinin hansı proseslərdən ibarət olduğu müzakirə edilir.

F **Görkəmli rəssamlar**a dair cədvəldə xalçaçı-rəssam Eldar Mikayılzadənin həyat xronologiyası verilmişdir.

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən edin**

**1. Rəssamın** xalçalarında hansı ornament növləri, kolorit və məzmun göstərilmişdir?

**Yaradıcı fəaliyyət**

**2.** Millimetrik kağızda süjetli xalçanın eskizini çəkin. Bu, seçəcəyiniz mövzunun fikrini və mahiyyətini ifadə edə bilən hər hansı bir əsərə, hekayəyə aid xalça eskizi də ola bilər. Xalçada istifadə edəcəyiniz naxış növlərini, koloriti əvvəlcədən müəyyən edin.

**3.** Eldar Mikayılzadənin yaradıcılığı haqqında əlavə məlumat toplayıb təqdim etmək tapşırılır.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

Çap üçün deyil

*Qiymətləndirmə meyarları:*

- Təqdimetmə;
- Təqdimatetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi çətinliklə təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi müəllimin köməyi və sualları əsasında təqdim edir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edərkən kiçik qeyri-dəqiqliyə yol verir. | Azərbaycan təsviri sənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir. |
| Azərbaycanın görkəmli xalçaçı-rəssamı Eldar Mikayılzadə haqqında bəsit məlumat verir. | Azərbaycanın görkəmli xalçaçı-rəssamı Eldar Mikayılzadə və onun əsərləri haqqında məlumatları izah etməkdə çətinlik çəkir. | Azərbaycanın görkəmli xalçaçı-rəssamı Eldar Mikayılzadə və onun əsərləri haqqında sadə təqdimat hazırlayır. | Azərbaycanın görkəmli xalçaçı-rəssamı Eldar Mikayılzadə və onun əsərləri haqqında təqdimat edir (vərəq və ya müxtəlif kompüter proqramlarında). |
| Süjetli xalçanın eskizinin real və abstrakt təsvirində rəngli karandaşlar, qələmlər, flomasterlər, millimetrik kağızdan çətinliklə istifadə edir. | Süjetli xalçanın eskizinin real və abstrakt təsvirində rəngli karandaşlar, qələmlər, flomasterlər, millimetrik kağızdan səliqəsiz istifadə edir. | Süjetli xalçanın eskizinin real və abstrakt təsvirində rəngli karandaşlar, qələmlər, flomasterlər, millimetrik kağızdan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Süjetli xalçanın eskizinin real və abstrakt təsvirində rəngli karandaşlar, qələmlər, flomasterlər, millimetrik kağızdan istifadə edir. |
| Süjetli xalçalarda verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Süjetli xalçalarda milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Süjetli xalçalarda milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Süjetli xalçalarda milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |



Çap üçün deyil

# 25–26. İDEYA, FUNKSİYA, RAHATLIQ: İNSANIN ƏŞYALAR ALƏMİ

## Gündəlik planlaşdırmaya dair dərs nümunəsi

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart** | | 1.1.1.; 1.2.2.; 2.1.2.; 2.2.1.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• Azərbaycan təsviri incəsənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir;<br>• dekorativ sənət növlərindən olan misgərliyi, şəbəkəni xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• əşyaların dizaynında rəngli karandaşlar, qələmlər, flomasterlərdən istifadə edir;<br>• geyim əşyaları və nəqliyyat vasitələri üzərində bədii tərtibat və dizayn bacarıqlarını nümayiş etdirir;<br>• bədii sənət əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. | | |
| **Dərsin tipi** | | deduktiv |
| **İnteqrasiya** | | İnf. 3.2.1.; 3.2.3.; Tex. 1.3.1.; 1.3.2.; 1.3.3.; Ü-t. 1.1.2; 3.1.2.; Az-d.1.2.4.; H-b.2.1.1.; Az-t. 1.3.1; 4.1.1.; 5.1.2; 5.1.3. |
| **İş formaları** | | qrup işi |
| **İş üsulları** | | müzakirə; Ziqzaq; təriflər-suallar-təkliflər |
| **Resurslar** | müəllim üçün | mövzuya dair əyani vəsait, qiymətləndirmə cədvəli |
| | şagird üçün | dərslik, rəngli karandaşlar, qələmlər, flomasterlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlərə dizayn, konstruksiyaetmə haqqında maraqlı məlumatlar təqdim olunmuşdur. İnsan bir çox yeni əşyalar yaradır və onların eyni zamanda həm yararlı, həm də gözəl olmağını düşünür. Əşyanın yaradılmasında alimlər, mühəndislər və dizaynerlər çalışır. Bunun üçün memarlığı, təsviri sənəti, keramika və dekorativ-tətbiqi sənəti bilməyin vacib olduğu vurğulanır.*




Çap üçün deyil




## (A) Dərsin gedişi. Motivasiya

Müəllim dərslikdə **İncəsənətə dair dialoq** blokunda verilmiş sualı şagirdlərlə müzakirə edir:

– “Dizayn” anlayışını necə başa düşürsünüz? Dizayn və onun istifadə sahələri haqqında nə bilirsiniz? (Fərziyyələr)

***Tədqiqat sualları:*** *Dizayn və dizaynerin funksiyası nədir? Əşyaların dizaynında, bədii tərtibatında ən vacib amillər hansılar sayılır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

## Tədqiqatın aparılması

(B) **Xatırlayın** blokunda verilən sual müzakirə edilir.

(C) Şagirdlər dərslikdə verilmiş dizayn aləmi, onun cəmiyyətdə rolu haqqında məlumatı oxuyurlar. Əşyaların obrazı, funksiyası, forma və estetik dəyərləri, rəngi, gözəlliyi və nəhayət, ən sonda bəzəyi dəqiq düşünülməlidir. Demək olmaz ki, əşya üzərində ornamentlər olmadan gözəl görünməyəcək, lakin ölçü nisbətlərinə görə o, çox da rahat ola bilər. Müasir əşyalar özündə xalq sənətinin incəliklərini qoruyub saxlayır. Əvvəllər olduğu kimi, rəssamlar üçün ən vacib ilham mənbəyi təbiət sayılır.

Şagirdlər yeni mövzu ilə Ziqzaq üsulu vasitəsilə tanış ola bilərlər. 1-ci “Ekspert” qrupu mövzunun əvvəlindəki hissəni – avtomobil haqqında, 2-ci “Ekspert” qrupu – peşə sahiblərinin geyimlərini, 3-cü “Ekspert” qrupu – qədim xalq sənəti olan misgərliyi, 4-cü “Ekspert” qrupu isə şəbəkə haqqında olan hissələri oxuyub tanış olduqdan sonra bir-biri ilə bölüşürlər.

(D) Dərsliyin əvvəlində **Düşünün və izah edin** blokunda verilmiş şəkillərdə gördüklərinin özündə hansı təbiət obrazlarını əks etdirdiyi izah olunur. Avtomobillərlə bağlı hissəsində isə avtomobillərin xarici görünüşünün nə ilə fərqləndiyi soruşulur. Dərsliyin misgərliklə bağlı məlumat olan hissəsində bu gün misgərlik sənətinin necə dəyərləndirildiyi barədə şagirdlərin fikirləri dinlənilir.

## (G) Sərbəst iş üçün tapşırıqlar

### Müəyyən edin

**1.** Hər bir avtomobilin ticarət markası mövcuddur. Verilmiş işarələrin nə təşkil etdiyini, forması, mənası və rəngi haqqında nə demək olar?

Çap üçün deyil

### Yaradıcı fəaliyyət

**2. a)** Təbiət obrazlarını nəzərə alaraq, yeni model avtomobil, geyim, misgərlik və yaxud şəbəkə nümunəsinin eskizini çəkin. Onların formasını, rahatlığını, funksionallığını, rəngini və gözəl görünüşünü də nəzərə alın.

**b)** Eskizini çəkdiyin avtomobilin ticarət markasının necə olacağını düşünün və qarışıq materiallardan (məftil, rəngli kağız, karton, parça və ya saplar) hazırlayın.

Müəllim dərsin sonunda şagirdlərin *özünü dərəcələr üzrə qiymətləndirəcəyini* xatırladır və meyarları nümayiş etdirir.

### Məlumat mübadiləsi

Qruplar rəsmlərini asaraq, onlar haqqında danışırlar. 1-ci qrup yeni model avtomobilin, 2-ci qrup – geyimin, 3-cü qrup – misgərlik nümunəsinin və 4-cü qrup – şəbəkə nümunəsinin eskizi haqqında danışır.

### Məlumatın müzakirəsi və təşkili

Təriflər-suallar-təkliflər üsulundan istifadə ilə rəsmlər təhlil edilir.

### H Ümumiləşdirmə və nəticə

– Müasir dövrdə insan avtomobilsiz keçinə bilərmi?
– Hansı səbəblərə görə dizayn müasir dövrümüzdə belə aktualdır?

### Yaradıcı tətbiqetmə

**3.** Dizayn – incəsənətin bir növü kimi, onun növləri, müasir aləmdə mənası haqqında əlavə material toplamaq və təqdimat hazırlamaq tapşırılır.

### Qiymətləndirmə

*Dərəcələr üzrə qiymətləndirmə* aşağıdakı meyarlar əsasında aparılır.

| № | Meyarlar | Əla IV səviyyə | Yaxşı III səviyyə | Orta II səviyyə | Zəif I səviyyə |
|---|---|---|---|---|---|
| 1. | Azərbaycan təsviri incəsənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdimetmə | + | + | – | – |
| 2. | Dekorativ sənət növlərindən olan misgərliyi, şəbəkəni xarakterik xüsusiyyətlərinə görə şərhetmə | + | + | + | + |
| 3. | Əşyaların dizaynında rəngli karandaşlar, qələmlər, flomasterlərdən istifadəetmə | + | + | + | – |
| 4. | Geyim əşyaları və nəqliyyat vasitələri üzərində bədii tərtibat və dizayn bacarıqları nümayişetdirmə | + | – | – | – |
| 5. | Bədii sənət əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisəetmə | + | + | + | + |
| 6. | Təsviri tapşırılan vaxt ərzində yerinə yetirmə | + | + | + | – |

---

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ № 5)**
**nümunəsi vəsaitin sonunda verilmişdir.**

Çap üçün deyil

# 27. DÜNYA MUZEYLƏRİ: İMPRESSİONİZMİN RUHU

| | | |
|---|---|---|
| **Məşğələ növü** | | təsviri sənət haqqında söhbət |
| **Alt-standart** | | 3.1.1.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• muzeylərdəki impressionist və postimpressionist əsərlərdə milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir;<br>• muzeylərdəki eksponatların xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | | |
| **Dərsin tipi** | | deduktiv |
| **Resurslar** | müəllim üçün | müxtəlif muzey və eksponatlar, ekspozisiyalar (slayd və ya şəkillər), iş vərəqləri, meyar cədvəli |
| | şagird üçün | dərslik, muzeylərlə bağlı müxtəlif ensiklopediyalar, mənbələr və resurslar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlər kolleksiyaların təməli impressionistlərin və postimpressionistlərin əsərləri üzərində qurulan d'Orse və Marmottan-Mone muzeyləri haqqında məlumat alırlar.*




(A) Dərsə **İncəsənət dair dialoq** blokunda verilmiş sualla müraciət edərək başlamaq olar.

***Tədqiqat sualı:*** *Müxtəlif cərəyanlara dair muzeylərin yaranması səbəbləri nədir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

(B) **Xatırlayın** blokunda verilən suala müraciət olunur. İlk muzeylərin necə yarandığı müzakirə edilir.

(C) Mövzu BİBÖ üsulu ilə tətbiq edilə bilər.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

D'Orse muzeyi – Parisdə təsviri və tətbiqi sənətlər muzeyidir. Dünyada ən böyük Avropa rəngkarlıq və heykəltəraşlıq nümunələri saxlanılan muzeydə 1850–1915-ci illərə aid 4 mindən artıq sənət əsəri nümayiş etdirilir.



Çap üçün deyil

Marmottan-Mone muzeyi – Parisin təsviri sənət muzeyidir. Marmottan-Mone muzeyində impressionist və postimpressionistlərin üç yüzdən çox əsəri qorunur. Həmin əsərlər Klod Mone və Eduar Manenin, Edqar Deqanın, Berta Morizonun, Alfred Sisleyin, Pol Qogenin, Kamil Pisarronun, Pol Sinyakın və Pyer Ogüst Renuarın şah əsərləridir.

Mövzuda hər iki muzeyin rəsmi saytının ünvanı verilmişdir. Müəllim şagirdləri dərs zamanı canlı olaraq bu muzeylərin zallarında nümayiş etdirilən eksponatlarla tanış edə bilər.

### G Sərbəst iş üçün tapşırıqlar

**Müəyyən edin**

**1.** Muzeylərin rəsmi saytları ilə tanışlıqdan sonra 8-ci sinifdə tanış olduqları hansı sənət əsərlərinin d'Orse və Marmottan-Mone muzeylərində saxlanıldığı soruşulur.

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlər dünya muzeyləri haqqında müxtəlif mənbələrdən əlavə məlumatlar toplayır və təqdimat hazırlayırlar.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünüzü yoxlayın** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Muzeylərdəki impressionist və postimpressionist əsərlərində verilmiş nümunələrin milli-üslubi cəhətlərini tanıdığını nümayiş etdirir. | Muzeylərdəki impressionist və postimpressionist əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə çətinliklə ayırır. | Muzeylərdəki impressionist və postimpressionist əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müəllimin sualları əsasında fərqləndirməyə çalışır. | Muzeylərdəki impressionist və postimpressionist əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir. |
| Muzeylərdəki eksponatların xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını tanıyır. | Muzeylərdəki eksponatların emosional təsir imkanlarını qruplaşdıraraq izah edir. | Muzeylərdəki eksponatların xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını seçərək izah edir. | Muzeylərdəki eksponatların xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını müqayisə etməklə şərh edir. |

Çap üçün deyil

# TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏLƏRİ

**Qeyd.** Bütün summativ qiymətləndirmə nümunələrində tövsiyə olunan tapşırıqların sayı 11-dir. İlk 10 tapşırıq şagirdin bölmədə öyrəndiyi bilik və bacarıqları qiymətləndirmək üçün tərtib olunmuş test tapşırıqlarıdır. Sonuncu – 11-ci tapşırıq isə şagirdin yaradıcılıq qabiliyyətinin qiymətləndirilməsi üçün nəzərdə tutulmuşdur. Yaradıcı tapşırığın əhəmiyyəti böyük olduğu üçün şagirdi qiymətləndirərkən bu tapşırıqların yerinə yetirilməsinə üstünlük verilməsi məqsədəuyğundur.

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ üzrə cavablar

---

| KSQ № 1 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | a. | a. | **a.** | **a.** | a. | a. | a. | **a.** |
| | | b. | **b.** | b. | b. | b. | b. | **b.** | **b.** | b. | b. |
| | | **c.** | c. | **c.** | **c.** | c. | c. | c. | c. | **c.** | c. |

| KSQ № 2 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | **a.** | a. | a. | **a.** | a. | a. | **a.** | a. | a. | a. |
| | | b. | **b.** | b. | b. | b. | **b.** | b. | **b.** | b. | **b.** |
| | | c. | c. | **c.** | c. | **c.** | c. | c. | c. | **c.** | c. |

| KSQ № 3 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | **a.** | a. | a. | a. | **a.** | a. | a. | a. |
| | | b. | **b.** | b. | b. | b. | **b.** | b. | **b.** | b. | **b.** |
| | | **c.** | c. | c. | **c.** | **c.** | c. | c. | c. | **c.** | c. |

| KSQ № 4 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | **a.** | a. | **a.** | a. | a. | a. | a. | a. | **a.** |
| | | b. | b. | b. | b. | b. | **b.** | b. | **b.** | **b.** | b. |
| | | **c.** | c. | **c.** | c. | **c.** | c. | **c.** | c. | c. | c. |

| KSQ № 5 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | **a.** | a. | a. | a. | a. | **a.** | a. | a. |
| | | **b.** | **b.** | b. | b. | **b.** | b. | **b.** | b. | b. | **b.** |
| | | c. | c. | c. | **c.** | c. | **c.** | c. | c. | **c.** | c. |

Çap üçün deyil

# TƏSVİRİ İNCƏSƏNƏT
# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №1)

Ad_____________Soyad___________________Sinif________Tarix___________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| Yaradıcı tapşırıq meyarları | Kompozisiya | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Tarixi janr | | | | | | | | | | |
| | Maraqlı süjet | | | | | | | | | | |
| | Rəng həlli | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | ….. |
| Ümumi qiymət (cavablar + yaradıcı rəsm) | | | | | | | | | | | ….. |

| | |
|---|---|
| **1. Batal janrında təsvir olunur:**<br>a) insanın gündəlik həyatı<br>b) tarixi hadisələr<br>c) hərbi səhnələr | **2. Tarixi janrda təsvir olunur:**<br>a) insanın gündəlik həyatı<br>b) tarixi hadisələr<br>c) hərbi səhnələr |
| **3. Müharibə səhnələrini təsvir edir:**<br>a) animalist b) portretçi<br>c) batalist | **4. Batal və tarixi əsərlər yaradılır:**<br>a) heykəltəraşlıqda<br>b) qrafika və rəngkarlıqda<br>c) hamısında |
| **5. Hansı rəssamın yaradıcılığında Bonapart Napoleon xüsusi yer tuturdu:**<br>a) Jak Lui David<br>b) Fransisko Qoyya<br>c) Ejen Delakrua | **6. Yeni dövrdə yaranmış üslublar:**<br>a) klassisizm<br>b) antik<br>c) Renessans |
| **7. Təsviri sənətin inkişafında Jak Lui Davidin mühüm xidmətləri:**<br>a) mənzərə janrının meydana gəlməsi<br>b) klassisizm meydana gəldi, ampir və neoklassisizm yarandı<br>c) hamısı | **8. Hansı rəssam öz kompozisiyalarında antik və orta əsrlər dövrünə müraciət edirdi:**<br>a) Ejen Delakrua<br>b) Enqr<br>c) Fransisko Qoyya |
| **9. Rəssamlar arasında ilk dəfə rəng problemini irəli sürən və bunu elmi cəhətdən əsaslandıran rəssam:**<br>a) Jak Lui David b) Enqr<br>c) Ejen Delakrua | **10. "İdeal rəsm"i hər şeydən yüksək qiymətləndirən rəssam:**<br>a) Enqr b) Ejen Delakrua<br>c) Fransisko Qoyya |
| **11. Yaradıcı tapşırıq.** Tarixi janra aid rəsm çəkin. Burada janrın əsas xüsusiyyətlərini göstərməyə çalışın. Ümumi kompozisiyanın bütöv görünüşünü nəzərə alın. Rəsminizi rəngli karandaş və flomasterlərlə rəngləyin. | |

Çap üçün deyil

## TƏSVİRİ İNCƏSƏNƏT
## SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №2)

Ad______________Soyad______________________Sinif_________Tarix____________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Cavablar üzrə qiymət ..... |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | |
| Yaradıcı tapşırıq meyarları | Kompozisiya | | | | | | | | | | Rəsm üzrə qiymət ..... |
| | Süjet | | | | | | | | | | |
| | Mövzunun xüsusiyyətləri | | | | | | | | | | |
| | Orijinal məzmun | | | | | | | | | | |
| | Səliqəli işləmə | | | | | | | | | | |
| Ümumi qiymət (cavablar + yaradıcı rəsm) | | | | | | | | | | | ..... |

**1. Plener rəngkarlığı işlənilir:**
a) açıq havada b) emalatxanada
c) muzeydə

**2. İmpressionizmin mənası:**
a) hərəkət b) təəssürat c) cərəyan

**3. İmpressionizmin yaranma səbəbləri:**
a) rəng dairəsinin meydana çıxması
b) fotoşəklin ixtirası
c) hamısı

**4. Hansı rəssamın əsəri impressionizm cərəyanının adını müəyyən etdi?**
a) Klod Mone b) Kamil Pisarro
c) Edqar Deqa

**5. Hansı rəssam eyni mənzərəni günün bütün vaxtında müxtəlif təsvir etmişdir?**
a) Alfred Sisley b) Eduard Mane
c) Klod Mone

**6. İmpressionist rəssamların xidməti:**
a) kətanın icadı
b) tübik-boyaların yaranması
c) qara rəngdən istifadə

**7. Hansı rəssam impressionizm natürmortlarında əşyaların sayını azaltmışdı?**
a) Eduard Mane b) Kamil Pisarro
c) Edqar Deqa

**8. Bu rəssamın yaradıcılığının əsas mövzusu həyatın adi sevincləri idi:**
a) Edqar Deqa b) Oğüst Renuar
c) Klod Mone

**9. Heykəltəraşlığa xarakterik olan janr:**
a) natürmort
b) mənzərə
c) portret

**10. Hansı heykəltəraş yaratdığı heykəllərdə hərəkət və emosiyaları göstərmişdir?**
a) Ogüst Renuar b) Ogüst Roden
c) Edqar Deqa

**11. Yaradıcı tapşırıq.** İnsanın gündəlik həyatına aid səhnələrin rəsmini çəkin. Rəsmdə janrın əsas mövzusunun xüsusiyyətlərini göstərməyə çalışın. Kompozisiya bütövlüyünü nəzərə alın. Orijinal məzmun fikirləşin, pastel təbaşir, rəngli karandaş və ya flomasterlərlə səliqəli rəngləyin.

Çap üçün deyil

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №3)

Ad______________Soyad______________________Sinif_________Tarix____________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Cavablar üzrə qiymət ..... |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | |
| Yaradıcı tapşırıq meyarları | Kompozisiya | | | | | | | | | | Rəsm üzrə qiymət ..... |
| | Simvolik rəmzlər | | | | | | | | | | |
| | Məzmun | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | |
| | Səliqəli rəngləmə | | | | | | | | | | |
| Ümumi qiymət (cavablar + rəsm) | | | | | | | | | | | ..... |

**1. Postimpressionizm cərəyanının başlıca nümayəndəsi:**
a) Eduard Mane b) Ogüst Roden
c) Vinsent Van Qoq

**2. Hansı rəssam öz yaradıcılığında qeyri-adi ştrixlərdən istifadə edirdi?**
a) Pol Qogen b) Vinsent Van Qoq
c) hər ikisi

**3. Simvolizm cərəyanında məşhur tablolar çəkmişdir:**
a) Pol Qogen b) Vinsent Van Qoq
c) Anri Matis

**4. Hansı rəssam xətləri və formaları sadələşdirmişdir?**
a) Anri Matis b) Pol Qogen
c) hər ikisi

**5. Primitivizm istiqamətinə aid edilir:**
a) qeyri-peşəkarlıq b) stilizə edilmiş
c) hər ikisi

**6. Fovizm cərəyanına xasdır:**
a) işıq-kölgə b) kontrast rənglər
c) perspektiv qaydalar

**7. Dekupaj texnikasında:**
a) əşya səthinə dekor vurulur
b) xalçalar bəzənilir
c) ornamentlər çəkilir

**8. Hansı rəssam öz yaradıcılığında işıq-kölgədən imtina edərək, səthi təsvirlər yaratdı?:**
a) Leonardo da Vinçi b) Anri Matis
c) Klod Mone

**9. Hansı rəssam eskizlərin yaradılmasında dekupaj texnikasından istifadə edirdi?**
a) Pol Qogen b) Vinsent Van Qoq
c) Anri Matis

**10. Hansı rəssam islam incəsənəti əsərlərinin güclü təsirini hiss etmişdi?**
a) Pol Qogen b) Anri Matis
c) Vinsent Van Qoq

**11. Yaradıcı tapşırıq.** Müxtəlif rəmzlərin əks olunduğu maraqlı rəsm və yaxud sadəcə, simvolik rəsm düşünüb çəkin. Rəsminizi rəngli karandaşlar və flomasterlərlə rəngləyin.

Çap üçün deyil

# TƏSVİRİ İNCƏSƏNƏT
# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №4)

Ad_____________Soyad____________________Sinif________Tarix___________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| **Yaradıcı tapşırıq meyarları** | Şəhər mənzərəsi | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Memarlıq tikilisi | | | | | | | | | | |
| | Heykəltəraşlıq nümunələri | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | |
| | Səliqəli rəngləmə | | | | | | | | | | ..... |
| **Ümumi qiymət (cavablar + rəsm)** | | | | | | | | | | | ..... |

| | |
|---|---|
| **1. Hansı rəssam teatr dekorasiyalarının müəllifi idi?**<br>a) Fuad Əbdürrəhmanov<br>b) Tokay Məmmədov<br>c) Böyükağa Mirzəzadə | **2. Azərbaycanın görkəmli heykəltəraşı:**<br>a) Fuad Əbdürrəhmanov<br>b) Tahir Salahov<br>c) Səttar Bəhlulzadə |
| **3. Hansı rəssamın yaradıcılığında impressionizm üslubunun təsiri hiss olunurdu?**<br>a) Fuad Əbdürrəhmanov<br>b) Tokay Məmmədov<br>c) Böyükağa Mirzəzadə | **4. Dəzgah heykəltəraşlığı nümunəsi:**<br>a) büst<br>b) abidə<br>c) heykəl |
| **5. Monumental heykəltəraşlıq nümunəsi:**<br>a) büst b) bədən c) abidə | **6. Heykəltəraşlıq növü:**<br>a) dekupaj b) barelyef c) freska |
| **7. Qabarıq relyeflər təsviri sənətin hansı növünə aiddir?**<br>a) qrafika b) rəngkarlıq<br>c) heykəltəraşlıq | **8. Hansı heykəltəraş ağac materialından məharətlə istifadə edirdi:**<br>a) Fuad Əbdürrəhmanov<br>b) Tokay Məmmədov<br>c) hər ikisi |
| **9. Hansı memarlıq tikililəri S.Dadaşova aiddir?**<br>a) “Azərbaycan” kinoteatrı<br>b) “Nizami” kinoteatrı<br>c) heç biri | **10. Heykəllərin materialına görə işləmə texnikası:**<br>a) yonma b) nöqtələmə<br>c) cızma |

**11. Yaradıcı tapşırıq.** Elə bir şəhər mənzərəsi çəkin ki, orada həm müxtəlif formalı tikililər, həm də heykəltəraşlıq nümunələri yer alsın. Rəsmin kompozisiya həllini düzgün yerinə yetirin. İstənilən materialla rəngləyin.



Çap üçün deyil

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №5)

Ad_____________Soyad____________________Sinif________Tarix___________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| Yaradıcı tapşırıq meyarları | İnteryer | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Perspektiv qaydalar | | | | | | | | | | |
| | Rəngkarlıq, şəbəkə, misgərlik, xalça nümunələri | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | |
| | Səliqəli rəngləmə | | | | | | | | | | ..... |
| Ümumi qiymət (cavablar + rəsm) | | | | | | | | | | | ..... |

**1. Monumental rəngkarlıq nümunəsi:**
a) heykəl b) freska
c) tikili

**2. Dekorativ-tətbiqi sənət növü:**
a) rəngkarlıq, qrafika
b) misgərlik, şəbəkə
c) memarlıq, dizayn

**3. Süjetli xalçalarda təsvir olunur:**
a) insan və məişət
b) nəbati ornamentlər
c) həndəsi ornamentlər

**4. Rəngkarlıqda ifadə vasitəsi:**
a) forma b) xətt
c) rəng

**5. Dekorativ-tətbiqi sənət sahəsi:**
a) interyer b) xalçaçılıq
c) heykəltəraşlıq

**6. Teatr, bayram təntənələrinin, dekorativ səhnə əsərlərinin müəllifi:**
a) Fuad Əbdürrəhmanov
b) Tokay Məmmədov
c) Toğrul Nərimanbəyov

**7. Binanın daxili hissəsi:**
a) eksteryer b) interyer
c) heç biri

**8. Ticarət markası nəyi müəyyən edir?**
a) istehsalçının adını
b) istehsal olunan ölkəni
c) firmanın rəngini

**9. Xalçaçı-rəssam:**
a) Toğrul Nərimanbəyov
b) Böyükağa Mirzəzadə
c) Eldar Mikayılzadə

**10. Misgərlik sənətinin texniki işləmə üsulu:**
a) yonma b) döymə
c) heç biri

**11. Yaradıcı tapşırıq.** Elə bir interyer çəkin ki, orada divarın bir hissəsi rəngkarlıq əsəri (freska), digəri isə şəbəkə ilə işlənilsin, misgərlik və xalça nümunələri də yer alsın. İnteryerin frontal və ya bucaq olacağını özünüz müəyyən edin, kompozisiya həllini, perspektivin qanunlarını düzgün yerinə yetirin. Rəngli karandaşlar, flomasterlərlə rəngləyin.

Çap üçün deyil

**Müəllim qiymətləndirmə vasitələrinin hazırlanmasında dərsliyin hər bölmə üzrə “Ümumiləşdirici tapşırıqlar” blokunda olan tapşırıq növlərindən də istifadə edə bilər.**













Çap üçün deyil

## MƏNBƏLƏR


1. "Ümumtəhsil məktəblərinin I–IX sinifləri üçün təsviri incəsənət fənni üzrə kurikulumlar". Bakı, 2012.
2. Y.Ş.Kərimov. "Təlim metodları". Bakı, 2007.
3. Z.Veysova. "Fəal/interaktiv təlim". Müəllimlər üçün vəsait, UNICEF, Bakı, 2007.
4. Təsviri incəsənət proqramı. Ümumtəhsil məktəblərinin I–VII sinifləri üçün. "Kövsər" nəşriyyatı, Bakı, 2007.
5. "Azərbaycan Milli Ensiklopediyası". Elmlər Akademiyası, Bakı, 2007.
6. C.Həsənzadə, E.Hacınski. "Ayna" Uşaq Ensiklopediyası. "İncəsənət. Bəşəriyyətin misilsiz sərvəti". Bakı, "Ayna Mətbu Evi", 1999.
7. R.Əfəndiyev. "Azərbaycanın daş plastikası". "İşıq" nəşriyyatı, Bakı, 1986.
8. R.Əfəndiyev "Azərbaycan xalq sənəti". "İşıq" nəşriyyatı, Bakı, 1984.
9. R.Əfəndiyev. "Azərbaycan incəsənəti". "Şərq-Qərb", Bakı, 2007.
10. R.Əfəndiyev. "Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində". "İşıq" nəşriyyatı, Baкı, 1980.
11. Ş.H.Sadıqzadə. "Qədim Azərbaycan bəzəkləri". Bakı, "İşıq" nəşriyyatı, 1971.
12. "Altay Hacıyev". "İşıq" nəşriyyatı, Bakı, 1974.
13. Azərbaycan Uşaq Folkloru Kitabxanası. "Mərasimlər, adətlər, alqışlar...", 1-ci kitab. "Gənclik", Bakı, 1993.
14. Məmmədov V.S., Əmiraslanov İ.R., Nəcəfov H.N., Mirsəliyev A.A. "Naxışların yaddaşı". Azərnəşr, Bakı, 1981.
15. Useynov M., Bretanitski M., Salamzadə M. "Azərbaycan memarlığı tarixi". Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu.
16. "İnşaat, memarlıq və inşaat materialları ədəbiyyatı", dövlət nəşriyyatı, Moskva, 1963.
17. C.Qiyasi. "Nizami dövrü memarlıq abidələri". "İşıq" nəşriyyatı, Bakı, 1991.
18. Rzayev N., Qeybullayev Q., Rzayev Ş. "Rusca–azərbaycanca memarlıq-inşaat lüğəti", "Elm", Bakı, 1998.
19. Lətif Kərimov. "Azərbaycan xalçası". "Yazıçı ", Bakı, 1985.
20. K.Əliyeva, E.İbrahimov. "Lətif Kərimov: həyat və yaradıcılığı". "Aspoliqraf" nəşriyyatı. 2007, Bakı, s.248.
21. "Azərbaycan". Bakı, 1998, s. 416.
22. Müasir İncəsənət Muzeyi. Altay Sadiqzadə. Bakı, 2009.
23. "Arxeoloji albom – Bakı, İçərişəhər", "Oka Ofset", Bakı, 2002, s.112
24. Ş.H.Sadıqzadə. "Qədim Azərbaycan bəzəkləri". "İşıq" nəşriyyatı , Bakı, 1971.
25. Z.Əliyev. "Sənətin Məcnunu". "Aspoliqraf" nəşriyyatı, Baкı, 2009.
26. K.Kərimov. "Azərbaycan miniatürləri" , "İşıq", Bakı, 1980.
27. "Azərbaycan dilinin izahlı lüğəti", 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.
28. "Azərbaycan dilinin orfoqrafiya lüğəti". "Şərq-Qərb", Bakı, 2013.
29. R.Məlikov, N.İbrahimov. "Məktəblinin tarix lüğəti". "Ayna Mətbu Evi", Bakı, 2004.
30. Автор-составитель М.Наджафов. "Живопись Азербайджанской ССР – 1960-е годы. "Советский художник", Москва, 1976 г.
31. "Изобразительное искусство Азербайджанской ССР". "Советский художник", Москва, 1978.
32. "Çocuklar için sanat". "Tudem", Alsancaq, İzmir, 2009.
33. Durmuş Akbulut. "Resm neyi anlatır". "Etik yayınlar", İstanbul, 2011.
34. Искусство Советского Азербайджана. Живопись. Графика. Скульптура. Москва, "Советский художник".
35. Преттье М.К. и Капальдо А. "Творчество и выражение", том 2. Москва, "Советский художник", 1985.
36. "Детская энциклопедия" – том 12. Москва, издательство "Педагогика", 1977.
37. Лавров А.М. "Школа. Учитель. Искусство". "Просвещение", Москва, 1981.




Çap üçün deyil

38. Белютин Э.М. “Основы изобразительной грамоты”. Издательство “Советская Россия”, Москва, 1961.
39. “Рисунок и живопись”, том 1. Государственное издательство “Искусство”. Москва, 1961.
40. “Энциклопедический словарь юного художника”. “Педагогика”, Москва, 1983.
41. Сокольникова Н.М., Ломов С.П. “Изобразительное искусство для детей. Виды и жанры изобразительного искусства”. Книга для семейного чтения и творческого досуга. АСТ. Астрель, Москва, 2009.
42. Ю.Аксенов, М.Левидова. “Цвет и линия – практическое руководство по рисунку и живописи”. “Советский художник”, Москва, 1976.
43. Роджер Эрб, Стефан Зелевски. “Цвет и свет”. Энциклопедия. Издательство “Мир книги”, 2007.
44. Ящухин А.П. “Живопись”. “Просвещение”, Москва, 1985.
45. Кастерман Ж. “Живопись”. “Рисуй и самовыражайся”. Детское справочное бюро. Москва, издательство “АСТ”, Астрель, 2002.
46. Элвин Крошо, “Акварель – как рисовать”, Москва, издательство АСТ. Астрель, 2006.
47. “Атлас средневековья. История. Традиции”. “Премьера”, “Астрель”, АСТ, Москва, 2000.
48. “Архитектура древнего и ранне-средневекового Азербайджана”. Азербайджанское государственное издательство, Баку, стр.311, 1986.
49. “Мир Вещей”. Современная энциклопедия, стр. 443, Москва, 2006.
50. Чингиз Каджар. “Искусство Азербайджана – средние века”. “Azerbaijan – IRS”, 2003.
51. “Всеобщая история костюма”. “Эксмо”, стр. 464, Москва, 2007.
52. “Rysowanie dla poczatkujacych”. Mark i Mary Willenbrink. Wydawnictwo K.E.Liber, 2008.
53. “Moja pierwsza ksiazka o risowaniu”. Jan Jager and Ica Bokforlaq. Wydawnictwo REA. Warszawa, 2010.
54. http://www.artprojekt.ru/Menu.html – Всемирная энциклопедия искусства.
55. http://www.artap.ru/cult/iart_p.htm – Культура и культурология.



Çap üçün deyil